www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 dekabr 2016-cı il Cümə axşamı № 267 (6588) Qiyməti 60 qəpik

**Xəbər**

## Saxta dollarlar harada və necə hazırlanır - sensasion faktlar

yazısı səh.15-də

**Gündəm**

### Büdcə müzakirələri deputatlarla hökuməti üz-üzə qoydu



Milli Bankın sədri: "Susmağımızın səbəbi budur..."

yazısı səh.5-də

### Kredit borcları əhalini psixoz vəziyyətinə salıb

yazısı səh.4-də

### Zakir Həsənov MDB Müdafiə Nazirləri Şurasının iclasında iştirak etdi

yazısı səh.2-də

### "Oğlumu oğurlayıb, 50 min istədilər" - Akif Çovdarovun məhkəməsində şahidlər danışır...

yazısı səh.3-də

### Partiya sədri Artur Rasi-Zadənin istefasını istəyir

yazısı səh.6-da

### Türkiyədə erməni terrorçuların abidəsinin sökülməsi qərarı verildi

yazısı səh.7-də

### Avropa Birliyi -Türkiyə əlaqələri: tamam, yoxsa...

yazısı səh.10-da

### Azərbaycan və Rusiya sərhədində əməliyyat keçirildi - 27 nəfər saxlanıldı

yazısı səh.7-də

### Rus-erməni müttəfiqliyi bölgəyə yeni fəlakətlər vəd edir - sərt etirazlar

yazısı səh.11-də

### Rus generalını Bakıda necə qətlə yetirdilər - Həmid Herisçinin tarixi araşdırması

yazısı səh.12-də

## Rusiyanın nüfuzlu nəşrindən şok iddia

# AZƏRBAYCAN ERMƏNİSTANLA ORTAQ KOALİSİYADA? - KREMLİN NÖVBƏTİ MƏKRLİ PLANI

Putin Bakı və İrəvanı "sülhməramlı" adı ilə özünün Suriya projesinə qoşmaq istəyir; Tehran və Moskvaya görə İslam ordusuna qoşulmayan Azərbaycanın seçimi nə olacaq - İranın da yer aldığı koalisiya, yoxsa Türkiyə?..




yazısı səh.7-də

# "Rabitə çete"sinin məhkəməsində ilginc korrupsiya açıqlamaları

BTRİB-in rəisi Beytulla Hüseynov talançılığı rəhbərliyin göstərişi ilə etdiyini bildirdi; baş mühasib isə dövlətin pullarını necə mənimsədiklərinin xəritəsini göstərdi

yazısı səh.3-də



### "Tarif Şurasının qərarı ilə bağlı korrektələr ola bilər" - millət vəkili Adil Əliyevlə olay müsahibə

yazısı səh. 8 və 9-da



### Eldar Mahmudovun "sağ əli"nin cinayət işinin istintaqı dayandırıldı

yazısı səh.3-də



*Psixoloq Dəyanət Rzayev:*

### "İnsanlarda sabaha inam yoxdur"

yazısı səh.15-də



## Prezident Gömrük Məcəlləsinə dəyişikliklərlə bağlı fərman imzaladı

**Prezident İlham Əliyev "Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2016-cı il 28 oktyabr tarixli qanunun tətbiqi barədə fərman imzalayıb. APA-nın məlumatına görə, qanuna aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilib:**

"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün buraxılış sistemlərinin tətbiqi

13-1.1. Gömrük sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi məqsədi ilə qısa idxal bəyannaməsi əsasında malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılmasının yaşıl, mavi, sarı və qırmızı dəhliz buraxılış sistemləri tətbiq olunur.

13-1.2. Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir".

Qanuna həmçinin 93.4-cü maddə - "Gömrük sərhəd buraxılış məntəqələrində "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin tətbiqi ilə əlaqədar müvafiq infrastruktur yaradılır və xüsusi ayrılmış hərəkət zolaqları müəyyən edilir" və 101.5-ci maddə əlavə edilib: "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə olunmaqla malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün xarici ticarət iştirakçılarının risk qruplarının müəyyənləşdirilməsi meyarları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir".

42.1-ci maddədə isə "mübadiləsi" sözündən sonra "o cümlədən risk qiymətləndirilməsinin və idxalatçıların risk qrupları üzrə bölgüsünün aparılması" sözləri əlavə edilib.

## Qohumunu həbs etdirən məmurun oğlunu Bakıda saxlayıb... azad etdilər

**Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyevin oğlu Nəriman Baxşıyev xaricdən Azərbaycana gəlib və az müddət sonra həbs edilib. Bu haqda redaksiyamıza daxil olan xəbərdə deyilir ki, Ç.Baxşıyevin oğlu, 1984-cü il təvəllüdlü Nəriman Baxşıyev illərdir ki, xaricdə yaşayır. Atası şəxsi əlaqələrindən istifadə edərək diplomatik pasport alıb. N.Baxşıyev həmin pasportla uzun illərdir ki, ölkədən kənardan dolanır.**

Azərbaycana isə gəlməkdən yayınır. Onun kef-damağa, içki məclislərinə meylli olmasından yerli hüquq-mühafizə orqanları da xəbərdardır. Odur ki, Nəriman Baxşıyev üstündəki diplomatik pasportla Bakı hava limanında VİP sərnişinlər üçün nəzərdə tutulan zala qədər gəlir. Zalda yaxınları ilə görüşür və geri dönür. İllərlə belə olub. Bu yaxınlarda isə Nəriman Baxşıyev uzun illərdən formalaşan bu ənənəni pozub. Qaynağımız deyib ki, bu səbəbsiz deyil. Acı xatirələr müşavir oğlunu Bakıya həsrət qoyub. Narkotik aludəçisi olan dostlarının əhatəsinə düşməmək üçün N.Baxşıyev ölkəyə gəlmirmiş. Ona görə də oğul Baxşıyevin Bakı səfəri hava limanının VİP zalına qədər məhdudlaşıb. Deyilənə görə, Nəriman hava limanında yaxınları ilə görüşür, ona içi pulla dolu çanta ötürülür və geri dönürmüş. Sonuncu gəlişi isə belə olmayıb. N.Baxşıyev hava limanından birbaşa Bakıdakı mənzillərindən birinə gedib. Çox keçməyib ki, onun Bakıda olmasından hüquq-mühafizə orqanları xəbər tutublar. N.Baxşıyev saxlanılıb. Məsələyə atası Ç.Baxşıyev qarışandan sonra N.Baxşıyevə ittiham elan edilməyib. Onu azad edəndən sonra atası ölkə ərazisindən çıxarıb. Azərbaycana təyyarə ilə gələn N.Baxşıyev avtomobil yolu ilə ölkədən çıxarılıb. Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin sabiq nəzarətçisi Rövşən Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. R.Əhmədov Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyevin şikayəti əsasında həbs olunub. Şikayətçi iddia edib ki, yaxın qohumu olan R.Əhmədov onun 50 kiloqram qızılını ələ keçirib. Rövşən Əhmədov isə ittihamı qəbul etmir.

❑ E.HÜSEYNOV

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Zakir Həsənov MDB Müdafiə Nazirləri Şurasının iclasında iştirak etdi

**Moskvada Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının növbəti - 71-ci iclası keçirilib.**




Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov görüşdə iştirak edib.

İclasda müdafiə nazirliklərinin qarşılıqlı fəaliyyətinin müxtəlif istiqamətlərinə dair 20 məsələyə baxılıb.

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, toplantıda 2016-cı ilə yekun vurulub və növbəti il üçün birgə fəaliyyət planına nəzər salınıb.

İclasın yekununda birləşmiş hava hücumundan müdafiə sisteminin inkişafı məsələsi, humanitar sahədə qarşılıqlı fəaliyyət, hərbi kadrların təhsili və MDB formatında hərbi-idman və təhsil tədbirlərinin keçirilməsi ilə bağlı qərar qəbul olunub.

İclas iştirakçılarına Rusiya Silahlı Qüvvələrinin mühəndis qoşunlarının Suriyada tarixi-memarlıq abidələrinin minalardan təmizlənməsi tapşırığının yerinə yetirilməsi ilə bağlı məruzə təqdim olunub.

İclas bitəndən sonra nazirlər Rusiya Müdafiə Nazirliyinin qarşısındakı "Onlar Vətən uğrunda vuruşublar" adlı filmin motivləri əsasında hazırlanmış abidənin açılışında iştirak ediblər.



## Akif Çovdarovun işi üzrə zərərçəkən iş adamına 15 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən "Real MTK"nın təsisçisi və rəhbəri İlham Qasımovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın xəbərinə görə, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda hökm oxunub.

Hökmə əsasən, İ. Qasımov 15 il müddətinə azadlıqdan məhrum edilib.

Prokuror ona 13 il həbs cəzası istəmişdi.

Qeyd edək ki, İ. Qasımov bu ilin iyun ayında saxlanılıb. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinir. İ. Qasımov ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun işində zərərçəkmiş kimi tanınır.


Pərviz Həşimli

## Keçmiş MTN maskalılarının xəsarət yetirdiyi jurnalist əməliyyat olunub

**Gununsesi.info saytının rəhbəri, keçmiş siyasi məhbus Pərviz Həşimli noyabrın 29-da cərrahi əməliyyat keçirib. Beş saatlıq cərrahi əməliyyat "LOR Hospital Baku"da həyata keçirilib.**

Pərviz Həşimlinin "Yeni Müsavat"a verdiyi xəbərə görə, burnundakı ciddi zədənin təsirindən nəfəs almasında problemlər var imiş. Əməliyyat bununla bağlı olub: "2013-cü ildə həbs ediləndə o zamankı MTN-in, daha doğrusu, Eldar Mahmudovun maskalıları mənə hücum eləmişdilər və yerə yıxmışdılar. Bu zaman burnum ciddi zədə almışdı. O zamandan səhhətimdə, nəfəs almamda problem vardı. Boğazımı və burnumu əməliyyat etdirmək məcburiyyətində qaldım. Əməliyyatı edən peşəkar cərrah Pərviz Aslanova təşəkkür edirəm".

Pərviz Həşimlini əməliyyat edən "LOR Hospital Baku"nun baş həkimi Pərviz Aslanov isə özünün facebook səhifəsində jurnalistlə əməliyyatdan sonra çəkdirdiyi fotonu paylaşıb. Pərviz Aslanov qeyd edib ki, səhhətində ciddi problemlər yaranmış tanınmış jurnalist, gununsesi.info saytının rəhbəri Pərviz Həşimlinin 5 saatlıq əməliyyatı çox uğurlu keçib: "Çox şükür, səhhəti yaxşıdır və artıq onu evə yola saldıq".

Qeyd edək ki, Pərviz Həşimli 2013-cü ilin sentyabrında o zamankı Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həbs edilmişdi. Bir neçə ay MTN-in təcridxanasında saxlandıqdan sonra barəsində 7 il azadlıqdan məhrum etmə hökmü çıxarılmışdı. 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən jurnalist 2016-cı il martın 18-də prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə azadlığa buraxılıb.

❑ E.SEYİDAĞA

## ABŞ-ın yeni prezidenti biznesdən gedir

**ABŞ-ın yeni seçilən prezidenti Donald Tramp biznesdən gedəcək. "Report" xəbər verir ki, o bu barədə özünün twitter səhifəsində məlumat verib.**

D.Tramp dekabrın 15-də Nyu-Yorkda mətbuat konfransı keçirəcəyini yazıb. Həmin tədbirdə onun biznesdən gedəcəyi müzakirə olunacaq.



## QAT Qarabağ döyüşçüsü ilə bağlı Səlim Müslümova müraciət etdi

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı ayaqlarını itirmiş Qarabağ döyüşçüsü ilə bağlı rəsmi qurumlara müraciət edib. Bu barədə musavat.com-a QAT-dan məlumat verilib. Məlumata görə, Qarabağ qazisi ilə bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümova və Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimova müraciət edilib. Müraciətdə qaziyə köməklik göstərilməsi xahiş edilib.**

Müraciətdə göstərilir ki, Ağdaş rayonu, Qaraoğlan kənd sakini, I qrup Qarabağ müharibəsi əlili Həbibov Təhməz Bayram oğlunun maddi durumu ağırdır: "Təhməz Həbibov Qarabağ müharibəsində qəhrəmanlıqla vuruşub, dəfələrlə yaralanıb, ayağının hər ikisini müharibədə itirib. İndi heç bir əmək fəaliyyəti ilə məşğul ola bilmir. İki oğlu var, əmək qabiliyyətlidirlər, amma iş tapa bilmirlər. Təhməz Həbibovun kənddə yaşadığı ev qəza vəziyyətindədir, yağış, qar, nə yağırsa, başlarına düşür, ev hər an uça bilər. Vaxtilə ona Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maşın verilib, bu gün o maşın da yararsız vəziyyətdədir. Vətən yolunda sağlamlığını, ayaqlarını itirən bir şəxsin bu cür ağır, dəhşətli vəziyyəti Allaha da, bəndəyə də xoş getməz. Ona köməklik göstərmək ən böyük savab iş olar, köməklik etsəniz, çox böyük savab qazanarsınız. Xahiş edirik ki, Təhməz Həbibova əlinizdən gələn köməkliyi göstərəsiniz. Xahiş edirik ki, Qarabağ əlilinə ev verilməsi, yeni ev verilənədək evinin təmir olunması, övladlarının işlə təmin olunması üçün təşəbbüs edəsiniz".

❑ RÖYA

# "Rabitə çete"sinin məhkəməsində ilginc korrupsiya açıqlamaları

## BTRİB-in rəisi Beytulla Hüseynov talançılığı rəhbərliyin göstərişi ilə etdiyini bildirdi; baş mühasib isə dövlətin pullarını necə mənimsədiklərinin xəritəsini göstərdi

**Noyabrın 30-da Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, noyabrın 30-da baş tutan məhkəmə prosesində təqsirləndirilən şəxslərdən "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi olmuş Anar Mustafayev və digərləri ifadə verib.**

A.Mustafayev digərlərindən fərqli olaraq etirafedici ifadələr verib.

"Gördüyümüz iş monopoliya idi, amma biz məcburiyyət qarşısında qalıb etmişik" - deyə, o bildirib.

**Anar Mustafayev** istintaqın qərəzli aparılmasından, ona qarşı irəli sürülən mənimsənilmiş olaraq qeyd edilən rəqəmlərin şişirdilməsindən, istintaqın sonunda cinayət işinin materialları ilə tanış olmasına şərait yaradılmamasından narazı olduğunu bildirib.

**O, təşkilatçı kimi qələmə verilməsindən də gileylənib:** "Guya planı mən hazırlamışam. Əgər planı mən yazmışdımsa, belə ağlım, bacarığım vardısa, niyə istintaqın qənaətinə görə, Beytulla Hüseynov və Vidadi Zeynalovun hər birinə 10 milyon vermişəm, özümə isə 567 min manat götürürdüm? Mən bununla günahsız olduğumu demək istəmirəm. Günahımı ilk gündən etiraf etmişəm. Ancaq burada doğru olmayan ittihamlar var".

Keçmiş baş mühasib əlavə edib ki, xərclərin şişirdilməsi nəticəsində əldə olunan vəsaitdən hər ay 7 min manat "paket" olaraq əmək haqqı alması barədə iş materiallarında yazılanlar həqiqətə uyğun deyil.

**Onun sözlərinə görə, ayda rəsmi maaşdan əlavə 2 min manat pul alıb:** "Əməliyyat olunan zaman Beytulla müəllim mənə 8 min, 5 min və 4 min manat pul verib. Ayda 7 min alırdımsa, Beytulla müəllimdən niyə pul alırdım? Düzdür, ayda mənə 7 min verilib, amma cəmi 2 mini mənə çatıb, qalanı müxtəlif məsələlərə, o cümlədən işçilərin xəstəliklərinin müalicəsindən tutmuş, onların övladlarının təhsilinə, bayram tədbirlərinə qədər müxtəlif işlərə xərclənib".

### "Bilirdik ki, bir gün qapı döyüləcək, amma edirdik"

**Təqsirləndirilən şəxs deyib ki, baş mühasibi olduğu quruma daxil olan bütün vəsaitlər təyinatı üzrə tam xərclənib:** "Ya vəsaiti biz oğurladıq, ya da oğurlanmasına şərait yaratdıq - eyni şeydir. Hərçənd bilirdik ki, bir gün qapı döyüləcək, amma eləyirdik. Layihələr hazırlanırdı, onların icrasını inandığımız adamlara həvalə edirdik. Amma onlara əvvəlcədən deyirdik ki, siz qazanc götürməyəcəksiz. O adamlara şişirtmə nəticəsində qalan vəsaitdən "paket" əmək haqqı verilirdi. Bu baxımdan, biz dövlət əmlakını mənimsəməmişik, Bayram müəllimin, Emin müəllimin, Namazalı müəllimin qazancına girmişik. Dəfələrlə Maliyyə Nazirliyi, Vergilər Nazirliyi yoxlamalar


Vidadi Zeynalov


Beytulla Hüseynov

aparıb, heç bir kənarlaşma aşkarlanmayıb. Həqiqətən də ədalətli araşdırılsa, görünər ki, zərrə qədər yayınma yoxdur. Başqa şirkətlərlə işləsəydik, daha baha başa gələcəkdi".

### "5 min işçilərin müalicəsinə, toylara, yaslara gedirdi"

Anar Mustafayev prokuror Fərid Nağıyevin suallarını cavablandırarkən nazirliyə bağlamalarda pul apardığını da etiraf edib. Amma məbləğ barədə məlumatının olmadığını söyləyib.

**Anar Mustafayev suallara da cavab verib. O deyib ki, B.Hüseynovdan ümumi olaraq maaşdan əlavə təxminən 100 min manat alıb:** "Aylıq aldığım 7 min manatdan 5 mini işçilərin müalicəsinə, toylara, yaslara gedirdi".

Digər təqsirləndirilən şəxs **Bayram Vəliyev** istintaqa verdiyi ifadəsini təsdiq etdiyini deyib. Məhkəmədə onun istintaqa ifadəsi elan olunub.

### "1000 manat maaş, 1500 manat isə paket alırdım"

**O deyib ki, şirkətləri təsis edərək Beytulla Hüseynova işləmək istədiyini deyib:** "Gömrükdə işdən təzə çıxmışdım, işsiz idim. Bundan sonra mən rəsmi olaraq rəhbər qalsam da, faktiki olaraq Beytulla Hüseynov rəhbərlik edirdi. O, tenderlərdə həmin şirkətlərin qalib olmasını təmin edirdi. Mən Beytulla Hüseynovun əmrlərini yerinə yetirmişəm, 1000 manat maaş, 1500 manat isə paket alırdım. Tender və kodirovka sənədləri ilə məşğul olmurdum, özləri həll edirdi, sadəcə, qol çəkirdim".

Vidadi Zeynalov isə ittiham aktını almadığını deyib. Hakim aktın ona veriləcəyini bildirib.

Ötən prosesdə ifadə verən "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş direktoru olmuş Beytulla Hüseynov budəfəki prosesdə sualları cavablandırıb.

O, Vidadi Zeynalovun vəkillərinin suallarına cavabında istintaqa verdiyi ifadəsini təsdiqlədiyini, əlavə suallara cavab vermək istəmədiyini deyib.

B.Hüseynov bütün işləri rəhbərliyin göstərişi ilə yerinə yetirdiyini desə də, vəkillərin israrına baxmayaraq ad çəkmək istəmədiyini bildirib.

Bu səbəbdən də məhkəmədə onun istintaqa ifadəsi elan olunub. Beytulla Hüseynov bir daha onu təsdiqləyib.

**Məhkəmə prosesi dekabrın 2-də davam etdiriləcək.**

❑ İlkin MURADOV

# "Oğlumu oğurlayıb 50 min istədilər"

## Akif Çovdarovun məhkəməsində şahidlər danışır...

**Ləğv edilmiş MTN-in idarə rəisi olmuş general Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi noyabrın 30-da davam etdirilib. Musavat.com xəbər verir ki, Sabunçu Rayon Məhkəməsində davam edən proses yenə də jurnalistlərin iştirakı olmadan keçirilib.**

Məhkəmə prosesinə hakim Həbib Həsənov sədrlik edib. Saat 11:00-a təyin edilimiş iclasda təqsirləndirilən 4 nəfərin vəkillərindən yalnız biri prosesdə iştirak edib. Hakim H.Həsənov prosesə vaxtında qatılmayan vəkillər barədə Vəkillər Kollegiyasına məktub göndəriləcəyini qeyd edib.

Oktyabrın 25-dən aclıq aksiyası keçirdiyini iddia edən Çovdarov məhkəməyə 3 həkimin nəzarətində gətirilib. Ötən proseslərdə olduğu kimi, Çovdarov bu dəfə də oksigen balonu ilə məhkəmə zalında oturub.

Prosesdə zərərçəkmiş qismində tanınmış "Met-ak" şirkətinin maliyyə işləri üzrə direktoru Zülfüqarov Fuad Zülfüqar oğlu iştirak edib. O, istintaqa verdiyi ifadəsini təsdiqlədiyini, baş verənləri tam olaraq xatırlamadığını deyib. Zərərçəkmiş vəkillərin suallarını da cavablandırmayıb. Onun istintaqa ifadəsi elan olunub.

Zülfüqarov istintaqa ifadəsində deyir ki, şirkəti onun dayısı Alik Kərimov 1997-ci ildə təsis edib. 2012-ci ildən isə şirkətin icraçı direktoru dayısı oğlu Aydın Kərimovdur. O da şirkət açılandan dayısının yanında işləyib, sonradan maliyyə işləri üzrə direktor olub.

Zərərçəkən deyir ki, MTN-dən Çovdarovun idarəsinin işçisi (MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsi) polkovnik-leytenant Akif Əliyev ona mütəmadi olaraq zəng vurub nazirliyə çağırmağa başlayıb. Səbəb olaraq isə bəzi maliyyə məsələlərini aydınlaşdırmaq lazım olduğunu deyib.

Onun sözlərinə görə, Akif Əliyev ona deyib ki, "uzun illərdir işləyirsiz, pul qazanırsınız, ancaq nazirimizi indiyə qədər saymamısız. Bir dəfə də olsun əldə etdiyiniz gəlirdən Eldar Mahmudova pay ayırmamısız". Zərərçəkmiş ondan 50 min manat tələb edildiyini söyləyir.

Zülfüqarov isə bu pulu ancaq dayısının verə biləcəyini bildirib. Dayısı qərara gəlib ki, 10 min verilsin. Akif Əliyevlə növbəti görüşdə bu məbləğ ona çatdırılıb.

Məhkəmədə "Met-ak" şirkətinin rəhbəri Alik Kərimov da ifadə verib.

**Alik Kərimov Akif Çovdarovdan şikayətçi və ondan heç bir tələbinin olmadığını söyləyib. A.Kərimov deyib ki, o zaman MTN-də işləyən Natiq Alıyev onun oğlunu oğurlatdırıb:** "Oğlumu oğurladılar. Məndən 50 min tələb etdilər. Mən Akif Çovdarovdan bu işə görə kömək istədim. Mənim şikayətim Natiqdən idi. Ancaq istintaqda necə oldusa, belə göstərilib".


Akif Çovdarov

Prosesdə qızıl-brilyant satışı ilə məşğul olan Şahmar Qurbanovun epizodu üzrə şahid İlahə Vəliyeva ifadə verib. O, Akif Çovdarovun 500 min dollar, 380 min dollarlıq brilyant aldığı iddia edilən Şahmar Qurbanova borc olaraq 75 min manat verdiyini deyib. Şahid Şahmar Qurbanovun ondan pulu MTN-ə vermək üçün aldığını söyləyib.

Digər şahid Xədicə Hüseynova da Akif Çovdarovun əməllərinin qurbanı olduğunu deyən brilyant alverçisi Şahmar Qurbanovun epizodu üzrə dindirilib. Sonuncu prosesdə Xədicə Hüseynovanın həyat yoldaşı İsgəndər Hüseynov eyni epizod üzrə ifadə vermişdi. İsgəndər Hüseynov Akif Çovdarovun yaxın qohumu olmaqla yanaşı, ləğv edilmiş MTN-in sabiq əməkdaşıdır.

**Xədicə Hüseynova ifadəsi zamanı bildirib ki, həyat yoldaşının brilyant alverçisi, zərərçəkmiş Şahmar Qurbanovdan ev almasından xəbərsizdir:** "İsgəndər məndən şəxsiyyət vəsiqəmi aldı, sonra evi adımı keçirdi. Mən Şahmar Qurbanova vəsiqəmi verməmişəm. Olanlardan da xəbərsizəm".

Qeyd edək ki, İsgəndər Hüseynov brilyant alverçisinin əmlakını A.Çovdarovun göstərişi ilə ələ keçirməkdə ittiham olunur. Şahmar Qurbanov deyib ki, İ.Hüseynov ona məxsus evi zorla arvadının adına keçirib. O iddia edib ki, 380 minlik brilyantı və 500 min dolları da İsgəndər Hüseynovun vasitəsilə A.Çovdarova verib. İsgəndər Hüseynov isə ittihamlarla razılaşmır.

**Məhkəmədən sonra vəkil Kamandar Nəsibov musavat.com-a deyib ki, fasilə zamanı A.Çovdarovun səhhəti ağırlaşıb, şəkəri qalxıb:** "Akif Çovdarovun şəkəri qalxıb. Artıq A.Çovdarov komaya düşür. Bizim tələbimizlə həkimlər də bunu gördü. Hakim də həkimə deyir ki, şərbət verin, içsin. Bizim etirazlarımıza baxmayaraq, A.Çovdarovu bu vəziyyətdə məhkəməyə gətiriblər".

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

Çovdarov və digər 3 nəfərin cinayət işinə Sabunçu Rayon Məhkəməsinin inzibati binasında Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi, hakimlər Elbəy Allahverdiyev və Müslüm Əliyevin iştirakı ilə baxılır.

❑ İlkin MURADOV

# Eldar Mahmudovun "sağ əli"nin cinayət işinin istintaqı dayandırıldı

## "Akula Akif"i tutsalar, icraat təzələnəcək və iş yenidən davam etdiriləcək

**"MTN işi" üzrə axtarışa verilən Akif Mustafayevin barəsində olan cinayət işi üzrə icraat dayandırılıb. Azərbaycanda "Akula Akif" kimi tanınan A.Mustafayev haqda axtarış elan edildiyi üçün onun barəsindəki cinayət işi üzrə icraatın dayandırılmasına qərar verilib. APA-nın xəbərinə görə, A.Mustafayev tutulub istintaqa təhvil verildikdən sonra barəsində istintaq davam etdiriləcək. Akif Mustafayev keçmiş təhlükəsizlik naziri Eldar Mahmudovun "sağ əli" kimi tanınır. Qeyd edək ki, bir müddət əvvəl "Akula Akif" ləqəbi ilə tanınan A. Mustafayevin İspaniyanın Loret-de-Mar şəhərində saxlanılması haqqında xəbər yayılıb. Onun vəkili Abbas Atakişiyev A. Mustafayevin saxlanıldığını təsdiqləsə də, sonradan buraxıldığını deyib.**


Akif Mustafayev

Mustafayev Akif İsmayıl oğlu özünü iş adamı kimi tanıtsa da əslində onun əsas vəzifəsi imkanlı iş adamları haqda MTN-dəki mütəşəkkil qruplaşmaya dosye toplayıb çatdırmaqdan ibarət olub.

"Akula Akif" MTN-in, daha doğrusu, Eldar Mahmudovun "işvərəni", badə yoldaşı kimi tanınır. O, MTN-dəki məlum həbslərə qədər iş adamları barədə dosyeləri aldıqdan sonra onları izləyib və həbs olunmasına şərait yaradıb. Bu zaman "Akula Akif" MTN-dəki mütəşəkkil qruplaşmanın qarmağına düşmüş iş adamına öz xidmətlərini təklif edib və onlardan iri məbləğlərdə pulun alınıb Eldar Mahmudova çatdırılmasını, beləliklə, girovun "xilas edilməsini" həyata keçirib. Lakin proses bununla da yekunlaşmırdı. "Akula Akif" MTN-dən "xilas etdiyi" iş adamlarının biznesinə gələcəkdə bu kimi problemlərdən sığortalanmaq üçün "krışalıq" edirdi və onların biznesinə 25-30 faiz payla şərik olurdu.

E.Mahmudovun işdən çıxarılması barədə ötən il oktyabrın 17-də, şənbə günü elan edilən fərmandan və həmin gün MTN-in binasında Baş Xüsusi Dövlət Mühafizə İdarəsinin keçirdiyi əməliyyatdan xəbər tutan kimi "Akula Akif" ölkədən qaçıb.

İnterpolun rəsmi saytında göstərilir ki, 1955-ci ildə andan olmuş Akif Mustafayev Azərbaycanın prokurorluq orqanları tərəfindən axtarışa verilib, ona qarşı "rüşvət" ittihamı var. "Akula Akif"in bank hesablarına və əmlakına həbs qoyulub.

❑ E.HÜSEYNOV



## Dövlət (xalq) dolandırmaq yolunda qapalı dairə

Xalid KAZIMLI

**Hər dəfə kəskin, ciddi və ya üzən devalvasiya olanda, enerjidaşıyıcıların, kommunal xidmətlərin qiyməti artırılanda milyonlarla insanı gələcəyə dair əndişə çulğayır.**

Mövcud güzərandan narazılıq bir tərəfə olur, sabahkı günə görə narahatlıq daha çox böyüyür.

Bu, təsadüfi deyil, yetkin, orta yaşlı və ahıl insanlar təcrübəlidir, uzun və qısamüddətli sabitlikdən sonra düzənin pozulmasının nəyə gətirib çıxardığını görüblər, bilirlər.

Bu durumu obrazlı ifadə etsək, göz önündə dağdan qopmuş qaya parçasını tutmalıyıq. Qaya dağdan qopursa, ta sona qədər dığırlanır  və tərpənməz qala bildiyi yerdə durur.

İki il öncə milli valyutamız manat ilk dəfə dəyər itirəndən sonra aydın oldu ki, təxminən 7-8 illik iqtisadi sabitlik arxada qaldı, daha "dünyanın ən bahalı valyutalarından biri"nə sahib olduğumuzla fəxr edə bilməyəcəyik.

İkinci devalvasiya və manatın "üzən məzənnə"yə keçirilməsi bu tənəzzülü daha da böyütdü. Artıq əski qiymətləri bazar rıçaqları ilə nəzarətdə saxlamaq mümkün olmurdu, ona görə də ajiotajı səngitmək üçün inzibati resurslardan istifadə edildi.

İndi işıq və qazın satış qiymətinin deffensiyasiyası da iqtisadiyyatda, bazarlarda ajiotaja səbəb ola bilər, ancaq yəqin ki, inzibati resurslar yenə kara gələcək.

Bu yolla, əlbəttə, möhtəkirliyin, qiymətlərin süni şəkildə şişirdilməsinin qarşısını müəyyən qədər almaq olar, amma bu, iqtisadi təşəbbüskarlığa, bazar münasibətlərinə də ziddir.

Bir daha sübut olunur ki, müasir dünyada müstəqil dövləti idarə etmək, xalqın firavanlığına, yüksək rifahına nail olmaq, permanent tərəqqidə olan iqtisadiyyat qurmaq çox çətindir.

Bu, elə asan bir iş olsaydı, dünyanın 200-dən artıq ölkəsinin üçdə ikisi qara gündə olmaz, inkişafdan qalmazdı.

Təbii ki, iqtisadiyyatı zəif, əhalisi yoxsul ölkələrin bu durumda olmasını şərtləndirən obyektiv və subyektiv səbəblər var və burada tərəzinin ağır gələn gözü məhz birinci növdən olan səbəblərdir.

Zəngin karbohidrogen ehtiyatları, faydalı qazıntıları, güclü elmi mərkəzləri, müasir texnologiyaları, qanunla idarə olunan dövlət sistemi olmayan ölkələrin güclü iqtisadiyyata malik varlı ölkə olmaları mümkün deyil.

Ancaq təcrübə göstərir ki, heç zəngin karbohidrogen ehtiyatlara malik olmaq da hələ dövlətin qüdrətlənməsinə, xalqın varlanmasına səbəb olmaya bilər. Ortada neft ölkəsi olan Nigeriyanın səfalət içində olması kimi nümunələr var.

Eyni zamanda heç bir zəngin təbii resursu olmayan ölkələrin güclü iqtisadiyyata malik olaraq dünyanın ən güclü 20 ölkəsindən birinə çevrilməsi faktı var (Məsələn, Yaponiya, Cənubi Koreya).

Əsas məsələ inkişafa, rifaha, qüdrətə aparacaq komponentlərin məcmusunu düzgün və tam şəkildə tətbiq etməkdir.

Zəngin təbii resursları olan ölkə öz iqtisadi siyasətini elmi əsaslarla, ölçülüb-biçilmiş iqtisadi proqramlara əsasən yeridə bilməyəcəksə, hansısa xammalının bahalı bazar  tapmasına görə nail olduğu iqtisadi inkişaf tempi müvəqqəti və süni xarakter daşıyacaq.

Ən pisi karbohidrogen resursları hesabına böyük pullar əldə etmiş ölkədə korrupsiyanın da böyüməsidir. Tüğyan edən korrupsiya olan yerdə nə qədər zəngin sərvətlər olur-olsun, xeyri yoxdur, misli görünməmiş talançılıq, dartıb-dağıtma ehtirası iqtisadi inkişafa imkan verməyəcək.

Bu kimi durumlar isə dövlətin qanunlarla, qanunun aliliyi ilə idarə olunmaması halında yaranır.

Beləliklə, qapalı dairə yaranır: qanunların işləmədiyi ölkələrdə korrupsiya tüğyan edir, korrupsiyanın tüğyan etdiyi ölkədə milli sərvətlər amansızcasına talan edilir, sərvətlərin talan edildiyi ölkədə iqtisadiyyat inkişaf etmir, iqtisadiyyatı zəif olan ölkədə işsizlik artır, işsizlik olan yerdə isə aclıq, səfalət hökm sürür.

İndi bir çoxları oturub düşünür ki, dünya bazarlarında neftin bir barelinin qiyməti yenidən 100 dolları keçsə, xalqın güzəranı xeyli yaxşılaşar, tikinti-quruculuq sferası yenidən canlanar,  yeni iş yerləri açılar.

Ancaq bu da müvəqqəti xarakter daşıyacaq və neftin qiymətinin yenidən azalmasıyla tənəzzül başlayacaq.

Uzun sözün kəsəsi, bu xroniki böhran durumundan yalnız iqtisadçı alimlərin proqramları, təşəbbüsləri, təklifləri ilə çıxmaq olar. Əks təqdirdə, vəziyyət ildən-ilə pisləşə-pisləşə gedəcək.



## Kredit borcları əhalini psixoz vəziyyətinə salıb

### Dollarla verilən, ikiqat zərbə olan kreditlərlə bağlı amnistiya verilməsi zərurətə çevrilib; vaxt uzandıqca, problem daha da dərinləşəcək

**Ölkədə problemli kreditlərlə bağlı məsələ iki ilə yaxındır ki, həllini tapmayıb. Ekspertlər bildirirlər ki, problemin həlli gecikir, vaxt keçdikcə, vəziyyət daha da ciddiləşir. Həmçinin son 3 ildə kreditlər dollarla ayrıldığından və dalbadal iki dəfə devalvasiya baş verdiyindən borcu onun günahı və məsuliyyəti olmadan ikiqat artan, bu gün isə həmin borcları ödəyə bilməyən vətəndaşlar psixoz duruma düşüblər.**

Hökumətin problemin həllində maraqlı olmaması isə vətəndaşın durumunu diqqətə almamaq kimi qiymətləndirilir. Nəticədə problemli kreditlər və banklara borclu vətəndaşların sayı sürətlə artmaqdadır. Dəfələrlə ekspertlər, deputatlar məsələ ətrafında fikir və təkliflər səsləndirsələr də, problem hələ də açıq qalır.

**Son olaraq deputat Ziyad Səmədzadə** bildirib ki, ölkədə bəzi bank müştəriləri üçün kredit amnistiyası tətbiq olunmalı və banklar həmin müştərilərə güzəştə getməlidirlər. Çıxışında borcların amnistiyası məsələsinə toxunan Z.Səmədzadə bildirib ki, hazırda Milli Məclisə bank müştərilərindən minlərlə məktub gəlir: "Banklara borcu olanlar kreditlərini ödəyə bilmirlər". **Komitə sədri bildirib ki, o, bu məsələni Mərkəzi Bankın və digər əlaqədar qurumların rəhbərliyi ilə müzakirə edib:** "Biz bankların gəlirliyini araşdırmışıq və hesab edirik ki, onlar kifayət qədər gəlirlə işləyirlər. Ona görə də borcların amnistiya məsələsinə getmək olar". Deputat bildirib ki, bu amnistiyanın hansı hallara, kimlərə şamil olunacağı araşdırılmalı və dəqiqləşməlidir. Komitə sədri bankları xüsusilə sərhəd bölgəsində yaşayan müştərilərə güzəştə getməyə çağırıb: "Əgər kredit götürən şəxs sərhəd bölgəsində yaşayırsa və onu qaytarmaqla bağlı problemi varsa, xahiş edirəm, banklar belə məsələlərə həssas yanaşsınlar. Həmin vətəndaşlara güzəştə gedə bilərlərsə onları tətbiq etsinlər".

**Ekspertlər isə bildirirlər ki, problemin tamamilə bankların üzərinə atılması vəziyyətdən çıxış yolu deyil. Dövlət də burada məsuliyyət daşımalı və azından, problemi çözməyə cəhd etməlidir. Ekspert Rəşad Həsənov məsələ ilə bağlı musavat.com-a bildirib ki, 2015-ci ilin əvvəlində, birinci devalvasiyadan yaranan problem həll edilmədən qalıb:** "Problem iki ilə yaxındır davam edir. Dəfələrlə müxtəlif təkliflər olsa da, bu istiqamətdə hər hansı rəsmi qərar qəbul olunmayıb. Müxtəlif dövrlərdə müxtəlif ekspertlər, qurumlar tərəfindən problemin həlli istiqamətində fikirlər səsləndirilib. Təbii ki, problemin həllinin yolunu güzəştlərin tətbiq edilməsində görürlər. Bu fikir də məhz parlament nümayəndələrinin bu istiqamətdə mövqeyini əks etdirən fikirdir. Əsas fikir odur ki, banklar güzəşt etsinlər. Düşünürəm ki, doğru yanaşma deyil. Bütün tərəflərin burada iştirakı vacibdir. Xarici valyutada olan borclara üstünlük verilməlidir. Ümumiyyətlə, qaytarılmayan borclar qruplaşdırılmalıdır. Xarici valyuta ilə verilən kreditlərin həcmi kəskin artıb. Rəqəmlər kifayət qədər yüksəkdir. Çox halda banklar kreditlərin vaxtını uzadaraq problemi zamana yayırlar. Ancaq bu, çıxış yolu deyil, imitasiya xarakterlidir. Problemi həll etmək vacibdir, əks halda, vəziyyət daha kəskin bir nöqtəyə gələcək".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a deyib ki, kredit probleminin bankların üzərinə atılması çıxış yolu deyil:** "Onsuz da əhali, vətəndaş borcunu qaytara bilmir, çətinliyi var. Vətəndaşların əksəriyyəti krediti obyektiv səbəblərdən qaytara bilmirlər. Çünki iki dəfə kəskin devalvasiya olub, iş yerləri bağlanıb, ərzaq və qeyri-ərzaq malları iki dəfəyədək bahalaşıb, faizlər də kifayət qədər yüksək səviyyədədir. Problem onsuz da bankların üzərindədir. Amma bunu bankların üzərinə atsaq da, vəziyyət düzəlməyəcək. Onsuz da yük bankların üzərində qalıb. Problemli kreditlərin həcmi artıb. Sadəcə, banklarla bağlı bu cür təkliflər rəsmiləşsə, bankların tamamilə çökməsi gündəmə gələcək. Bank sektorunun çöküşü ümumiyyətlə iqtisadiyyatla bağlı fəlakətli nəticələrə gətirib çıxara bilər. Həll məsuliyyətin üç hissəyə bölünməsindən keçir. Vətəndaş, bank və dövlətin iştirakı ilə bir formul tapılmalıdır. Olmasa, insanlar, əhali getdikcə daha az kredit qaytaracaq, çətinlikləri artacaq. Krediti qaytarmayanların sayı on minlərlədir. Bunun hüquqi yolla tənzimlənməsi də mümkün deyil. O sayda insanı hüquqi məsuliyyətə cəlb etmək də mümkünsüzdür. Sanksiyalar tətbiq etmək də mümkün deyil. Dövlət bu problemin həllini nə qədər çox gecikdirsə, bir o qədər böyük məbləğdə ziyana düşmüş olacaq. Yəni daha az ziyanla bu problemdən çıxmaq mümkün idi. Bankların özlərinin vəziyyəti çox ağırdır. Dörd milyarda yaxın xarici borcları var. Bu, hissə-hissə qaytarılmalıdır. Bankların gəlirləri azaldıqca, verdikləri kreditlərin geri dönüşü azaldıqca, banklarda da vəziyyət çox kritik həddə çatır".

❑ RÖYA

## Tarif Şurasının qərarı hansı təbəqəyə zərbə vuracaq?

### Ekspertlər deyir ki, varlılar daha çox xərcə düşəcək, amma qaz və işıqdan çox istifadə olunan aylarda bəlli limiti kasıblar da aşacaq

**Tarif Şurasının qaz və işığın qiymətini artırması günümüzün ən aktual məsələsidir. Bu qərarın daha çox varlılara zərbə olduğu deyilir. Səbəb kimi də onların mülkləri göstərilir. Belə ki, Tarif Şurasının qaz və işığa qoyduğu limitə kasıbların əməl edəcəyi, yəni bundan artıq istifadə hallarının bu təbəqə arasında az olacağı bildirilir.**



Amma villalara, dəbdəbəli mülklərə sahib olan varlı oliqarxların, biznesmenlərin limitdən daha çox istifadə edəcəkləri qeyd olunur. İqtisadçı ekspertlərin əksəriyyəti bu fikirdə olsa da, əks mövqe bildirənlər də az deyil. Əks mövqeyə sahib olanlar hesab edirlər ki, varlı təbəqə nə qədər limiti keçsələr də, onların həmin məbləği ödəmək imkanları kifayət qədər yüksəkdir. Əslində bu fikirlərdə müəyyən qədər həqiqət payı var. Çünki dəbdəbəli mülklərə sahib olanlar əksəriyyəti ya yüksək dövlət vəzifələrində çalışır, ya da varlı biznesmenlərdir. Belə şəxslər üçün də keçilən limiti ödəmək çətin deyil.

**Sabiq maliyyə naziri, iqtisadçı Fikrət Yusifov hesab edir ki, qiymət artımı əhalinin 70 faizinə təsir etməyəcək:** "Orta hesabla qaz və işığın qiymətindəki dəyişikliklər əhalinin təxminən 70 faizinə aid olmayacaq. Tariflərdə edilən dəyişikliklərdən sonra insanların qənaət rejiminə keçməsi nəticəsində bir il ərzində bu rəqəmin daha 10 faiz artaraq, 80 faizə çatacağı gözləniləndir. Əhalinin yerdə qalan 20 faiz imkanlı təbəqəsi tərəfindən  qaz və elektrik enerjisinin limitdən artıq sərfinə görə artan tariflərlə ödəniş etməsi isə tam normal bir haldır".

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, qoyulan limitlər kifayət qədər aşıla bilinəndir:** "Orta, aşağı gəliri olan insanların o limiti aşma ehtimalları da çox yüksəkdir. Bu limiti aşmaq hər bir ailəyə sözsüz ki, ciddi zərbə vuracaq. Yüksək limitlərin müəyyən olunması bu tezisi daha keçərli, daha məntiqli edərdi. Məsələn, işığa qoyulan limit 250-dən ən azı 300-ə, qaza isə qoyulan limit 1500-dən ən azı 2 minə qədər qaldırılsa, doğrudan bu tezislər daha keçərli olar. Amma limitin indiki səviyyədə nəzərdə tutulması aşağı təbəqənin da bu barajı keçmə ehtimallarını yüksəldir. Sözsüz ki, bu daha çox varlılara təsir edəcək. Çünki bu təbəqə işıq və qazdan daha çox istifadə edir. Amma az təminatı olan insanlar çalışacaqlar ki, bu limiti aşmasınlar. Lakin qaz və işıqdan daha çox istifadə olunan aylarda bu limiti aşmamaq mümkünsüz görünür. Bu baxımdan, qiymətlərin artmasının kasıb ailələrə mənfi təsir edəcəyi realdır".

❑ Cavanşir ABBASLI

**Noyabrın 30-da 2017-ci il üzrə dövlət büdcə zərfi Milli Məclisdə komitələrin birgə müzakirəsinə çıxarıldı. Müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq, Təbii ehtiyatlar, energetika və ekologiya, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Aqrar siyasət və İctimai birliklər və dini qurumlar komitələri, maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, iqtisadi inkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər iştirak edirdi.**

# Büdcə müzakirələri deputatlarla hökuməti üz-üzə qoydu

## Milli Bankın sədri: "Susmağımızın səbəbi budur..."









Maliyyə naziri Samir Şərifov çıxışında dedi ki, "2017-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində dövlət büdcəsinin gəlirləri 15 955 mln. manat məbləğində proqnozlaşdırılıb. Bu, 2015-ci ilin icra göstəricisi ilə müqayisədə 1 543 mln. manat və ya 8,8%, 2016-cı ilin proqnoz göstəricisi ilə müqayisədə isə 867 mln. manat və ya 5,2% azdır. 2017-ci ildə dövlət büdcəsi gəlirlərinin ÜDM-ə nisbətinin 26 % təşkil edəcəyi nəzərdə tutulub.

Onun sözlərinə görə, növbəti ildə dövlət büdcəsinin xərcləri 16 600 mln. manat məbləğində olmaqla, 2015-ci ilin icra göstəricisi ilə müqayisədə 1184,5 mln. manat və ya 6,7%, 2016-cı ilin proqnoz göstəricisi ilə müqayisədə isə 1895 mln. manat və ya 10,2%, gözlənilən icra göstəricisi ilə isə 412,8 mln. manat və ya 2,4% az proqnozlaşdırılıb.

S.Şərifov dedi ki, 1998-ci ildən bəri ilk dəfə ölkənin tədiyyə balansı kəsirlə müəyyənləşib.Nazir bildirdi ki, cari ilin ilk 10 ayı ərzində 49,2 mlrd. ÜDM istehsal olunub və real azalma 3,7%-dir. Nazir azalmanın əsas səbəbləri barədə danışarkən tikinti sektorundakı vəziyyət, yüksək dollarlaşma və kredit portfelinin pisləşməsi, iqtisadiyyatın kreditləşməsində ciddi problemlərin yaranması, həmçinin bank sektorundakı durumdan bəhs etdi.

Bununla belə, nazir qeyd etdi ki, çətinliklərə baxmayaraq, növbəti il sosialyönümlü xərclər artırılacaq. Həmçinin siyasi partiyalara 2,5 milyon manat, mənzil ipotekasının tətbiqi və sosial mənzillərin inşası üçün 100 milyon manat nəzərdə tutulub. Müdafiə xərcləri isə cari illə müqayisədə 2,9 faiz çoxdur. Kənd təsərrüfatı sahəsinə, balıqçılığın inkişafına isə 511 milyon manat ayrılacaq. Həmçinin pambıqçılığın inkişafı üçün 200 milyon manat sərf olunacaq. Nazirin sözlərinə görə, gələn il üçün özlərini maliyyələşdirən rayonların sayı 6-dan 33-dək artırılıb. Təhsil və mədəniyyətə ayrılan xərclər isə yerli xərclərdən ayrılaraq mərkəzləşdirilmiş xərclərə daxil edilib, ancaq məktəbəqədər təhsil müəssisələri nəzərə alınmaqla.

S.Şərifov deyib ki, 2017-ci ilin dövlət büdcəsi gəlirlərinin hesablanması zamanı neftin ixrac qiyməti 40 ABŞ dolları səviyyəsində nəzərdə tutulub.

"2017-ci ildə dövlət büdcəsinin icrası ilə bağlı müəyyən çətinliklər yarana bilər. Ona görə də yarana biləcək risklərlə bağlı müvafiq addımların atılması istisna olunmur"-deyə, S.Şərifov növbəti illə bağlı xəbərdarlıq etməyi də unutmadı.

"2017-ci il Azərbaycan üçün o qədər də asan keçməyəcək. Bu gün qlobal maliyyə böhranından danışılır. Heç bir qlobal maliyyə böhranı yoxdur. Səbəb budur ki, neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar gəlirlərdə problemlər yaranıb, Azərbaycan da o dövlətlər sırasındadır". **Bu fikirləri isə deputat Vahid Əhmədov** səsləndirdi. O bildirdi ki, neftin qiymətinin 40 dollardan götürülməsi müsbət haldır: "Ancaq unutmayaq ki, 2017-ci ildə də bizim əsas gəlirlərimiz neftdən olacaq. Çünki ixracımızın 90 faizini neft və neft məhsulları tutur".

**Daha sonra V.Əhmədov maliyyə naziri, həmçinin Mərkəzi Bankın sədrinə xitab etdi:** "Ən ciddi məsələlərdən biri məhdudlaşdırılmış maliyyə siyasətinin aparılmasıdır. Mən bir iqtisadçı kimi bunun səbəbini başa düşmürəm. Biz pul kütləsini sıxmaqla ölkədə real sektoru heç cür inkişaf etdirə bilmərik. Bu siyasətə bir daha baxmalıyıq. Manatı qoruyub saxlamaq mümkün deyil! İndi də Mərkəzi Bankın apardığı siyasət düzgündür, manat nə qədər ucuzlaşacaqsa, proses getməli və gəlib öz yerini tutmalıdır. Bu gün deyə bilmərik ki, bank sistemini sağlamlaşdırmışıq. Faktiki olaraq bank sistemi heç kimə kredit vermir".

**Bundan sonra deputat son bahalaşma qərarı ilə bağlı etirazını bildirdi:** "Mən sual vermək istəyirəm, biz qiymət artımı ilə nəyə nail olmaq istəyirik? Məgər işığın qiyməti 7 qəpik, ya qazın qiyməti 10 qəpik olanda biz 100 faiz əhalidən o pulu yığa bilirdikmi? Xeyr, uzağı 75-80 faizini yığa bilirdik. İndi bu yükü əhalinin üzərinə qoymaqla həmin pulu yenə də yığa bilməyəcəyik. Bu, təkcə işıq və qazla əlaqədar deyil, nəqliyyatla, ərzaqla da əlaqədar məsələdir. İstər-istəməz digər sahələrdə də qiymətlər qalxacaq".

**V.Əhmədov inhisarçılardan da danışdı:** "Azərbaycanda monopoliya var, real rəqabət mühiti yoxdur. Ona görə də Ziyad müəllim, biz təcili Rəqabət Məcəlləsini qəbul etməliyik!"

**Sonda o, maliyyə nazirinə müraciət edib islahatlara çağırdı:** "Bir sıra vacib addımlar atılmalıdır. Müəyyən nazirliklər, komitələr birləşdirilməlidir. O cümlədən regionlarda bu işlər aparılmalıdır. 2016-cı ildə biz milyardlarla vəsait xərcləmişik, amma Azərbaycan büdcəsi heç bir gəlir götürmür. Cəmi 600 milyon gəlir götürmüşük, o da Bakı şəhərindən".

**"Hökumət Neft Fondundan vəsaitlər götürməklə, devalvasiya vasitəsilə əlavə gəlirlər əldə etməklə, indi də işığı, qazı bahalaşdırmaqla qazanc əldə etməyə çalışır. Bu, perspektivli yol deyil. Azərbaycan hökuməti üzərinə düşəni etmirsə, heç olmasa, sahibkarlığa meydan versin". Bunu isə deputat Əli Məsimli söylədi. O, hökumətə ünvanlı konkret təkliflər və suallar ünvanladı:** "Azərbaycanda kifayət qədər qabiliyyətli sahibkarlar var. Azərbaycan hökuməti kömək etmirsə, heç olmasa onlara mane olmasın! Bunun üçün vergi yükünü xeyli dərəcədə azaltmaq lazımdır. Azərbaycanda bir ildə iki şok devalvasiya nəticəsində bahalaşma baş verib. İndi də işığın, qazın qiymətinin artırılması nəticəsində ikiqat qiymət artımı baş verir. Aşağı maaş alan vətəndaşların maaşının artırılması ilə bağlı da addımlar atılmalıdır. On ildir ki, yaşayış minimumu ilə minimum əmək haqqına çatdıracağımızı deyirik, amma edə bilmirik. Niyə Qazaxıstan bunu edir, Azərbaycan edə bilmir? Maliyyə sektorundakı gərgin vəziyyəti aradan qaldırmağın bir yolu da problemli kreditlərlə bağlı qərarın verilməsidir. Biz təklif etmişdik ki, 1000 dollara qədər borclar - əgər o insan rəhmətə gedibsə - bankların hesabına silinsin. 5 min dollara qədər borclar da köhnə kursla bağlanılsın. Artıq başqa ölkələrdə bu, tətbiq olunmağa başlayır və maliyyə sahəsində canlanma yaranıb. Əgər bizim belə təkliflər 1 il ərzində bəyənilməyibsə, Azərbaycan hökuməti daha yaxşı təklifləri niyə ortaya çıxartmayıb?"

**"Azərbaycanda 200 minə yaxın vətəndaş məhkəməyə verilib. Bizim verdiyimiz qərarlar bank sektoru ilə vətəndaşı üz-üzə qoyub. Beynəlxalq Bank ətrafında baş verənlərdə Azərbaycan insanının günahı yoxdur, axı"-deyə, deputat Zahid Oruc bildirdi. O, hökumət üzvlərinin vətəndaşlarla ünsiyyətdən yayınmasından bəhs etdi:** "Bütün sahələrdə sanki müəyyən təxribatlar baş verir. 22 fevraldan bu yana Elman Rüstəmovu ekranda görməmişik. Biz bilmirik, Elman müəllimin burda olduğu məqamda manat-dollar arasındakı məzənnə dəyişəcək, ya yox. Manatın kursu sabitləşməsə, nə biz yastıq altında olanları çıxartmayacağıq, nə də iqtisadiyyat normal məcraya düşməyəcək. Biz bilirdik ki, neft dövrünün hökumətiyik. Ancaq əhalinin məmur sayına nisbətinə görə dünyanın öncül yerlərini tuturuq".

**Deputat son bahalaşmadan da danışdı:** "Deyirlər, 300 milyon gəlir götürüləcək. Halbuki biz heç buna getməməliydik. Qənaət rejiminə keçməkdən danışırıq. Onda gəlin xidməti maşınları ləğv edək. AZAL yenə də bugünkü ayırmalarda xüsusi yer tutmaqdadır. Üç gün qaz verilməyəndə işıqla bağlı kvota dərhal kəskin şəkildə dəyişir. Vətəndaş bunda günahkar deyil axı".

**Deputat Fərəc Quliyev isə "mənbəni biz göstərəcəyiksə, bəs hökumət nəyə lazımdır?" dedi. O, neft gəlirlərinin havaya sovrulmasına diqqət çəkdi:** "Bizim 150 milyarda qədər gəlirimiz olub, qeyri-neft sektoru ağır vəziyyətdədir. Prezident nə istəyirsiniz verib, bu qədər vəsait hara gedib? 9 iqlim qurşağının olduğu ölkədə heç neftə ehtiyac yox idi. Amma neft gəlirləri artıb, büdcə də artırılıb, neft gəlirləri azalıb, büdcədə də kəsirlər yaranıb".

**Deputat Fazil Mustafa bildirdi ki, Azərbaycanda problemlərin əksəriyyəti subyektiv amillərdən qaynaqlanır:** "5 ali məktəb, ya nazirlik artıqdırsa, bunlar subyektiv amillərə görə saxlanılır. İşıq, qaz, su sahəsi, AZAL özəlləşdirilməlidir. Varlılardan pulu həbs etməklə alırlar, yoxsullardan da işığı, qazı, suyu bahalaşdırmaqla alırlar. Hamı pulunu yığmağa başlayır, ortada əzilən sadə vətəndaş olur. İlk növbədə Bakının regionlara köçürülməsi barədə addım atmaq lazımdır. Regionların heç birində normal, beynəlxalq universitet yoxdur. Uşağı evindən götürüb məktəbə gətirəcək mexanizm yoxdur, avtobus mövcud deyil. Hamısı valideynin çiynindədir".

**Mərkəzi Bankın sədri Elman Rüstəmov isə öz çıxışında bildirdi ki, Maliyyə Sabitliyi Şurasında ölkənin yeni iqtisadi modeli haqqında sənəd hazırlanır və bunun detalları hələ ki tam açıqlanmır:** "Maliyyə Sabitliyi Şurasında ciddi iş və müzakirələr gedir. Bütövlükdə makroiqtisadi sabitlik iqtisadi və sosial sabitləşdirmə, yeni iqtisadi modelə keçməklə bağlı yeni sənəd üzərində işləyirik. Susmağımızın səbəbi budur. Bu sənəd razılaşdırılmayana qədər hələ ki susmağa üstünlük veririk. Uzun illər hakimiyyətdə olan biri kimi demək istəyirəm ki, 2017-ci ilin büdcə və vergi siyasətinə baxdıqda həqiqətən də vəziyyətin gələn ilin mürəkkəb olacağını deyə bilərik. Amma bu o demək deyil ki, vəziyyət çox pisdir. Azərbaycan 90-cı illərdə bundan da pis durumlarda yaşayıb. Bütövlükdə Zahid Oruc və digər deputatların iradlarını qəbul edirik".

E. Rüstəmov qeyd etdi ki, bu gün əsas prioritet makroiqtisadiyyatın sabitləşdirilməsi və inkişafa nail olmaqdır: "Sabitləşmə ilə inkişafın məqsədləri arasında bir oxşarlıq var. Hər ikisinin son məqsədi insanların, şirkətlərin və dövlətin gəlirlərinin artırılmasına nail olmaqdır. Sabitlik yoxdursa, eləcə də yüksək inflyasiyaya görə insanlar, müəssisələr öz gəlirlərini itirirlər. Buna görə də dövlət də öz gəlirlərindən məhrum olur. Ona görə də biz makroiqtisadi sabitləşməyə nail olmaqla insanların, müəssisələrin gəlirlərinin itirilməsinin qarşısını almalıyıq. Makroiqtisadi sabitliyə nail olmasaq, heç bir investor bizə inanmayacaq. Buna görə də indi əsas məqsədimiz makroiqtisadi sabitliyə nail olmaqdır".

**Maliyyə naziri Samir Şərifov isə qazın və elektrik enerjisinin qiymətlərinin artırılması ilə bağlı deputatların etirazlarına reaksiya verdi:** "Hökumət heç vaxt qiymətlərin artımına maraqlı olmayıb. Ancaq konkret sahələrlə məşğul olan şirkətlər var. Artım olmasa, nə işıq olacaq, nə qaz olacaq. Ona görə də biz həmin sahələrdəki şirkətlərin də maraqlarını nəzərə almalıyıq". **Nazirin sözlərinə görə, bu gün ucuz enerji xidmətlərindən hamı istifadə edir:** "Amma əhalinin təbəqələşməsi faktdır. Ona görə də son qərarda sosial prinsip gözlənilir. İmkanları böyük olan şəxslər daha çox ödəniş edəcək, aztəminatlı ailələr isə az məbləğ ödəyəcək». **Nazir deyib ki, qazın qiymətinin artırılmasına SOCAR rəhbəri Rövnəq Abdullayev və onun əməkdaşları aydınlıq gətirməlidir:** "SOCAR hesab edir ki, qaz hasilatının 50 faizini onlar, yerdə qalanını isə pay bölgüsünə uyğun olaraq xarici şirkətlərdən xarici valyuta ilə alırlar. Manatın ucuzlaşması fonunda qazın maya dəyəri bahalaşır və şirkətin gəlirləri azalır. Bu gün SOCAR ancaq öz xərclərini güclə ödəyir. Manatın ucuzlaşması fonunda qiymətin artımını labüd edir".

Büdcə müzakirələri 1 dekabrda davam etdiriləcək.

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 267 (6588) 1 dekabr 2016



# Partiya sədri Artur Rasi-Zadənin istefasını istəyir

## “Ölkə iqtisadiyyatının vəziyyətinə hökumət cavabdehdir, hökumətin başçısı-baş nazir isə sanki yoxdur”

**Azərbaycanda bir ildə iki devalvasiya nəticəsində milli valyutanın getdikcə dəyərdən düşməsi, bunun nəticəsində məhsullarda bahalaşma, iş yerlərinin bağlanması onsuz da ölkədə iqtisadi-sosial vəziyyəti ağırlaşdırmışdı. İndi də Tarif Şurasının qərarı ilə işığın, qazın qiyməti artırıldı və artıq bir çox iqtisadçılar, deputatlar iqtisadi böhran təhlükəsindən danışmağa başlayıblar.**

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, elektrik enerjisinin, qazın qiymətlərinin qaldırılmasında, ölkədəki iqtisadi vəziyyətinin bu şəkil almasında günahkar Nazirlər Kabinetidir. Baş nazir, Nazirlər Kabinetinin iqtisadi bloka aid üzvləri-nazirlər, onların müavinləri istefa verməlidirlər: “Ölkədə narazılıq olması bu cür korrupsiyaya bulaşmış nazirlərin işinə yarayır, hakimiyyətin diqqəti başqa səmtə yönəlir və həmin adamlar bir müddət unudulurlar. Ölkə iqtisadiyyatı, maliyyə-bank sektoru, kənd təsərrüfatı böhranlı vəziyyətdədir. Buna kim cavabdehdir? Baş nazir, iqtisadi sahəyə aid nazirliklər, komitələr. Ona görə də istefaya getməlidirlər ki, cənab prezident İlham Əliyevin iqtisadi-sosial islahatlar proqramını uğurla həyata keçirə biləcək yeni kadrlar iş başına gəlsinlər. Tarif Şurasının yalnız sədri nazirdir, üzvləri nazirlərin müavinləridir. Həmin nazir müavinləri tabe olduqları nazirin və şəxsən özünün maraqlarını güdürlər, əksəriyyəti də korrupsionerdirlər. Onların korrupsiyaya bulaşdıqları barədə mediada, məhkəmələrdə saysız-hesabsız məlumatlar, ifadələr verilir. Məsələn, rabitə nazirinin müavini İltimas Məmmədovun adı son vaxtlar keçirilən məlum məhkəmə prosesində korrupsiya ilə məşğul olan şəxs kimi çəkilib. Bu adam tükdən asılı vəziyyətdədir, istənilən an haqqında cinayət işi açıla və həbs edilə bilər. Bax bu cür adamlar vəzifələrini və azadlıqlarını itirməmək üçün xalqla prezidenti qarşı-qarşıya qoymaqda maraqlıdırlar. Bununla genişmiqyaslı kadr dəyişikliyi islahatlarını tormozlamağı düşünürlər”.

**H.Hacıyev qeyd etdi ki, baş nazirin belə bir vəziyyətdə də ortada görünməməsi heyrət doğurur:** “Ölkə iqtisadiyyatının vəziyyətinə hökumət cavabdehdir. Hökumətin başçısı-baş nazir isə sanki yoxdur. Artur Rasi-Zadə çıxıb xalqa vəziyyəti, vəziyyətdən çıxış yollarını izah etməlidir. Lakin sanki bu ölkə baş nazirsizdir. Artur Rasi-Zadənin bu xalqa azacıq yazığı gəlirsə, ortaya çıxmalıdır və rəhbərlik etdiyi hökumətin xalqı böhranla üz-üzə qoyduğunu etiraf edib istefa verməlidir. Bunun ardınca isə iqtisadi bloka aid nazirlər istefa verməlidir. Xalqın boğazından zəli kimi yapışıb bu xalqı dövlətdən, prezidentdən narazı salmasınlar, istefa verib getsinlər, prezidentin islahatlar proqramı normal şəkildə həyata keçirilsin. Mən xəbərdarlıq edirəm, əgər həmin nazirlər, məmurlar təxribatlarını dayandırmasalar, İlham Əliyevə xəyanətlərinə son qoymasalar, onları məhv etmək üçün əlimdən nə gəlir hamısını edəcəyəm. O cür adamların dini-imanı yoxdur, onların dini-imanı puldur. Yığdıqları pullar onların burnundan gələcək. Heydər Əliyevin, İlham Əliyevin verdiyi çörək həmin xəyanətkar məmurların burnundan gələcək”.

❑ E.SEYİDAĞA

# Deputatlar Tarif Şurasının qiymət artımından danışdılar

## Yekun fikir budur ki, qiymət artımı sadə vətəndaşa təsir etməyəcək

**Tarif Şurasının bahalaşma qərarı Milli Məclisin deputatları tərəfindən də birmənalı qarşılanmayıb. Maraqlıdır ki, əksər deputatlar qərarı alqışlayıb və qiymət artımının sadə vətəndaşa təsir etməyəcəyinə əminliyini ifadə edib. Ancaq əksini düşünən deputatlar da var.**



Bəxtiyar Sadıqov



Zahid Oruc



Elman Nəsirov

**Deputat Bəxtiyar Sadıqov musavat.com-a açıqlamasında bildirib ki, bu qərar zərurətdən yaranıb:** “İstənilən bahalaşma heç kimin ürəyindən olmur. Yəni bütün hallarda əlavə xərc ailə büdcəsinə təsir göstərir. İnsanlar yenidən düşünməlidir ki, haradan kəsib, haraya yapışdırsınlar. Amma bəzən qiymət artımı zərurətdən doğur. Yəni Azərbaycan dünyanın bir parçasıdır. Azərbaycan dünyaya inteqrasiya olunmuş dövlətdir və dünyada gedən proseslər Azərbaycana da təsir edir. Bu gün həmin proseslərin mənfi təsirlərini, ölkə iqtisadiyyatına ziyanını azaltmaq üçün belə bir addım atılır. Amma bu addımı atmaqdan öncə ölçülüb-biçilib və çalışılıb ki, insanların ailə büdcəsinə mümkün qədər az təsir göstərsin, yaxud heç təsir göstərməsin. Ona görə də limit müəyyənləşib. Yəni əslində sosial cəhətdən müdafiə ehtiyacı olan ailələr elə mənzillərdə yaşayırlar ki, elektrik enerjisi və təbii qazdan elə istifadə edirlər ki, o limiti nəinki keçmək, heç ona çatmırlar da. Yəni daha böyük sahələrdə yaşayan, bir neçə mərtəbəli villaları olan, yaxud istehsal sferası ilə məşğul olanlar limiti keçəcəklər. Tarif Şurasının bu qərarında hər iki qütb nəzərə alınıb. Belə bir "planka" müəyyən olunub ki, buradan yoxsul ailələr qiymət artımından heç bir ziyan görməyəcəklər. Yəni həmin o həddi onsuz da onlar keçmirlər. O biri tərəfdən isə israfçılar, istehsalla məşğul olanlar yəqin ki, bir qədər artıq pul xərcləməli olacaqlar. Bütövlükdə bu, zərurətdən irəli gəlir, ölkənin maliyyə sabitliyini qoruyub saxlamaq üçün atılıb. Azərbaycan xalqı anlaşılan şəkildə qəbul edir və hesab edirəm ki, qənaət etməklə bu ağırlığı heç hiss etməmək də mümkün olar".

**Deputat Zahid Oruc isə musavat.com-a deyib ki, tariflərin dəyişdirilməsi məcburiyyətdir:** “Bunu büdcə müzakirələri zamanı da dedim. Biz uzun illər ərzində enerji sektorunda idarəetməyə verilmə məsələsini qaldırarkən məhz postneft dövrünün çətinliklərini göz altına alırdıq. Ona görə də həmin sektorda real addımlar atılmadığı təqdirdə, hökumətin tarif siyasətinə getməsi məcburiyyət kimi görünəcək. Halbuki zamanında burada nələr etmək mümkün idi? Biz nəzərə almalıyıq ki, elektrik enerjisi sahəsində əsas maya dəyərinə təsir göstərən amillərin hamısı ölkəmizlə bağlıdır. Elektrik enerjisinin tərkibində şərti yanacaq vahidi olaraq, mavi yanacaq iştirak edir. Həmçinin ötürücü güclər üçün lazım olan stansiyaların qurulması da Azərbaycandadır, kadr zavodları da bizim ölkəmizdə yerləşir. Yaxud qaz sektoru üçün dəmir filizi istehsalı da Azərbaycandadır. Belə olan təqdirdə, biz bu sektorun enerji istehsalına aid olan bazislərin kənardan gəlmədiyi halda artımını anlaşılmaz qarşılayırıq. Düşünürük ki, atılan addım əslində daha bir sıra sahələrdə qiymət artımlarını yaradacaq. Həm psixoloji faktorlar burada güclü rol oynayacaq. Eyni zamanda iqtisadi amillər rol oynayacaq. Bu kvotadan kənarda qalan əhali qrupları, müəssisələr avtomatik olaraq öz məhsullarında yeni xərclərini qarşılamağa çalışacaqlar. Biz bu gün müqayisə edib onlarla ölkədə tarifl ərin aşağı olduğunu deyə bilərik. Amma bu, əsas mənzərəni görməyə həlledici olmayacaq. Çünki müxtəlif məsələləri ifadə etməliyik. Orta aylıq əməkhaqlarını, aylıq enerji sərfiyyatının normasını və sairəni nəzərə almalıyıq. Ona görə bu gün vətəndaş bir sıra ciddi iqtisadi, sosial təhdidlərin altında olduğu zamanda belə bir qərarın verilməsi onları əlavə problem qarşısında qoyur. Yəni son iki devalvasiya iki yüz mindən artıq vətəndaşın məhkəmə ilə çəkişməsinə səbəb olub. Biz maliyyə, bank sektorunda sabitləşməni yaratmasaq, iqtisadiyyatın normal xətt üzrə inkişafını əldə edə bilməyəcəyik. Vətəndaşlar bu gün maliyyə sahəsində qeyri-sabitlik yaşadığı bir dönəmdə enerji siyasətində bəlli dəyişikliklər baş verib. Bu ona da təsir edəcək ki, ünvanlı yardıma müraciət edənlər artacaq. Nə qədər ki, bu sahələrdə özəlləşmə, yaxud idarəetmə yeni qüvvələrə keçməyəcək, tarifə həmişə qayıtmaq məcburiyyəti ortalıqda olacaq. Ona görə də mən bu məsələyə münasibət bildirərkən, parlamentdə hökumətin vətəndaşlarla ciddi dialoq qurmasını, bu etimad vasitəsini əllərində saxlamasını istədim. Ona dair təkliflərimi irəli sürdüm”.

**Deputat Rüfət Quliyev isə aznews.az-a bildirib ki, kommunal xərclərin qiymətlərinin artırılması ölkə əhalisinin böyük əksəriyyətinə təsir göstərməyəcək. Onun sözlərinə görə, bu artım Azərbaycanın inkişafına çox böyük töhfə verəcək:** “Dövlət büdcəsinə əlavə maliyyə gətirəcək. Neft Şirkətinə, ”Azəriqaz” və “Azərişıq” İstehsalat Birliyinin büdcəsinə pul gələcək. Vergilərdə artım müşahidə olunacaq. Nəticədə bunlar da büdcəyə əlavə pul köçürəcək". **R.Quliyev qeyd edib ki, istər rayonlarda, istərsə də Bakı sakinlərinin böyük əksəriyyəti “kombi” istilik sistemindən istifadə etmir:** “Elektrik enerjisini də qənaətlə istifadə etmək lazımdır. Bu artımın imkansız və aztəminatlı ailələrə zərbəsi dəyməyəcək”.

Deputat Elman Nəsirov hesab edir ki, Azərbaycan hökumətinin sosial xidmətlərə görə tarif siyasəti əhalinin potensial imkanları nəzərə alınmaqla, vətəndaşların və dövlətin maraqlarının müdafiəsi prinsipi üzərində qurulub. Deputat bildirib ki, Tarif Şurası bu qərarı qəbul etməmişdən əvvəl təhlilləri nəzərə alaraq müəyyən araşdırmalar aparıb. O bildirib ki, Tarif Şurasının bu qərarı istehlakçıların hüquqlarının müdafiəsinə xidmət edir və bu addım zəruridir.

**Deputat Tahir Rzayev Tarif Şurasının sonuncu qərarının aztəminatlı ailələrə o qədər də ziyan vurmadığını düşünür. O hesab edir ki, bu qərar daha böyük obyekti, yaşayış sahələri olan insanlar üçün nəzərdə tutulub:** “Əgər kimin imkanı varsa, elektrik enerjisi və qazı çox işlədirsə, həmin şəxslər çox ödəsin. Böyük villaları, bağ evləri olanlar üçün bu qiymət tətbiq olunacaq. Aztəminatlı ailələr istifadə etdikləri 250 kilovat-saat elektrik enerjisi və 1500 kubmetr qaza görə köhnə tariflərlə pul ödəyəcək. Əgər aztəminatlı ailə də nəzərdə tutulandan artıq istifadə etsə, onda çox ödəməlidir”.

❑ RÖYA

YENİ MÜSAVAT
N 267 (6588) 1 dekabr 2016

**"Rusiya-Suriya koalisiyası Serbiya, Çin, Misir və bir sıra MDB ölkələri, o cümlədən Azərbaycan və Ermənistan hərbçiləri hesabına tamamlana bilər". Belə bir sensasion sayılacaq iddia ilə Rusiyanın nüfuzlu nəşrlərindən olan "Nezavisimaya qazeta" hərbi mənbələrə istinadən çıxış edib.**

# Azərbaycan Ermənistanla ortaq koalisiyada? - Kremlin növbəti məkrli planı

**Rusiyanın nüfuzlu nəşrindən şok iddia:** Putin Bakı və İrəvanı "sülhməramlı" adı ilə özünün Suriya projesinə qoşmaq istəyir; Tehran və Moskvaya görə İslam ordusuna qoşulmayan Azərbaycanın seçimi nə olacaq - İranın da yer aldığı koalisiya, yoxsa Türkiyə?..




Nəşrin iddiasına görə, Bəşər Əsəd qüvvələri Rusiyanın dəstəyi ilə Hələb şəhərinə uğurlu hücumları davam etdirir və tezliklə şəhərin üsyançılardan təmizlənəcəyi gözlənilir. "Hələbin şimal-şərq rayonlarının azad edilməsi Rusiyanın başçılıq elədiyi və Bəşər Əsədin tərəfində olan koalisiya qüvvələrinin artan gücünü sübut edir. Bu isə Suriyada müharibənin dayandırılmasında mühüm mərhələnin başlanğıcı ola bilər. İstisna deyil ki, ölkədəki barışıq prosesinə tezliklə "mavi dəbilqəlilər" qismində bir sıra dövlətlərin hərbi kontingenti də qoşulsun. Həmin ölkələr arasında İranla yanaşı, Misirin, Çinin, Serbiyanın bəzi MDB ölkələrinin, ilk növbədə də Azərbaycanın adı çəkilir", - deyə hərbi-diplomatik mənbədən qəzetə bildirilib.

**Nəşr Suriya ərazisində antiterror mübarizəsinə MDB ölkələrinin hərbi bölmələrinin qatılması mümkünlüyünün MDB ölkələri müdafiə nazirlərinin 30 noyabr Moskva sammitində müzakirə olunacağını da istisna etməyib. Məlum olduğu kimi, Azərbaycanın müdafiə naziri Zakir Həsənov da toplantıda iştirak etmək üçün Moskvadadır.**

"Qaynaqların bildirdiyinə görə, Moskvanın niyyəti budur ki, İŞİD-in əsas qüvvələri məhv edildikdən sonra Suriya üzrə Rusiya və koalisiya müttəfiqlərinin humanitar aksiyalarda *(ərazilərin minalardan təmizlənməsi, münaqişə tərəfləri arasında vasitəçilik və s.)* və sülhməramlı prosesdə fəal iştirakı nəzərdə tutulur. Bəllidir ki, Serbiya artıq hərbi təyyarələrlə Suriyaya humanitar yardımlar çatdırıb. Rusiya Müdafiə Nazirliyi artıq Azərbaycana təklif edib ki, Suriyada üsyançılardan azad edilmiş ərazilərdə minaların təmizlənməsində iştirak etsin. Lakin Bakı bu təkliflə bağlı hələ ki susur" - nəşr etibarlı mənbəyə istinadla əlavə deyib.

***

Beləliklə, Rusiya Azərbaycana faktiki şəkildə işğalçı Ermənistanla eyni (hərbi) koalisiyada və ya missiyada təmsilçilik təklif olunur. Doğrudur, Azərbaycan rəsmiləri indiyədək Bəşər Əsəd rejimin legitimliyini şübhə altına alan mövqe sərgiləməyiblər. Bu xüsusda xarici işlər nazirinin müavini Araz Əzimovun vaxtilə verdiyi bir qalmaqallı açıqlamanı yada salmaq kifayətdir. Yəni beynəlxalq hüquq baxımından Azərbaycanın Rusiya koalisiyasında iştirakı üçün əngəl görünmür.

Amma ortada Türkiyə amili var, ərəb dünyası ilə, ilk növbədə də Azərbaycanın müttəfiqi sayılan Səudiyyə Ərəbistanı ilə isti münasibətlər məsələsi var. Bu ölkələr isə B.Əsədin tezliklə hakimiyyətdən getməsinə çalışır, nəinki onun hakimiyyətdə möhkəmlənməsinə. O zaman belə çıxmayacaq ki, Azərbaycan Əsəd rejiminin möhkəmlənməsinə hərbi töhfə verməklə həm də qardaş ölkənin, əksər ərəb dövlətlərinin maraqlarını gözardı edir?

Unutmayaq ki, həmin ərəb-müsəlman ölkələri Dağlıq Qarabağ məsələsində Azərbaycanlın haqlı mövqeyini müdafiə edən, Ermənistanı işğalçı kimi tanıyan İslam Əməkdaşlıq Təşkilatının özəyini təşkil edir. Sual da elə budur ki, Azərbaycan təcavüzkar ölkənin 1 nömrəli müttəfiqi olan, son vaxtlar isə bu təcavüzkarı daha güclü şəkildə silahlandıran Rusiyanın maraqlarını, yoxsa 1 nömrəli müttəfiqimiz Türkiyənin və digər müsəlman müttəfiqlərimizin marağını öndə tutmalıdır?

***

Bu yerdə yada salaq ki, bir neçə ay qabaq Səudiyyə Ərəbistanının təşəbbüskarı olduğu İslam ordusu layihəsinə qoşulmaq təklifinə rəsmi Bakı isti yanaşmayıb - əsasən də İran və Rusiyanı qıcıqlandırmamaq naminə. İndi isə ona diametral əks təklif edilir - Rusiyanın, İranın və Ermənistanın olacağı, lakin Türkiyə və Səudiyyə Ərəbistanının, əksər ərəb ölkələrinin yer almayacağı koalisiyaya qoşulmaq.

Burda ad artıq önəm də daşımır. Aydındır ki, belə bir koalisiya Rusiyadan ötrü daha çox Qərbə, ABŞ-a, lap elə qardaş Türkiyəyə güc nümayişi baxımından lazımdır və özünü supergüc kimi təsdiqləmək üçün sırf geosiyasi əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan srağagün Qüds konfransında çıxışı zamanı Ankaranın Suriyaya Əsədin hökmranlığına son qoymaq üçün girdiyini bildirib. Yəni Türkiyənin Bəşər Əsəd rejiminə münasibəti mahiyyət etibarilə dəyişməyib - ona bəzi korrektələr edilsə də.

Bu arada isə Suriya parlamentində *(daha dəqiqi, Əsədin "əl parlamentində")* qondarma "erməni soyqırımı"nın tanınması məsələsinin müzakirə edildiyi bəlli olub. Belə ki, publika.az panarmenian.net-ə istinadən xəbər verib ki, bu haqda Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanovla görüşdə Suriya parlamentinin deputatları Ömər əl-Ərəbi və Alan Bakeri bildiriblər. Onların sözlərinə görə, Suriya parlamentinin müvafiq komissiyalarında "erməni soyqırımı"nın tanınması məsələsinin müzakirəsi gedir.

Bunu da sözgəlişi qeyd elədik ki, Bəşər Əsədin "qanunvericiləri"nin həm də Azərbaycan əleyhinə mövqedə bulunduqları aydın görünsün...

***

Məsələ də ondadır ki, Rusiya belə xoşməramlı niyyət güdürsə, o zaman niyə də işğal altındakı Azərbaycan torpaqlarında, Dağlıq Qarabağda da analoji antiterror əməliyyatlarının aparılması üçün koalisiya qurmaq təklifində bulunmur? Cavab aydındır: çünki sərf eləmir, çünki Moskva onsuz da Güney Qafqazda möhkəmlənib. İndi əsas məqsəd Yaxın Şərqdə, Suriyada hərbi cəhətdən möhkəmlənmək və bölgəyə təsir imkanlarını artırmaq üçün Azərbaycanlın da dəstəyi ilə legitimlik əldə eləmək, sonucda özünün maraqlarını qabağa aparmaqdır.

Belədirsə, İrəvanın ən böyük hərbi-siyasi müttəfiqinin bu məkrli oyunlarında iştirakçı olmağa, bununla da üstəlik, dost-müttəfiqlərimizi incitməyə dəyərmi? Əlavə edək ki, Azərbaycan V.Putinin Avrasiya layihələrinə (Avrasiya İqtisadi Birliyi, Gömrük İttifaqı) qoşulmaqdan məhz ona görə imtina edir ki, orada işğalçı Ermənistan da təmsil olunur. Rəsmi Bakının bu xüsusda şərti çoxdan məlumdur: öncə torpaqlar, yəni Qarabağ məsələsində real irəliləyiş - hansına ki, Moskva razılıq vermir, erməniyə görə...

❑ **Analitik xidmət**

# Erməni terrorçuların abidəsinin sökülməsi qərarı verildi

## Türkiyə rəsmiləri sözlərinin üstündə durdular



**Türkiyənin Tunceli bölgəsinin Aşağıdoluca kəndində yerləşən erməni terrorçularının adını əbədiləşdirən abidə yox ediləcək. Türkiyənin "Sözcü" qəzetinin yaydığı xəbərə görə, bu barədə qərarı Tunceli Valiliyi verib.**

Qeyd edək ki, üç gün öncə Türkiyə mətbuatında belə bir abidənin qoyulması haqqında məlumat verilib. Qardaş ölkədə erməni terrorçularına abidə qoyulması barədə xəbər qısa zamanda Azərbaycanda ildırım sürəti ilə yayıldı, ictimaiyyətdən, mediadan məsələyə sərt reaksiyalar gəldi, Türkiyə hakimiyyətinə müraciətlər edildi.

Xatırladaq ki, moderator.az saytı iki gün öncə Türkiyə prezidentinin baş müşaviri Yalçın Topçuya istinadən bu abidənin dərhal söküləcəyi barədə xəbər vermişdi. Qarabağ qazisi İbad Hüseynov isə Yalçın Topçu ilə abidə ilə bağlı şəxsən telefonla danışmışdı. Beləliklə, məsələ Türkiyənin ali hakimiyyətinin də nəzərinə çatdırılmışdı. Y.Topçu İ.Hüseynovla danışığında belə bir abidənin qoyulmasından xəbərsiz olduqlarını, mütləq həmin ərazinin valisi ilə danışacağını və əgər elə bir abidə varsa, dərhal söküləcəyini vəd etmişdi.

Sevindirici haldır ki, qardaş ölkə rəsmiləri verdikləri sözü tutdular və elə vəd etdikləri kimi bu qaniçən cəlladlara qoyulan abidənin yerlə-yeksan edilməsinə qərar verildi.

Sözügedən abidə 26 aprel 2016-cı ildə açılıb. Açılış mərasimində Yunanıstan və Fransa erməni diasporunun üzvləri iştirak ediblər. Abidə üzərində erməni terrorçular-ASALA terror təşkilatının üzvləri Armenak Bakırcıyan, Manuel Dəmir, Nubar Yanıkyan, Gevork Çavuş, Monte Melkonyan, Andranik Uzunyanın adları yer almışdı. Ötən əsrin 90-cı illərində Qarabağda, Xocalıda azərbaycanlılara qarşı soyqırımlar törətmiş, azərbaycanlılara qarşı qəddarlığı ilə seçilən və 1993-cü ilin yayında öldürülən terrorçu Monte Melkonyanın adının abidədə olması Azərbaycan ictimaiyyətində xüsusilə etirazla qarşılanırdı.

Erməni terrorçuların abidəsinin sökülməsi qərarının qısa zamanda verilməsini Azərbaycan mediasının, məsələ ilə bağlı etirazlarını qaldıran, Türkiyə hakimiyyətinə müraciət edən insanların uğuru saymaq olar.

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycan və Rusiya sərhədində əməliyyat keçirildi - 27 nəfər saxlanıldı

**Azərbaycan və Rusiya daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, cari il noyabrın 21-dən 27-dək hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində "Sərhəd-Sipər" şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, əməliyyatın əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, həmçinin transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktiki tədbirlərin icrası olub.

Respublikanın Quba, Qusar, Xaçmaz, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarını əhatə edən tədbirlər nəticəsində müxtəlif cinayətlər törətdiklərinə görə axtarışda olan 27 şəxs tutulub, o cümlədən Rusiya Federasiyası tərəfindən axtarılan 18 nəfər saxlanılıb, itkin düşmüş 5 nəfərin yeri müəyyənləşdirilib. Qanunsuz saxlanılan 5 avtomat silahı, 8 tapança, 67 yivli və yivsiz tüfəng, 30 əl qumbarası, 38 ədəd silah sandıqçaları, 30 ədəd müxtəlif hərbi ləvazimat və sursat, 1 mərmi və 8611 müxtəlif çaplı patron götürülüb. Əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqədar 5 fakt aşkar olunub və nəticədə qanunsuz dövriyyədən 1,1 kiloqram narkotik vasitə çıxarılıb.

Bundan başqa, tədbirlər zamanı Quba rayonunda 3, Qusar rayonunda 2, Şəki, Xaçmaz və Qax rayonlarında hər birində 1 fakt olmaqla, qanunsuz odlu silah gəzdirmə, oğurluq və dələduzluq cinayətlərinin açılması təmin edilib. Ümumən insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin ölkəmizin milli maraqlarına, qanunçuluq prinsiplərinə ciddi riayət olunmaqla gerçəkləşdirilən belə kompleks əməliyyat-axtarış tədbirlərinin gələcəkdə də keçirilməsi planlaşdırılır.

Yeni MÜSAVAT
N 267 (6588) 1 dekabr 2016



# Diferensial intihar

Zamin HACI
zaminhaci@mail.ru

**Mərkəzi Bankın şefi Elman müəllim deputatxanada 2017-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı deyib ki, gələn il çox mürəkkəb olacaq, ancaq qorxusu yoxdur, biz 90-cı illərdə daha pis günlər görmüşük.**

Bunu 90-cı illərə doğru, geriyə qayıdışın anonsu saymaq olar. Əslində bu proses neftin qiyməti düşəndən - azı iki ildir gedir. Manatın ölməsi, devalvasiya, inflyasiya... Ən pisi isə yapistlərin bu durumda hansısa planlarının yoxluğudur. Nə iqtisadi, nə siyasi baxımdan Azərbaycanın gələcəyi aydın deyil. Bir növ, avtobusu dərə aşağı buraxıblar, sükan idarəetmədən məhrum, benzin qurtarıb, əyləc sistemi xarab... Harda qırılar-qırılar - dövlət adlanan mexanizmimizin məntiqi yalnız budur.

Prinsipcə, hökuməti də çox qınamaq olmur, çünki onları islahata, yaxşılığa məcbur edəcək heç bir struktur, qüvvə gözə dəymir. O zaman niyə yaxşılıq etsinlər ki? Yaxşılıq etmək çətindir - gərək bunun üçün baş işlədəsən, plan cızasan, resurs tapasan və sairə. Pislik isə ən asan işdir. Özünüz də bunu dar çərçivədə yoxlaya bilərsiniz. Misal üçün, hesab edin, küçədə bir insanla üz-üzə gəlirsiniz. Ona yaxşılıq etmək istəsəniz burada müəyyən baryerlər yaranır. Öncə adamı saxlayıb onun nəyə ehtiyacı olduğunu öyrənməlisiniz. Bunu deməyə də bilər - əgər utancaqdırsa. Ehtiyacını desə, onu həll etməyə, qarşılamağa yetərli gücünüz, imkanınız olmaya bilər. Ancaq ona pislik üçün uzun düşünməyə ehtiyac yoxdur - yaxına çatanda qarnına bir təpik vur, qaç! Ya da üzünə tüpür. Söy. Nə bilim, yerdən daş götür təpəsinə çırp. Və sairə. Gördüyünüz kimi, yaxşılıq pislikdən çətindir. Bizi idarə edənlər də bu prinsiplə davranırlar.

Tarif Şurası qiymətləri guya diferensasiya elədiyini söylədi. Bu qəliz latın sözünün açması "fərqli, müxtəlif" deməkdir. Guya indi biz işıq, qaz-zad pulunu fərqli qiymətlə ödəyəcəyik - kasıb və qənaətcil adam az pul verəcək, varlı və harın isə çox. Bunun həyasız yalan olduğunu elementar riyazi hesablama bacaran hər kəs dərhal anladı, o üzdən ölkə boyunca narazılıq nidaları göyə bülənd oldu. Ancaq hökumət də yaxşı bilir ki, bu donquldanmalar heç bir hərəkətə gətirməyəcək, uzağı, millət çətin yaşayışa dözməyib intihar edəcək. Bu, neçə ilin sınağından çıxmış qarşılıqlı münasibətlər formuludur: onlardan təzyiq, bizdən intihar. Müxtəlifliyimiz, nə təhər deyirlər: diferensiyamız budur. Yeri gəlmişkən, bu diferensasiyadan iki ay qabaq konstitusiyanı da diferensasiya eləmişdilər və indi Azərbaycanın ana qanunu hərəyə bir döşündən süd verməkdədir. Millətə düşən məmə quruyub, iqtidar üçün olan isə fontan verir.

Akif Çovdarov tutulanda MTN-də onun soyduğu 63 adamın adı ortaya çıxmışdı, yanılmıramsa istintaq sənədlərində də o qədər şikayətçi vardı. İndi özünüz düşünün, bu 63 nəfəri uzun illər qışqırdıb soyublar, ancaq heç 3 nəfərin səsi eşidilməyib. Müti şəkildə hamı aparıb "dolyasını" ödəyibdir. Üç deyil, beş deyil, on beş deyil e. Bu qədər insanı bir neçə quldur soyursa, nədən bunların birinin səsi millət, hökumət qarşısında vaxtında eşidilməyib? Belə ərazidə Tarif Şurası işlətməyə nə var? Haçan istəsən, harda istəsən, kimi istəsən tut, qışqırda-qışqırda qulağını kəs.

Kərə yağı ala bilməyəcək, marqarin yeyəcək. O da olmasın, cəhənnəmə ki, pambıq yağında bişirərik. Nəyi? Kartofu. Ev yoxdur, çadırda yaşayarıq. İstilik olmaz, yorğana bürünərik. Romantika. Necə deyərlər, dədə-babamız qaz görmüşdümü, bəlkə kombi işlədirdi? Azərbaycançı olmalıyıq, soy-kökümüzə qayıtmalıyıq. Elman müəllim hələ pessimist danışıb. Məndən olsa azıxantropun mağarada yaşadığı vaxtlardan misal çəkərdim.

Bir sual çıxa bilər ki, nədən ötrü, nəyin bahasına və niyə əzab çəkməliyik? Ancaq bu sual bu ortamda heç vaxt çıxmayacaq. Çünki sual vermək Şərqdə, bizdə, müsəlman aləmində həmişə bir qədər də tərbiyəsizlik, böyüyə, rəhbərə hörmətsizlik kimi qəbul olunubdur. Sual verməkdənsə körpüyə çıxıb intihar eləmək yaxşıdır.

İntəhası, deyir körpünü də diferensasiya eləyiblər. Eybi yoxdur, metroda qatarın altı var. Tarif Şurasına minnətdarıq, hələlik metro pulunu qaldırmayıblar - girmək olur. Hələ orda da baxırsan diferensial adamlar var. Birinin öz kartı var, başqası kartı olana 20 qəpik verib deyir, xahiş edirəm, məni də keçir, bizim hamımızın bir vətəni var, bu, Azərbaycandır, üçüncüsü turniketdən hoppanır...

# "Tarif Şurasının qərarı ilə bağlı korrektələr ola bilər" - millət vəkili Adil Əliyevlə olay müsahibə

## Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev: "Məhərrəm Əliyevin kölgəsindən yox, işığından çıxdım"



**Son illər mətbuatda onunla bağlı xəbərlərin sayında ciddi artım var. Millət vəkili seçildiyi ilk dönəmdən fərqli olaraq, artıq piarın faydalılığına inandığı hiss olunur və bu, mətbuat səhifələrində də özünü göstərir. Millət vəkili, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyevi mətbuata qapalı biri hesab etmək olmaz. "Yeni Müsavat"a qonaq gəlib, "Bizim qonaq" rubrikasının qonağı olmaqla, zaman-zaman iynəli suallarımıza cavab verməklə də media ilə münasibətlərdə dözümlü olduğunu göstərdi.**

*"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, baş redaktorun birinci müavini Azər Ayxan, baş direktorumuz Ələsgər Süleymanov və əməkdaşımız Sevinc Telmanqızının iştirakı ilə baş tutan iki saatlıq debatda da oxucuları maraqlandıracağını düşündüyümüz bütün mövzulardan danışdıq. Bahalaşmadan başlayıb, MTN olaylarında bitirdik söhbəti...*

*Təbii ki, öncə redaksiyamıza ilk dəfədir gələn qonağı Rauf bəy salamlayıb, "xoş gəldin" dedi.*

*R.Arifoğlu:*

***- Adil bəy, Sizə veriləcək xeyli suallarımız var. Amma gündəmdə elə bir məsələ var ki, millət vəkili ilə söhbətə bununla başlamamaq qeyri-mümkündür. Söhbət Tarif Şurasının son bahalaşma ilə bağlı qərarından gedir. Həm də ortadakı qeyri-müəyyən vəziyyət diqqət doğurur. Bir qərar verilib, amma çoxlu sual, anlaşılmazlıq var. Bir millət vəkili, böyük bir rayonu təmsil edən Milli Məclis üzvü olaraq sizin fikirləriniz maraqlıdır.***

- Çox sağ olun məni redaksiyanızda qonaq etdiyiniz üçün. Nə zamansa "Yeni Müsavat" ailəsində qonaq olacağımı düşünürdüm. Qismət bu günə imiş, Allahımıza şükürlər olsun. Sualınıza gəlincə, Tarif Şurasının qərarı insanlarımız tərəfindən birmənalı qarşılanmadı. Hesab edirəm ki, dövlət rəsmilərinin bu qərarla bağlı son sözü olacaq. Tarif Şurası müstəqil bir təşkilat kimi müxtəlif sahələrlə bağlı müəyyən araşdırmalardan sonra qərarlar qəbul edə bilir. Bu qərarları qəbul etdikdə nə Milli Məclis, nə də millət vəkilləri ilə məsləhətləşirlər. Onunçün də dövlət rəsmiləri, aidiyyəti insanlar bununla bağlı açıqlama verəcəklər. Qərar yeni qəbul olunub, amma açıqlamalar olacaq, olmalıdır. Bu açıqlamalar xalqın, millətin xeyrinə olmalıdır. Biz bu açıqlamaları aidiyyəti qurum və təşkilatlardan, insanlardan gözləyirik.

*R.Arifoğlu:*

***- Sizin dediklərinizdən belə nəticə hasil olur ki, bu qərarın müəyyən korrektəsi ola bilər...***

- Korrektə ola bilər. Başqa sahələrdə də adekvat addımlar atıla bilər. Maaşlar qaldırıla bilər, məsələn. Hesab edirəm ki, bu çətin zamanda, manatın devalvasiyaya uğramasından sonra qiymətlərin qaldırılmasının çox təhlükəli məqam olduğunu Tarif Şurası gözəl anlayır, başa düşür. Onun üçün də mütləq dövlət rəsmilərinin bu barədə münasibəti olacaq.

*R.Arifoğlu:*

***- Yeri gəlmişkən, bəzi millət vəkilləri öz maaşlarından, dolanma imkanlarından şikayət edir. Azərbaycanın millət vəkilləri nə qədər maaş alır?***

- 2200 manat civarında. Bu, adi millət vəkili maaşıdır. Komitə sədrləri bir az çox alır, sədrin müavinləri də əlavə maaşlar alır.

*R.Arifoğlu:*

***- Siz bir neçə ölkənin parlament deputat qrupu ilə əlaqədə olan komitələrin üzvüsünüz...***

- *(Dəqiqləşdirir)* Mən Azərbaycan-Qazaxıstan Parlament Qrupunun rəhbəriyəm. Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə, Azərbaycan-Avstraliya, Azərbaycan-Çin, eləcə də ərəb ölkələri ilə dostluq qruplarının üzvüyəm.

### "Millət vəkilləri ilə yanaşı, başqa peşə sahiblərinin də maaşları qalxmalıdır"

*R.Arifoğlu:*

***- Heç maraqlanmısınız, həmin ölkələrdə deputatlar nə qədər maaş alır?***

- Çox müxtəlifdir. Türkiyədə bizdən çox fərqli deyil. Sadəcə, orda sistem tamam fərqlidir. İki rəsmi köməkçiləri, xidməti maşınları var. Müharibə aparan dövlətlə inkişaf etməkdə olan dövlətin millət vəkillərinin maaşı arasında fərq təbii ki, olmalıdır. Bunu tək millət vəkilinin maaşı qalxmalıdır kimi qəbul etmək lazım deyil. Millət vəkilləri ilə yanaşı, başqa peşə sahiblərinin də maaşları qalxmalıdır.

*R.Arifoğlu:*

***- Bu sualı verməklə həm də oxuculara informasiya vermək istəyirik ki, Azərbaycanda digər ölkələrlə müqayisədə millət vəkillərinin maaşı o qədər də yüksək deyil. Lakin eyni zamanda burda bir təzad da ortaya çıxır: Azərbaycan vətəndaşları millət vəkillərindən də az maaş alırlar. Bəlkə də əhalinin 70 faizinin arzusu budur ki, ayda 2000 manat maaş alsın. Ona görə də insanlara heyrətamiz gəlir ki, millət vəkili 2000 manat məvacibdən narazıdır...***

- Millət vəkili millətin güzgüsüdür, milləti təmsil edir. Siz hansısa əməkdaşınızı xarici bir səfərə, ezamiyyətə, bir mötəbər tədbirə göndərəndə istəyərsiz ki, şirkətinizin adını layiqincə təmsil etsin. Geyimi, görünüşü və eyni zamanda bir sıra xərclərini ödəmək imkanları ilə fərqlənsin. Ona görə də dövlət çalışır ki, onu təmsil edən millət vəkillərini adi vətəndaşdan, dövlət qulluqçularından fərqli maaşla təmin etsin...

### "Fikirləşirdim ki, sağ əlin etdiyini sol əl bilməməlidir. Amma o sorğulardan sonra gördüm ki, bəzi insanlar məni yanlış yerə heç bir iş görməməkdə, "lal millət vəkili" olmaqda qınayırlar"

*S.Telmanqızı:*

***- Bəzi həmkarlarınız iddia edir ki, deputat maaşının onlara azlıq etməsinin səbəbi problemlərinin çoxluğudur. Xüsusən də seçiciləri ilə bağlı bir çox qayğıları şəxsi hesablarına həll edirlər, dərmanlarını alırlar, yardım istəyənlərin bəzən ciblərinə pul qoyurlar və sair. Bu baxımdan da məvacibləri azlıq edir. Sizdə durum necədir?***

- Heç kim millət vəkilini məcbur etmir ki, seçicilərin problemlərini şəxsi hesabına həll etsin. Təbii ki, bölgələrdən seçilən millət vəkilləri var. Onların rayonlara gedib-gəlməsi, xərcləri var. Sürücülərinə məvacib verilmir, yanacaq pulu verilmir...

*R.Arifoğlu:*

***- Sürücü ştatı yoxdur?***

- Yoxdur. Ancaq komitə sədrlərində sürücü ştatı var. Bir də bütün deputatların köməkçi ştatı var. Köməkçilərə ştat verilir. Yalnız bir rəsmi köməkçi ştatı var, onun məvacibi də dövlət tərəfindən verilir.

*S.Telmanqızı:*

***- Seçicilərin problemləri demişkən, o düzdür ki, sizin qərargahınızdakı qapının üstündə "İş və maddi problemlə bağlı müraciət etməyin", elanı yazılıb?***

- Düzdür.

*S.Telmanqızı:*

***- Niyə?***

- 3 seçkidir ki, eyni ərazidən seçilirəm. O həddə çatmışam ki, qapımın üstündə onu yazıb vurmuşam. Onsuz da mənim tanıdığım insanlar, məni tanıyan insanlar bilirlər vəziyyətin nə yerdə olduğunu. Yəni seçicilərimə hansı məsələlərdə yardım etdiyimi, onların mənə münasibətini. Bunlar bizim aramızdadır və sirdir. Amma bəzən başqa ərazilərdən, başqa millət vəkilinin ərazisindən mənim qərargahıma gəlirlər. Həmin problemlərlə bağlı mənə müraciət edirlər. O həddə çatmışam ki, Məşğulluq İdarəsi, məni tanıyan dövlət qurumları, özəl sektor nümayəndələri bilirlər ki, mən onlara işlə bağlı müraciət edirəm. Eyni adamdan çox iş xahiş etmək də mümkün deyil. Məsələn, siz bir qurumun rəhbərisiz. 2005-ci ildə mən deputat seçilmişəm, 2006-cı ildə zəng edib, sizdən ərazimdəki bir seçici üçün, onun bütün müsbət özəlliklərini sadalayıb iş xahiş etmişəm. Həmin qurumun rəhbəri də yeni millət vəkili olaraq mənim sözümü yerə salmayıb. Ancaq sabahısı gün bir başqası, o biri gün başqası gəlir... Eyni adama işlə bağlı xahiş etməmi istəyirlər. Mən də eyni adama bir dəfə xahiş etmişəm, iki-üç dəfə də xahiş etsəm, sözümü yerə salmır. Amma 10-11 il eyni adamdan müxtəlif adamlarla bağlı eyni xahişi etmək praktik olaraq mümkün deyil. Belə olanda hamı dilə gələr ki, qardaş, mən sənin seçicini işlə təmin etmək üçün çalışmıram ki...

### "Heç kim millət vəkilini məcbur etmir ki, seçicilərin problemlərini şəxsi hesabına həll etsin"

*S.Telmanqızı:*

***- Ölkədə işsizlik və kasıblıq problemləri var. Seçiciniz də bununla bağlı müraciət edir. Siz buna qadağa qoyursuzsa, seçiciniz sizə niyə müraciət etsin ki?***

*A.Ayxan:*

***- Ümumiyyətlə, sizin əsasnamədə seçicinizi işlə təmin etmək kimi bir öhdəliyiniz varmı?***

- Əsasnamədə yoxdur. Mənim seçicilərlə aramda olan münasibət bir qardaşlıq, ata-bala münasibətidir. Mən əgər üçüncü dəfə eyni dairədən namizəd seçilmişəmsə, demək, burda bir sirr var. Mən o insanlara inanıram, etibar edirəm, onlardan səs istəyirəm. İnsanlar mənim yanıma şəxsi dost kimi gəlirlər. Bəzi məsələlər mənim millət vəkili kimi statusuma uyğun deyil. Amma onlar mənə bir tanış, dost, qonşu kimi müraciət edirlər.

*R.Arifoğlu:*

***- Amma belə bir rəy də var ki, seçicilərinə ən çox kömək edən, onların problemlərini həll edən millət vəkillərindənsiz, həm də buna imkanlarınız var.***

- Mən bunun statistikasını aparmamışam. Ancaq hesab edirəm ki, ən azından qulaq asmışam, seçicimin dərdinə şərik olmuşam. Seçici təkcə pulla bağlı müraciət etmir ki. Onun banka borcu olur, uşağının məktəbdə nəsə problemi yaranır, qaz, işıq, lift borcları olur. Seçicilərə izah etmək istəyirəm ki, nə qədər çox seçici seçkilərə qatılsa, bu, o qədər çox millətin adına yazılan müsbət məqam deməkdir. Seçici seçkiyə getmir. Bir dairədə 41 min seçici varsa... Mən son seçkidə 11 min səs toplamışam. O biri namizədlərlə birgə 15-20 min seçici səsi toplamışıqsa, ümumi nəticə onu göstərir ki, seçicilərin yarıdan çoxu seçkilərə gəlmir. Çoxu arxayındır ki, onsuz da seçiləcəksən. Seçkiyə getmək mədəniyyəti bizdə aşağı səviyyədədir.

*S.Telmanqızı:*

***- Adil müəllim, amma sizin deputat olduğunuz dairə də Bakı şəhərinin nisbətən imkanlı təbəqəsinin yaşadığı ərazidir. Villalar, bahalı evlər... Yəni adam düşünür ki, sizin seçicinizin yəqin ki, o qədər də çox böyük problemi olmaz. Ən azı regionda, rayonlarda yaşayanlar qədər...***

- O villalarda yaşayanlar ümumi seçicilərimin heç 5-10 faizi deyil. O ərazidə Azərbaycanın ən imkanlı və ən imkansız şəxsləri yaşayır. Kontrasdır. Orta təbəqə də çoxdur. Xutor deyilən sahə var, amma eyni zamanda Ruhulla Axundov küçəsi də, Ülvi Bünyadzadə küçələri daha aztəminatlı insanların yaşadığı ərazidir.

*R.Arifoğlu:*

***- 2010-cu ildə parlament jurnalistləri arasında sizinlə bağlı bir sorğu keçirilib. Jurnalistlərin böyük əksəriyyəti deyib ki, Adil Əliyev fəal deyil, onu daha çox Məhərrəm Əliyevin qardaşı kimi tanıyırıq... Amma 2010-cu ildən üzü bu yana o qədər sürətli dəyişiklik olub ki, siz fəal deputat, idman, siyasət sektorunda, beynəlxalq münasibətlərdə, türk dünyası ilə əlaqələr məsələsində bir xeyli işlər görmüsüz. Hər ay ən azı sizinlə bağlı bir-iki böyük xəbər yayımlanır, uğurlarınız barədə ictimaiyyət məlumatlandırılır. Bu, nədən xəbər verir? Adil Əliyev, nəhayət, general Məhərrəm Əliyevin qardaşı kölgəsindən çıxıbmı? Bu cür hesab etmək mümkündürmü?***

- *(Gülərək)* Məhərrəm Əliyevin kölgəsindən yox, işığından...

*R.Arifoğlu:*

***- (Zarafatla) Yaxşı, sualı dəyişək: Məhərrəm Əliyevin işığından çıxdınızmı? Çünki artıq Adil Əliyevin adı gələndə "Məhərrəm Əliyevin qardaşı" izahatı verilmir, deputat Adil Əliyevin təqdimatı ön plana çıxır... Bir fəallıq, hətta bəzi çevrələri qısqandıracaq fəallıq nümayiş etdirməkdəsiz.***

- Gözəl sualdır. Mən əvvəllər gördüyüm işləri işıqlandırmırdım. Mətbuatla əlaqələrim sıx deyildi, sosial şəbəkədə aktiv deyildim. Fikirləşirdim ki, sağ əlin etdiyini sol əl bilməməlidir. Amma o sorğulardan sonra gördüm ki, bəzi insanlar məni yanlış yerə heç bir iş görməməkdə, "lal millət vəkili" olmaqda qınayırlar. O sorğunu keçirənlər, buna rəy verənlərin mənim ərazimdən xəbərləri yox idi. Mən millət vəkili seçiləndən bu günə qədər insanlarla çox yaxın təmasdayam. O işlərimi işıqlandırmadığım üçün insanlara elə gəlirdi ki, Məhərrəm Əliyevin hesabına millət vəkili olub, indi də heç nə etmir. Başqa məmur qardaşları kimi o da büdcədən yeyən insanlar sırasına daxildir. Məhərrəm Əliyevin hörməti var idisə, məni onun adına yazırdılarsa, lap yaxşı, buna sevinirdim. Çünki cəmiyyət onun yaxşı işlər gördüyünü, bu işlərin hesabına hörmət qazandığını qəbul edirsə, bu, çox müsbət haldır. Məni də həmin hörmətdən bəhrələnən qardaşı kimi qələmə verirdilər. Sonradan mən gördüyüm işləri az-az da olsa mətbuat, sosial şəbəkə vasitəsilə işıqlandırmağa başladım. Amma Azərbaycanda da jurnalist ailəsi çox genişdir. Ölkəmizdə əsl jurnalistlərlə yanaşı, jurnalist adından istifadə edənlər də vardı. Yanıma jurnalist kimi gəlib, əlindəki jurnalın adını düz deyə bilməyənlər, o jurnalı tərs tutanlar vardı. Aydın məsələ idi ki, nə üçün yanıma gəlirlər. Ona görə də qərara gəldim ki, gündəlik gördüyüm işləri sosial şəbəkə vasitəsilə yayım, işıqlandırım. Gündə 5 tədbirə gedirəmsə, onun heç olmasa bir-ikisini işıqlandırım. Qoy camaat görsün ki, mən boş-boşuna yerimdə oturmamışam, insanların dərdində-sərində aktiv iştirak edirəm.

*R.Arifoğlu:*

***- Nəticə nə oldu?***

- Nəticə o oldu ki, problemlərim çoxaldı, işim artdı. Onsuz da mən heç kimdən sağ ol, mükafat gözləmirəm. Mənimlə o insanlar arasında bir əxlaq, vicdan, insanlıq borcu olduğunu bilirəm. Axtarmadım ki, məni yenə qınayacaqlar ya yox. Öz yoluma davam etdim. Nəsə yazıram sosial şəbəkədə, paylaşıram. Bəzən elə reaksiyalar gəlir ki. Onların bəzilərini araşdırıram, axtarıb tapmışam, çağırmışam, danışmışam...

*S.Telmanqızı:*

***- Facebookda sizin barənizdə tənqid yazanların kimliyini araşdırıb, söhbət etmisiz?***

- Bəli. Pis məqsədlə yox. Tanışlıq, söhbət, inandırma məqsədi ilə. Zəng edib, dəvət edirəm, gəl gör sənin fikirləşdiyin, haqqında ədalətsizliklə yazdığın adama bənzəyirəm ya yox? Bəzisi gəlib, danışmışıq. Belə söhbətlər şəxsən mənimçün maraqlı olmayıb. Sadəcə, o insanlara özümü anlatmaq istəmişəm.

*A.Ayxan:*

***- O insanlarda sizinlə bağlı yaranan yanlış təəssüratı aradan qaldırmaq üçün, yəni...***

- Bəli. 2005-ci ildəki seçkilərdə bir səsimə görə rayondakı seçicimin arxasınca getmişdim. Bu adam mənim ərazimdə qeydiyyatda idi, amma seçki vaxtı xəstələnib rayona getmişdi. Ya da bağda qalan vardı. Yanımdakı dostlarımı göndərir, gedib həmin adamı maşınla səsverməyə gətirdir, sonra o bağa geri göndərirdim. Çünki bir səsin də önəmi böyükdür mənim üçün. Bir nəfərin səsini döndərmək bir ailənin, bir nəslin, bir el-obanın səsini qazanmağa bərabərdir mənim üçün. İrad bildirən insanlarla açıq danışmaq istəyirəm. Üzbəüz dayansın mənimlə, ittiham edirsə, mənim günahımın, suçumun nə olduğunu mənə desin.

*A.Ayxan:*

***- Bəzi deputatlar mətbuata müsahibələrində də, öz aralarında da dövlət məmurlarının, yüksək vəzifə sahiblərinin onların zənginə cavab verməmələrindən, onlarla ünsiyyətdən qaçdıqlarından şikayətlənirlər. Bu baxımdan, sizdə vəziyyət necədir? Çünki bayaq dediz ki, sizi məmur qardaşı kimi təqdim edirdilər çox vaxt. Nazirlər, komitə sədrləri ilə şəxsi, eləcə də seçicilərin problemlərini çatdırmaq üçün əlaqə yaratmaq imkanlarınız varmı? Sizinlə ünsiyyətə çıxırlarmı?***

(davamı növbəti sayımızda)

Söhbəti qələmə aldı: Sevinc TELMANQIZI
Fotolar: Məhəmməd TÜRKMƏNİNDİR





### "Qərargahdakı qapımın üstündə "İş və maddi problemlə bağlı müraciət etməyin" elanının olması doğrudur"





### "Bir nəfərin səsini almaq bir ailənin, bir nəslin, bir el-obanın səsini qazanmağa bərabərdir mənim üçün"

YENİ MÜSAVAT
N 267 (6588) 1 dekabr 2016



# Sərkisyan bu dəfə nə oyun çıxaracaq?..

Hüseynbala SƏLİMOV

**Əslində tədricən ilə yekun vurmağa və növbəti il üçün proqnozlarımızı bölüşməyə başlamalı idik. Bu mənada Qarabağ prosesi də istisna deyildir. Amma xarici işlər nazirləri və eləcə də həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərini Hamburqda görüşdürməyə israrlıdırlar.**

Görüşün baş tutub-tutmayacağını deyə bilmərik. Ona görə ki, Sərkisyan cənabları bu gün bir şey deyir, sabah tamam başqa. Məsələn, bu yaxınlarda dedi ki, millətlərin müqəddəratını təyinetmə hüququ heç də ərazi bütövlüyü prinsipi ilə ziddiyyət təşkil etmir. Prinsipcə, haqlıdır və nəhayət ki, ərazi bütövlüyünün də vacibliyini başa düşüb...

Amma bir məsələ var. Özü də ki, çox ciddi. Məsələ bundadır ki, Azərbaycan ərazi bütövlüyü prinsipilə ziddiyyət təşkil etməyən bütün muxtariyyət modellərini artıq Dağlıq Qarabağa təklif edib.

Bəs cavabında nə eşidibdir? Sərkisyana qədərkilər də, elə o özü də "Dağlıq Qarabağ müstəqil olmalıdır!" deyib durublar. Ona görə də bir daha əmin olursan ki, Ermənistan prezidenti sadəcə, adi çərənçiliklə məşğuldur...

Bədbəxtlikdən çərənləməkdə o, tək deyildir. Bu yaxınlarda C.Uorlik özünün həmsədrlik missiyasına xitam verdi. Bu adam da yadımızda daha çox sosial şəbəkələrdə yazdığı sərsəm statuslarla qalıb. İndi məlum olur ki, həmsədrlərin Hamburq ərəfəsindəki sayı bir nəfər azalıb. Fəqət, bunun ümumi prosesə necə təsir edib - etməyəcəyi haqda söz demək olmur, çünki C.Uorlikin həmsədr olduğu vaxtlarda nəyə və necə təsir etməsi ilə bağlı yalnız mübahisə açmaq olar...

O ki qaldı ümumi prosesə, Rusiya yazda etmək istədiklərinin üstündən payızda böyük xətt çəkdi. Apreldəki uğursuzluqdan sarsılmış Ermənistan Rusiyanın sayəsində yenidən özünə gəlib...

Amma çoxu hələ də iddia edir ki, guya, Qarabağ problemi Rusiya ilə Qərb arasındakı ziddiyyətlər ucbatından həll olunmur. Halbuki, hətta siyasi təhlil və araşdırmalardan uzaq adama da aydınıdır ki, Qərbi yalnız bir məsələdə ittiham etmək olar: o, Qarabağ probleminə Rusiya kontekstində yanaşır və ruslara bu məsələdə çox böyük sərbəstlik verir. Qərb Qarabağa yanaşmada, məsələn, Ukrayna problemində göstərdiyi münasibət qədər prinsipial və səmimi deyildir. Düşünürlər ki, Rusiya problemi həll edərsə, biz də yardımçı olarıq. Amma özləri heç bir halda əllərini əllərinin üstünə qoymaq fikrində deyillər...

Məsələ bundadır ki, Dağlıq Qarabağ onlar üçün Ukraynadan qəliz problemdir. Ona görə ki, Amerika demokratları üçün də, respublikaçıları üçün də ermənilərin səsi vacibdir. ABŞ-ın problemə saygısızlığının əsas səbəbi budur. Avropaya gəldikdə isə onlar həmişə ABŞ-a baxaraq istiqamət götürüblər. Mən hələ Ermənistanı ölkələrinin "kiçik bacısı" adlandıran fransızları demirəm...

Ona görə də nikbin proqnozlara sayğımla baхəm, bu il üçün elə də ciddi tərpəniş gözləmirəm. Hərçənd, Moskva-Ankara təmasları da müəyyən ümidlər vəd edir.

Əslində Türkiyənin rolu yazda, "Lavrov-Putin planı" dövriyyəyə buraxılarkən anons edilmişdi və biz də bundan çox ruhlanmışdıq. Əgər Moskva onda dediklərini yenidən yada salırsa, bu, çox yaxşı haldır...

Növbəti ilə gəldikdə isə, düşünürəm, o, maraqlı olmağı vəd edir. Bilirsiniz, hazırda Qərbdə ziddiyyətli proseslər gedir. Bir tərəfdən Avropa ilə Rusiya arasındakı uçurum dərinləşir. Bu yaxınlarda hətta Avropa Rusiyanı öz dəyərlərini gözdən salmaqda ittiham etdi. Bu isə o deməkdir ki, Avropa Rusiyaya qarşı təbliğat müharibəsinə start verə bilər...

Sərt təbliğatın ardınca isə həmişə daha sərt siyasət və eləcə də diplomatiya gəlir. Amma digər tərəfdən, rusların Trampla bağlı ümidləri hələ də böyükdür. Baxmayaraq V.Putin özü də dedi ki, seçkidə deyilənlərlə real siyasəti qarışdırmaq lazım deyil...

Hər şey normal bitərsə və D.Tramp da, nəhayət, prezident kimi birdəfəlik və yekdilliklə təsdiq olunarsa (üç ştatda səslər təzədən sayıla bilər!), onda öncə respublikaçılarla münasibətlərini qurmağa çalışacaq. Bu isə özünü komanda seçimində təzahür etdirəcəkdir. Ruslar həm də azacıq çaşqınlıq içindədirlər: Trampın bu vaxta qədər söhbətə dəvət etdiyi kadrlar Rusiyaya çox kəskin neqativ münasibətləri ilə seçiliblər...

Qabağa qaçmaq istəmirəm, amma respublikaçılar qəliz adamlardır, onlar danışmaqdan daha çox iş görməyə üstünlük verirlər. Məsələn, respublikaçı R.Reyqan demokratiyadan, insan haqları və söz azadlığından çox da danışmırdı, amma onların dünyada təsdiq olunması üçün hamıdan çox iş gördü - bu adam SSRİ-ni dağıtdı...

Ona görə də hələ bilmək olmaz, Ağ Evlə Kreml arasında hansı siyasi sular axacaq və hansı küləklər əsəcək. Ona görə ki, bu, siyasətdir. O isə sürprizləri sevir...

# Avropa Birliyi - Türkiyə əlaqələri: tamam, yoxsa...

## Ankara-Brüssel münasibətləri günü-gündən pisləşir, bəs sonda nə olacaq?

**Türkiyə və Avropa Birliyi arasında münasibətlər günü-gündən pisləşir. Ötən həftə Avropa Parlamenti qətnamə qəbul edərək Türkiyə ilə üzvlük müzakirələrini dayandırmağa çağırıb. Qətnamə tövsiyə xarakterlidir, əsas qərar dekabrda AB liderlərinin toplantısında qəbul olunacaq. Məhz bu qərardan sonra Türkiyə ilə üzvlük müzakirələrinin davam etməsi və ya dayandırılması məlum olacaq.**



Ancaq artıq ilk bədbin proqnozlar gəlməkdədir. Bugünlərdə Xristian Demokrat İttifaqı Partiyasının üzvləri qarşısında çıxışı zamanı Almaniya kansleri Angela Merkel deyib ki, Türkiyə ilə üzvlük müzakirələrinin yenidən bərpa olunmasının əleyhinədir. Alman mətbuatı Merkelin bu çıxışının faktiki olaraq Ankaranın üzünə bütün qapıların bağlanması anlamına gəldiyini bildirib. Xatırladaq ki, AB-də aparıcı ölkələrdən olan Almaniya eyni zamanda Türkiyəyə ən isti yanaşan ölkələrdən biridir. Ancaq son illərdə Türkiyə və Avropa Birliyi arasında münasibətlər ciddi şəkildə soyuyub. Xüsusən də son 15 iyul hadisələri, Türkiyədə kürdlərə qarşı həbslərin başlaması Avropada sərt etiraz doğurub.

**Türkiyə hakimiyyəti də Avropaya qarşı güzəştli davranmaq fikrində deyil. Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, AP-nin Türkiyə ilə bağlı qətnaməsi Ankaranı narahat etmir. Onun sözlərinə görə, AB 53 ildir üzvlük müzakirələrini apardığı Türkiyəni qəbul etmək istəmir. Sitat:** "53 il bu ölkəni qapısında gözlədən AB var. Sən tapılmayan Hind ipəyi deyilsən, 53 ildir davam etdirdik. Biz özümüzə inanırıq. İndikindən iki dəfə artıq işləyib, daha çox göstəriciyə nail olarıq. Amma ideoloji təzyiqlərə boyun əymərik".

Qeyd edək ki, Türkiyə 1963-cü ildə o zaman Avropa İqtisadi Birliyi adlanan qurumla əməkdaşlıq sazişi imzalayıb. 1987-ci ildə isə Türkiyə AB üzvlüyü üçün rəsmi müraciət edib. Bu proses uzun bir müzakirə və danışıqlar mərhələsindən keçib, nəhayət, 1999-cu ildə Avropa Birliyi Türkiyəni üzvlüyə namizəd ölkə olaraq qəbul edib. Yalnız 2005-ci ildən Türkiyə və AB arasında tam üzvlük danışıqları başlayıb. Türkiyənin Birliyə üzvlüyü ilə bağlı Avropa Birliyinin bir sıra tələbləri var. O cümlədən qanunlarda dəyişiklik tələbləri var. Ancaq zaman-zaman bu mövzularda fikir ayrılıqları yaranıb.

İndi bu sual xeyli aktualdır: AB Türkiyə üçün nədən bu qədər vazkeçilməzdir? Türkiyə illər uzunu bu birliyə üzv olmaq üçün çalışıb, bir çox qanunları, hətta çörəyin tərkibinə qədər bir çox standartları qəbul edib. Təbii ki, tam olaraq bu siyahı tamamlanmayıb. AB Türkiyəni üzvlüyə qəbul etmək üçün daha çox addımlar və liberallaşma tələb edir. Bəs bu üzvlük Türkiyəyə nə vəd edəcək? Təbii ki, dünyanın ən varlı və rifah ölkələrinin birliyinə qəbulun ilk baxışdan bir sıra üstünlükləri var. "Şengen" ailəsinə üzv olmaq, qitə içərisində rahat səyahət, gömrük, ticarət güzəştləri haqda danışılır. Bəs daha detallı olaraq AB üzvlüyü Türkiyəyə nə vəd edir?

İlk növbədə Türkiyənin AB-yə üzlüyü Ankaranın qarşısında yeni imkanlar açacaq. Böyük Avropa ailəsinin üzvü olacaq, siyasi-diplomatik təsir imkanları güclənəcək. Bununla da Türkiyə qlobal bir oyunçu olacaq. Digər tərəfdən, Türkiyə kimi böyük bir müsəlman ölkənin AB-yə üzv olması "Xristian klubu"nun xeyli dərəcədə müsəlmanlaşmasına səbəb olacaq. Eyni zamanda Türkiyə vətəndaşları İspaniyadan Polşaya qədər müxtəlif qitə ölkələrinə yayılacaq, ticarət, biznes sahələrində iştirak edəcəklər. Sürətlə artan gənc əhalisi olan Türkiyənin qocalan Avropaya üzvlüyü Türkiyə üçün böyük fürsətlər yaradacaq. Hazırda Türkiyə 51 faiz ixracat və 49 faiz idxalla AB-nin ən yaxın tərəfdaşlarıdır. Yəni Türkiyənin indi həm istehsal etdiyi malları satmaq, həm də məhsul idxal etdiyi əsas tərəfdaş AB-dir. Yalnız qaz idxalında Türkiyə Rusiyadan asılılığını qoruyub saxlayır. Bundan başqa, Türkiyənin yerləşdiyi ərazi, Avropanın enerji təhlükəsizliyində oynayacağı rol onu AB daxilində əsas güc mərkəzinə çevirə bilər.

Bundan başqa, vahid maliyyə bazarına üzv olması Türkiyənin yatırım imkanlarını daha da artırar və bu ölkəyə sərmayə cəlb olunmasını daha da rahatlaşdırar, birjalar tələtümlü dövrünü geridə qoyar. Türkiyənin dinamik inkişafı, güclü biznes imkanları onu üzvlük nəticəsində daha da gücləndirər. Eyni zamanda bank, sığorta əməliyyat sistemlərinin vahid Avropa sisteminə inteqrasiyası, təhsil, səhiyyə standartları Türkiyənin böyüməsi və inkişafı üçün ciddi dəstək təmin edə bilər.

Təbii ki, risk amilləri də var. O cümlədən qitədə maliyyə böhranları Türkiyəyə zərbə vura bilər. Ancaq Almaniya nümunəsi göstərdi ki, birlik daxilində baş verən böhranlar ölkələrə görə dəyişir. Zərərsiz qurtulan ölkələr də olur.

Ancaq AB üzvü olmaq üçün Türkiyənin qarşısında ciddi şərtlər var. İqtisadiyyatın, siyasətin liberallaşdırılması, etnik və dini sahədə haqların artırılması, nəhayət, qloballaşma tendensiyası kimi faktorlar Türkiyənin AB üzvlüyünü əngəlləyir.

❑ KƏNAN

# "Ərdoğanın Əsəd haqqında dedikləri müzakirə mövzusu olacaq"

**Ərdoğanın Əsədi devirmək istəməsi ilə bağlı bəyanatı avropalılarla münasibətlərin yaxşılaşdırılması üçün Qərbə göndərilən mesajdır.**



Axar.az xəbər verir ki, bunu "İnterfaks" agentliyinə açıqlamasında Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski söyləyib. Onun sözlərinə görə, Qərb Ərdoğanın mesajına müsbət cavab verə bilər:

"Ərdoğan deyir ki, gəlin, mən sizə Əsədi ortadan götürməyə yardım edim, siz isə məni Avropa Birliyinə qəbul edin. Belə hiyləgər qəribəliklər olur. Bir sözlə, Türkiyə NATO-da qalır, Əsədi devirir, əvəzində Avropa Birliyinə dərhal qəbul edilir, Şengen zonası üzünə açılır. Bunun qarşılığında isə Ərdoğan bütün qaçqınları Suriyaya geri göndərir. Avropa buna gedə bilər, çünki çox qorxub. Ərdoğanın çıxışı Türkiyənin tarixi baxışı ilə də bağlı ola bilər. Ankara Suriyaya Osmanlı ərazisi kimi baxır. Yəni onların Suriya ilə münasibətləri bizim Krımla münasibətlərimiz kimidir. Ankara Suriyanın şimal hissəsində hansısa ərazini və İraqın şimalını özünə birləşdirməyi hədəfləyir. Bu isə bizə sərf etmir və ona görə də müttəfiqimiz Əsədi müdafiə edəcəyik".

Qeyd edək ki, dünən Qüds konfransında çıxışı zamanı Türkiyə prezidenti Ankaranın Suriyaya Əsədin hökmranlığına son qoymaq üçün girdiyini bildirib.

"Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bəşər Əsəd haqqında sözləri Rusiya xarici işlər naziri Sergey Lavrovun Türkiyəyə səfəri zamanı müzakirə mövzusu olacaq".

Avropa.info xəbər verir ki, bu açıqlama ilə Lavrovun müavini Mixail Boqdanov çıxış edib.

"Məqsədlərin aydınlaşdırılması üçün yaxşı mövzu olacaq" - Boqdanov belə deyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



Yeni MÜSAVAT
N 267 (6588) 1 dekabr 2016

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Rus-erməni müttəfiqliyi bölgəyə yeni fəlakətlər vəd edir - sərt etirazlar

## Azərbaycanın hərbi və siyasi ekspertlərinə görə, bütün dövrlərdə olduğu kimi, indi də Rusiyaya inanmaq və etibar etmək olmaz...

**Aprel döyüşlərindən sonra elə ermənilərin özlərinin etiraf etdiyi kimi, hətta bəzi rayonları azad etməyə hazır olan Ermənistan prezidenti Serj Sərkisyan indi Bakını tuta biləcəyi barədə sərsəm fikirlər səsləndirir. Təbii ki, bu cəsarəti ona verən qüvvə var və bu havadar işğalçı ölkə ilə hərbi birlik yaradan, onu "İsgəndər" raket kompleksləri ilə təchiz edib işğalı stimullaşdıran şimal qonşumuzdir.**

Ermənistan hakimiyyətinin aqressiv siyasəti S.Sərkisyanın yay aylarında Moskvaya səfərindən sonra daha da vüsət almağa başladı. O zaman rusiyalı "ağa"sının qarşısında az qala diz çöküb pulsuzluqdan və silahsızlıqdan şikayətlənən, ölkəsində hazırlanan saxta anti-Rusiya etitrazlarını yatırmaq üçün Kremldən dəstək istəyən erməni prezident istəyinə nail olandan sonra tamam fərqli bir qiyafədə görünməyə başladı. Ötən ay Bakı və İrəvan arasında "qaynar xətt" yaradılması təşəbbüsü ilə çıxış edən, ardınca Dağlıq Qarabağ xaric, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını söyləyən S.Sərkisyan indi daha da uzağa gedərək Bakını təhdid edir. Onun hakim Respublikaçılar Partıyasının qurultayında söylədiyi "Bizim Bakını tutmaq və kapitulyasiyaya məcbur etmək kimi strateji məqsədimiz yoxdur, amma sarsılmaz zərbə endirə endirə bilərik" təhdidlərinə çox qəribədir ki, nə həmsədr ölkələrdən, nə də beynəlxalq təşkilatlardan hər hansı reaksiya verilmədi. Bu faktın özü sübut edir ki, dünya birliyi Qarabağ məsələsi ilə, sadəcə, vaxtı və həvəsi olanda məşğul olur. Məşğuliyyət isə prosesdə ciddi nəticəyə nail olmaqla bağlı olmur, sadəcə, görüntü yaradılmasına xidmət edir.

Sərkisyan deyib ki, hərbi əməliyyatların bərpasına Ermənistanın ehtiyacı yoxdur və münaqişə yalnız sülh yolu ilə həll oluna bilər. Ancaq unudur ki, sülh yolu ilə həll yalnız torpaqların işğalına son verildiyi halda mümkündür. Lakin Ermənistanın həyasızlığı o həddə çatıb ki, hətta Azərbaycan ərazilərində arxeoloji qazıntılar aparıb bu ərazilərin "qədim ermənilərə məxsus olduğu" barədə saxta tarix yazmağa çalışırlar. Bütün bunlara stimul verən isə işğalçının hərbi müttəfiqi Rusiyadır.

Azərbaycan Milli Məclisinin son plenar iclasında Moskvanın bu siyasətinə kəskin etirazlar ifadə olunub. "Ermənistan prezidenti Azərbaycanı hədələyib və deyib ki, hətta Bakını işğal edə bilər. Aprel döyüşlərində siçan kimi girməyə deşik axtaran Sərkisyan indi Moskvada özünə deşik tapıb, arxasında "İsgəndər" raketlərini hiss edir və bizi hədələyir" deyən deputat Qüdrət Həsənquliyev açıq şəkildə bildirib ki, Ermənistanın arxasında Rusiya dayanır. Deputatın fikrincə, biz Qarabağ problemini ona görə çözə bilmirik ki, onu Moskva müdafiə edir. Q.Həsənquliyev deyib ki, Rusiya ya vasitəçi kimi bitərəf mövqeyini saxlamalıdır, ya da bu ölkə ilə münasibətlərə yenidən baxmalıyıq. Digər deputatlar da etirazlarını ifadə ediblər. Deputat Fərəc Quliyev Rusiya-Ermənistan hərbi birləşməsinin Naxçıvanla Qarabağ arasında yerləşdirilməsi barədə razılığı xatırladıb və Qars müqaviləsini xatırladaraq deyib ki, Türkiyə hərbi bazasının Naxçıvanda yerləşdirilməsi ilə bağlı işlər aparılmalıdır. Deputat Asim Mollazadə isə "Biz artıq danışıqları Ermənistanın sahibləri ilə aparmalıyıq. Minsk Qrupu Azərbaycanla Rusiya arasında vasitəçilik etməlidir" - söyləyib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da hesab edir ki, Rusiya təhlükəli qonşudur və belə bir dövlətlə normal münasibətlərin davamına çalışılmalıdır:** "Ancaq bu, o demək deyil ki, rəsmilərimiz Rusiyanı tənqid etməməli, heç olmasa yumşaq şəkildə "Rusiya işğalçı ölkədə "İsgəndər" raketlərini yerləşdirməklə, Ermənistanla birgə qoşun birlikləri yaratmaqla Dağlıq Qarabağ münaqişəsinin həllində tərəfsizliyinə kölgə salır" ifadəsini səsləndirməməlidirlər. Əgər rəsmilər bunu deyə bilmirlərsə, bu tip fikirlər heç olmasa parlamentdə səslənməlidir. Ona görə də millət vəkillərindən Qüdrət Həsənquliyev və Fazil Mustafanın Milli Məclisin iclasında Rusiyanın siyasətini tənqid etməsi yerində idi. Həqiqətən gur səslə deyilməlidir ki, Ermənistanla hərbi müttəfiqliyini daha da dərinləşdirən Rusiya ilə münasibətlərə yenidən baxılmalıdır. Rusiya Ermənistana hərbi dəstəyini artırmaqla Dağlıq Qarabağ münaqişəsinin həllindəki tərəfsizliyinə kölgə salır. Ona görə də deputatların tələbi haqlıdır". **Ekspertin fikrincə, bu cür tənqidlər daima səslənməlidir ki, Azərbaycanda Rusiyanın regional siyasətindən ciddi narazılığın olduğunu Moskvada anlasınlar:** "Bugünlərdə deyildi ki, Azərbaycanda 90 min şagird rus dilində təhsil alır. Ermənistan Rusiyanın hərbi siyasi müttəfiqidir, ancaq rus dilində təhsil Azərbaycanda olduğu həcmdə deyil. Bunun əvəzinə isə şimal qonşumuz Ermənistanda bundan dəfələrlə az rus dilində təhsil alan topluma dəstək verir. Rusiya Ermənistana hərbi dəstək verməsə, Dağlıq Qarabağ münaqişəsi çoxdan həll olunmuş və Ermənistan da Azərbaycanın şərtlərini qəbul etmişdi. Ermənistan nəyə görə "İsgəndər" raketlərinə görə Rusiyaya yalvardı və ya Rusiya birgə hərbi birliklər yaratdı? Çünki bilir ki, təkbaşına Azərbaycanın təzyiqlərinə tab gətirməyəcək. Ermənistan prezidenti açıq etiraf etdi ki, ölkəsinin silah almağa pulu yoxdur və silahlanmada Azərbaycanla ayaqlaşa bilmir. Biz elə etməliyik ki, Ermənistan daima Rusiyadan silah və sursat yalvarsın. Elə bir gün gəlməlidir ki, Rusiya Ermənistana silah və sursat göndərməkdən yorulmalıdır. Çünki nə qədər ki, torpaqlarımız işğal altındadır, Azərbaycan hər il silah alışına milyardlarla dollar xərcləyəcək. Müharibə başlamasa belə, biz silahlanmanın həcmi ilə daima Ermənistanı qorxu içində saxlamalıyıq. Rusiyaya da aydın olmalıdır ki, bu silahlar kazarmalarda yerləşdirilmək üçün alınmır".

**Politoloq Elçin Mirzəbəyli isə bildirdi ki, Rusiyanın Ermənistanla hərbi-siyasi müttəfiqliyi möhkəmləndirmək istiqamətində atdığı son addımlar Kremlin Cənubi Qafqaz siyasətində prioritetlərinin dəyişmədiyini göstərir:** "Moskva indiki halda regionda mövcud olan vəziyyətdən, Türkiyə-Qərb münasibətlərində yaranmış gərginlikdən, iqtisadi problemlərin gətirdiyi sıxıntılardan maksimum dərəcədə yararlanmağa, təkcə Cənubi Qafqazı deyil, daha böyük ərazini öz təsir dairəsində saxlamağa çalışır. Rusiya təkcə regionu təsir dairəsində saxlamağa cəhd göstərmir, həm də həyata keçirilən və keçirilməsi nəzərdə tutulan bütün enerji layihələrinə sahiblənmək, nəqliyyat dəhlizlərini əlinə almaq istəyir. Bu baxımdan da Moskvadan ədalətli mövqe gözləmək sadəlöhvlükdür. Bütün dövrlərdə olduğu kimi, indi də Rusiyaya inanmaq olmaz. Etibar etmək isə heç olmaz". **E.Mirzəbəyli şübhə etmir ki, Kreml getdikcə ətrafımızdakı həlqəni daha da daraltmağa, region dövlətlərini qarşı-qarşıya qoymağa çalışacaq:** "Rusların ən yaxşı işi müharibədir. Bu ölkə müharibə meydanında sındırılmayanadək ağlı başına gəlməyəcək. Bu baxımdan, Rusiyanın Azərbaycana olan münasibətini dəyişmək kimi bütün faydasız fəaliyyətə son qoyulmalıdır. Bütün bunlara vaxt və resurs sərf etməyin heç bir mənası yoxdur. Rusiya elə bir dövlətdir ki, aldıqlarının müqabilində heç nə vermək istəmir. 9 may sindromu rus xalqının düşüncəsinə hakim kəsilib. Onlar özlərini bəşəriyyətin xilaskarı kimi görürlər və elə hesab edirlər ki, bütün dünya onlara borcludur. Rusiyanın vasitəçi olduğuna özümüzü inandırmaqdan da əl çəkməliyik. Bu vasitəçi ilə - maskalı işğalçı ilə "tənzimləmə" oyunu nə zamansa bitməliydi. Zənnimcə, biz artıq qırılma nöqtəsinə gəlib çatmışıq".

Məsələ burasındadır ki, Rusiyanın Azərbaycana qarşı təzyiqləri Moskva-Ankara münasibətlərindəki əlaqələrin yaxşılaşdığı dövrdə baş verir. Hansı ki, rəsmi Bakı ümid edirdi ki, bu iki böyük qonşusunun münasibətlərindəki problemlər aradan qalxsa, bu, Qarabağ məsələsinin ədalətli həllinə də kömək edər. Ancaq Azərbaycan hakimiyyəti rəsmən etiraf olunduğu kimi, qonşuları arasında ötən ildən sonra müşahidə olunan "soyuq müharibə"nin aradan qaldırılmasında vasitəçi olsa da, indi şimal qonşusundan zərbələr almaqda davam edir.

**"Nə qədər qəribə səslənsə də, mən şəxsən inanmıram ki, Rusiya-Türkiyə yaxınlaşması bizə Qarabağ probleminin tezliklə həll olunmasında köməklik göstərsin. Nəzəri baxımdan hər şey mümkündür. Amma praktiki baxımdan isə bu mümkünsüzdür". Bu fikirləri qəzetimizə hərbi ekspert Üzeyir Cəfərov söylədi. Ekspertin fikrincə, onsuz da bir qədər yuxarıda məhz Rusiyanın region üçün başdan-ayağa problemli ölkə olan Ermənistanla sıx münasibətləri imkan vermir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olunsun:** "Əksinə, bəzi pessimist təhlillər də var ki, mən onları bölüşürəm. Əgər indiyə kimi biz ərazi bütövlüyümüzlə bağlı hər hansı bir addım atmağa başlasaydıq, yəqin ki, qardaş Türkiyədən haqlı olduğumuza görə dəstək almış olardıq. İndiki şərtlər çərçivəsində isə bu məsələnin praktiki cəhətdən reallaşmasının qarşısını ala biləcək xeyli məqamlar sadalamaq olar ki, onlardan da ən əsası Rusiya-Türkiyə münasibətlərinin son vaxtlar sürətlə genişlənməsi faktorudur. Bu isə heç də Azərbaycanın maraqlarına cavab verən hal sayıla bilməz".

**Artıq Ermənistan və Rusiya arasında birgə hərbi birləşmələrlə bağlı konkret addımlar atılmaqdadır. Bu isə Azərbaycanı seçim etmək məcburiyyətində qoyur. Ü.Cəfərova görə, belə vəziyyət nəinki hərb yolunu istisna edir, əksinə, aprel döyüşlərinin növbəti dəfə daha dəhşətli formada təkrar olunması riskini artırır:** "Biz düşünürdük ki, Minsk Qrupu, başda Rusiya, Amerika və Fransa olmaqla, aprelin əvvəllərində qoşunların təmas xəttində yaranmış gərginlikdən sonra nəhayət ki, Ermənistanı qarşılarında oturdub başa salacaqlar ki, yetər və bəsdir. Amma gördüyümüz əks mənzərə isə onu deməyə əsas verir ki, həm düşmən, həm də ona havadarlıq edən güclər, sadəcə, növbəti hiyləgər oyun oynayırlar. Onların nə Azərbaycanın təbii haqqı olan ərazi bütövlüyümüzlə bağlı ciddi fikirləri var, nə də hər hansı həvəsi. Ona görə də əgər bu dəfə apreldə yaşananlar təkrar baş verərsə, loru dillə desək, "qan su yerinə axacaq". Tərəflər kifayət qədər ciddi və ağır silahları bütün cəbhə boyu yerləşdiriblər və istənilən an savaş bu dəfə apreldəki toqquşmalardan daha faciəli və çoxsaylı insan itkisi ilə müşaiyət olunacaq hadisələrlə alovlana bilər. Və böyük ehtimalla, yəqin ki, yaxın vaxtlarda biz vəziyyətin daha da ağırlaşdığının şahidi olacağıq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Rus generalı Bakıda necə qətlə yetirdilər - Həmid Herisçinin tarixi araşdırması

## 18-ci əsrin əvvəllərində düşməni uzaq məsafədən gizli və öldürücü silahla, vudu ayini ilə məhv etməyin yollarını Bakıda bilənlər varmış

**19-cu əsrin əvvəllərində Çar Rusiyasının ikiyüzminlik nəhəng ordusu Qafqaz dağlarını aşaraq Azərbaycan ərazisinə daxil olur. Qacar sülaləsinin, xanlıqların azsaylı, nizamsız ordu hissələri, bu nəhəng dəmir axarın qarşısında tablamayıb, geriyə çəkilməyə başlayır. Knyaz Pavel Sisianovun rəhbərliyi ilə rus ordu hissələri tezliklə Gəncə, Şamaxı xanlıqlarının müqavimətlərini qırıb, Bakıya yaxınlaşırlar. Qacar sarayını həyəcan bürüyür.**



Hamı səsini içinə salaraq Fətəli Şahla Abbas Mirzə Qacarın cavab olaraq nə edəcəyini gözləyir. Bu vaxt dərvişlər, qələndərlər, kəşfü-kəramət sahibləri də saray divarları arasında görünürlər. Pıçhapıç, şayiələr ətrafı bürüyür. Qacar dövləti, ruslara, knyaz Pavel Sisianova qarşı ən məxfi, ən öldürücü, mükəmməl gizli silahı işlətmək qərarını verir. Qapılar açılır, örtülür. Pərdələr yuxarı çəkilir. Öz dövrünün ən mükəmməl məxfi silahı istifadə üçün aşkara çıxarılır. Zaman gözləmək bilmir, müharibə kabusu hamını tələsdirir. Qacar sarayı sükuta dalıb yeni silahdan xoş xəbərlər, müsbət nəticələr gözləyir.

***

Gürcü əsilli çar generalı Pavel Sisianov ona qarşı işlədiləcək öldürücü məxfi silahdan tam məlumatsız idi. Məlumatı olsaydı, bəlkə də özünü yığışdırar, həmvətənlərimizi bu qədər amansızlıqla qətlə yetirməzdi. Ancaq hələlik o, bu silahdan xəbərsizdir. Şirvan çölündə Bakıya doğru irəliləyir. Hardan bilsin ki, bu onun son səfəri olacaq və tarix onu öz salnamələrinə Bakı fatehi kimi qeydə almayacaqdır.

### Qısa məlumat

**Pavel Dmitriyeviç Sisianov** - gürcü əsilli rus generalı, Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı. 1806-cı ildə Bakı yaxınlığında sui-qəsd nəticəsində öldürülüb. Pavel Sisianov 1754-cü ildə, 9 və ya 20 sentyabr tarixində Rusiya İmperiyasının Moskva şəhərində məskunlaşmış gürcü ailəsində anadan olub. 1796-cı ildə o, imperatriça Yekaterinanın razılığını alıb qraf Zubovun başçılığı altında Cənubi Qafqazın işğalı üçün yola düşür. 1797-ci ildə istefaya çıxır, lakin çar I Aleksandrın hakimiyyəti dövründə yenidən xidmətə daxil olur. 1802-ci ildə Həştərxanın hərbi qubernatoru, az sonra Rusiya Qafqaz piyada qoşunun inspektoru təyin edilir. 1803-cü ildə Rusiyanın tərəfinə keçmiş etnik gürcülərdən təşkil olunmuş 4500 nəfərlik könüllü qoşunla Tiflisə hücum edir. Gürcüstanı ələ keçirdikdən sonra fəaliyyətini Azərbaycan ərazisinə keçirir. 1804-cü ildə Gəncə xanlığını işğal edir və Cavad xanı qətlə yetirir. Bu işğala görə ona piyada generalı rütbəsi verilir. Sisianov bir neçə Azərbaycan xanlığını işğal edib. Onların arasında Gəncə, Şamaxı, Şəki və Qarabağ xanlıqları var.

***

O gərgin günlərdə, Qacar şahı Fətəli şah, vəliəhd Abbas Mirzə hadisələrin faciəli axarını önləmək qərarına gələrək saraya məşhur kəşfü-kəramət sahibi, Şeyx Mirzə Məhəmməd Əxbarini dəvət edirlər. Sisianov ordusuna qarşı işlədiləcək möcüzəli silahın ixtiyarı indi onda idi. Tariximizə qızıl hərflərlə yazılacaq bu epizoda xalq yazıçısı Elçin özünün son "Baş" romanında müraciət edib. Romanın əsas süjet xəttini bu sirli, izahsız hadisə üzərində qurub. Tənqidçi Əsəd Cahangir roman haqda görün bir nə deyir: **""Baş"ın fabulasında gürcü mənşəli rus generalı Sisianovun Bakının qoşa qala qapıları önündə öldürülməsi, sonra başının kəsilib Qacar şahı Fətəliyə ərmağan göndərilməsi ilə bağlı məşhur tarixi olay durur".**

***

Beləliklə, Qacar hökmdarları düşmənə qarşı ən amansız, məxfi silahlarını işə salırlar. Şeyx Mirzə Məhəmməd Əxbari, Şah Əbdüləzim məscidindəki bir çiləxanaya çəkilir. Sisianovun mumdan kiçik heykəlini yapır. Sonra bu heykəlin başını bədənindən ayırır. Bütün bunlar indi dünyada məşhur olan vudu mistikasını yada salır. Uzaq məsafələrdəki hədəfləri qətlə yetirmək baxımından bu mistik cərəyanın indi də dünyada əvəzi yoxdur. Dünya kinematoqrafı vudu ayinlərini, yəni hədəfi uzaqdan-uzağa məhv etmək hünərini dəfələrlə özünə mövzu seçib. Belə filmlərdən ən dəyərlisi məşhur rejissor Alan Parkerin "Mələyin ürəyi" ("Angel Heart") kinofilmidir. Qanlı vudu ayinlərinin burdakı təsvirlərini diqqətlə nəzərdən keçirin. Vaxtilə Mirzə Məhəmməd Əxbari də məhz bu cür oxşar ayinlər həyata keçirib axı.

***

Adına "əməl" deyilən ayinlərin çiləxanadakı icrası axır öz işini görür. Tarixi salnamələr baş vermiş möcüzə barədə müxtəlif ziddiyyətli fikirlər söyləyirlər. Ancaq baş vermiş möcüzənin miqyası indi də hamını təəccübləndirir. Yaxşı, nə baş verib o zaman Qoşa qala qapıları önündə? Niyə iyirmi minlik rus ordusu qəfil çaşıb bu zaman? Bayraqlarını, toplarını ataraq Bakı qalası önündən qaçıb gedib? Hansı dəhşət, hansı faciə onları bu hərəkətə sövq edib axı?

Unutmayın, Şeyx Mirzə Məhəmməd Əxbari knyaz Sisianovun qətlində xəncər, bıçaqdan deyil...yox...çiləxana fenomenindən istifadə edib yalnız. Yaxşı, "çiləxana" nədir belə? Doğrudanmı çiləxana vasitəsilə uzaq məsafələrdəki hədəfləri dağıtmaq, qətlə yetirmək mümkündü?

***

Müasir bioloji insan çoxdan tükənib. Bunu ilk dəfə hələ qədim Şərq sufiləri hiss ediblər. Qərara gəliblər yeni insan modelini yaratsınlar. Təcrübələr üçün adına "çiləxana" deyilən tam qapalı, qaranlıq ünvanlardan istifadə edilib. Yeni məzmun qazanmaq, yenilənmək naminə dərvişlərimiz bu cür çiləxanalarda əvvəl 3, sonra 7, 12, 40 gün tək-tanha qalaraq çilə çıxarıblar. Müasir elm, məşhur qerantoloq Vladimir Xavinsonun araşdırmaları əsasında sübut edir ki, burda təəccüblü, uydurma heç nə yoxdur. Uzun zaman qaranlıq, qapalı ərazidə qalsan, beynində melotonin maddəsinin ifrazı artacaq. Nəticədə beyindəki passiv bir üzv-bəsirət gözü, yəni "epifiz" aktivləşəcək. Bu yolda ilk sufi təcrübələrini əvvəlcə Azərbaycan alimi Şahabəddin Sührəvərdi aparıb. Onun "Həyakil ən-nur" (İşıq hekayələri) əsərində bu təcrübənin canlı, mistik praktikası öz əksini tapır. Sufilərdə belə elmə "hikmətül- işrak" da deyilir. Sonralar bu dəyərli təcrübənin təleyi, belə deyək "keçici bayrağı", keçir məşhur Xarəzm mistiki Nəcməddin Kübranın ixtiyarına. Onun "Fəvatüh əl- camal və fəvatüh əl-cəlal" əsərində çiləxana təcrübəsi özünün ən yüksək pilləsinə qalxır. Daha sonralar bu mistik təcrübə yenidən Azərbaycana qayıdır. Xəlvətiyyə təriqətinin simasında Şirvanşahların bir növ dövlət ideologiyasına çevrilir. "Sədəni namazın xəlvətiyyəsi" bilən işraqiyyə dərvişlərindən bizə çatan miras Şirvan, Bakı ərazilərindəki qədim çiləxanalardır.

Xəlvətiyyənin ikinci şeyxi sayılan Seyid Yəhya Bakuvinin məzarı, çiləxanası indi Bakıda, Şirvanşahlar ərazisində yerləşir. Şeyxin "Virdü-Səttar", "Şifaül-əsrar", "Kəşfül-qülub" kimi çox saylı əsərlərini öyrənmədən çiləxana fenomenini indi anlamaq mümkün deyil.

***



Çiləxanalar adətən bir deyil, qoşa olur. Müridlərdən biri tutaq ki, Qumdakı Şah Əbdüləzim çiləxanasında oturur, digəri misalçün, İçərişəhərdəki Şeyx Yəhya Bakuvi çiləxanasında. İki mürid arasında telepatik əlaqə quruldumu, vəssalam, əməliyyat demək artıq hazırdı.

Şeyx Mirzə Məhəmməd Əxbari, məncə, Sisianovu qətlə yetirərkən oxşar "psitexnologiya"lardan istifadə edib. Əyləşdiyi çiləxanadan Bakıya, Şeyx Yəhya Bakuvi çiləxanasında oturmuş mürüdünə telepatik əmr və güc göndərib.

***

Bax bu andan etibarən əməliyyatın ikinci hissəsi start götürür. Telepatik gücü alan mürid əvvəlcə öz ətrafında "enerji fırtınası" yaradır. Bu zaman o, gərək havada salto vura-vura öz qurbanına doğru elə sürət götürsün ki, day ayaqları bir də yerə dəyməsin. Unutmayın, bu, çox vacib bir şərtdi. Çünki ayağını yerdən üzüb havada salto vuran müridin bədəni bu zaman "enerji fırtınası" faktını qazanır. Sonrakı bircə həmləsi ilə qurbanını özü ilə cəhənnəmə dartıb aparır.



***

Sisianovun qətlində özünü doğruldan bu cür psixotexnologiyalardan sonralar Qafqaz qazavatı zamanı daha da geniş istifadə olunur. Xəlvətiyyə təriqəti üzvləri Şeyx Şamillə Qazi Məhəmmədin bu sahədəki təcrübəsi tarixi salnamələrində də özünə yer tapıb. *(Çiçiqov, "Şamil Qafqazda və Rusiyada" kitabından, Sankt Peterburq, 1889, səh. 23).*

Mənbəyə görə, çiləxanaya çəkilmiş xəlvətiyyə müridləri əvvəlcə öz aralarında telepatik əlaqə qurmalıymışlar. Əlaqə qurulduмu, vəssalam, artıq Allah-təalayla irtibata keçib ondan ilahi güc almaq olarmış. Ötən əsrin əvvəllərində Dağıstandakı Axtı çiləxanasına çəkilmiş Şamillə Qazi Məhəmməd bir də gözlərini açıb görürlər ki, dörd tərəfdən rusların mühasirəsindədirlər.

**Burda sözü verək tarixi salnamələrə: Qazi Məhəmməd Şamilə dedi: Burda qalsaq, hamımızı qıracaqlar. Biz də düşmənə ziyan vurmadan tələf olacağıq. Yaxşısı budur, eşiyə çıxaq, mühasirəni yarmağa cəhd göstərək, şəhid olaq. Bu sözləri deyən kimi Qazi Məhəmməd papağını gözləri üstə çəkdi, qapıdan eşiyə sıçradı. Qapını kəsmiş rus əsgəri daşla onu peysərindən vurdu. Qazi Məhəmməd yerə sərilən kimi əsgərlər onu süngü ilə deşik-deşik etdilər.**

**Növbə gəlir çatır Şamilə:**

**"Qapını kəsmiş iki rus əsgəri tüfənglərini atəşə hazır vəziyyətdə irəli uzatmışdılar. Şamil bircə göz qırpımında qapıdan irəli sıçradı, havada mayallaq aşaraq əsgərlərin arxasında yerə enməyi bacardı. Əsgərlər arxaya dönməyə vaxt tapmamış Şamil onların ikisini də xəncəri ilə param-parça etdi. Qaçmağa cəhd göstərən üçüncü əsgəri Şamil bir an təqib edib qılıncıyla yerə sərdi. Bu vaxt dördüncü əsgər tüfənginin süngüsünü Şamilin sinəsinə sancdı. Süngünün ucu Şamilin kürəyindən eşiyə çıxdı. Ancaq bu, sanki Şamilə təsir etmədi. O, sağ əlinin bircə cəld hərəkəti ilə süngünü sinəsindən çıxardı. Solaxaylığından istifadə edərək gözlənilmədən dördüncü əsgəri də xəncəri ilə doğradı. Sonra başladı qılıncıyla sağa-sola saysız zərbələr endirməyə. Əsgərlər psixoloji cəhətdən artıq özlərini itirmişdilər. Şamilin şücaətini görüb, yerlərində lal-dinməz dayanmışdılar. Əsgərlər Şamili dörd tərəfdən əhatəyə alsalar da atəş açmağa ehtiyatlanırdılar. Qorxurdular açılan güllələr özünkülərinə dəysin. Bu da Şamili labüd ölümdən qurtardı.** *(Çiçiqov, "Şamil Qafqazda və Rusiyada" kitabından, Sank Peterburq, 1889, səh. 23.)*

***

Oxşar fenomenal möcüzə 1806-cı ilin 8 fevral tarixində Bakının Qoşa Qapı darvazası önündə də yaşanılıb, məncə. Seyid Yəhya Bakuvi çiləxanasında oturmuş xəlvətiyyə müridi, çiləsinin 38-ci günü, qəfil Şeyx Əxbaridən öz ünvanına göndərilmiş telepatik mesaj alıb, sakitcə öz yerini tərk edir. Damların üstüylə atıla-atıla, havada salto vura-vura şığıyır ey aşağıdakı Sisianovun üzərinə.

Sonra, Şekspir demiş, araya sükut çökür. İyirmi minlik rus ordusu bayraqlarını, toplarını Qoşa Qapı darvazası önündə yerə ataraq dabanına tüpürüb qaçır ey düz Həştərxana qədər. Sonrakı səkkiz ay ərzində Qafqazdakı bütün kənd-obalar üsyana qalxıb rus işğalçılarını ölkəmizdən çıxarırlar.

Yazıçı Elçinin "Baş" romanındakı oxşar epizodlar barədə tənqidçi Əsəd Cahangir görün bir nə deyir: **"Knyazın cahangirlik ideallarının sonucu isə o olur ki, qəssab Balarza onun başını öz ət kötüyünün üstündə kəsəndən sonra "Həyif ondan! Yaxçi kötük idi, zay oldu!" deyir. Qəssabın zahirən bayağı səslənən, amma altında bir kitablıq mətləb gizlənən sözlərindən sonra dünyanın faniliyi, cahangirlik iddiasının absurdluğunu əks etdirən bir lövhə gəlir: "Kötük isə eləcə Qoşa Qala Qapısının qabağında qaldı və bir müddətdən sonra o qış çağı hardansa bir qarğa uçub kötüyün üstünə qonaraq, knyaz Sisianovun boğazından axıb kötüyün üstündə laxtalanmış qanı dimdikləməyə başladı..."**



***

Kəramət sahibi Şeyx Mirzə Məhəmməd Əxbari isə bu əməlindən sonra Qacar sarayının qəzəbinə tuş gəlir. Kimsə Fətəli şah Qacarın qulağını doldurur ki, bəs Sisianovu cəhənnəmə göndərən bu şeyx, kim bilir, bir gün oxşar əməllə səni də gəbərdə bilər. Fətəli xanın növbəti fərmanıyla Şeyx Əxbari saraydan uzaqlaşdırılaraq uzaq Sistana sürgün edilir. Deyilənə görə, şah casusları onu yuxudaykən izləməkdən belə çəkinməyirmişlər.

***

Oxşar psixotexnologiyalardan Avropada indi "parkur" adlı idman növündə geniş istifadə olunur. Mayallaq aşa-aşa, havada salto vura-vura parkurçular öz ətraflarında xüsusi ilahi enerji fırtınası yaradır, sonra bu fırtınanı öz bədənlərinə hopdururlar. Fırtanın düz mərkəzində qərar tutunca misilsiz möcüzələr etməyə başlayırlar. Ağaclar, divarlar, damlar, məhəccərlər, sürahilər parkurda manea sayılmır-əksinə, tramplin rolunu oynayır. Parkur fanatları "treyser" adlanır. Onlar düzgün qidalanmalı, ruh və bədən arasında müvazimət yaratmalıdırlar. Uçmaq, qanadlanmaq, yaxud Sisianov kimi bir başqa zalımı qətlə yetirmək də yalnız bu hallarda mümkün olur.

Bax: https://www.youtube.com/watch?v=BHQEGOw-5ED8 ttps://www.youtube.com/watch?v=BHQEGOw-5ED8

**Qiymət artımı ilə bağlı yenidən gözlər müxalifətə dikilib. İndiyə qədər zaman-zaman bu tipli hallar olanda siyasi düşərgə öz etirazını müxtəlif yollarla ifadə edib. Zəif olsa da mitinqlər keçiriblər. Amma indi fərqli situasiya yaşanır. Tarif Şurasının qərarının üstündən günlər ötsə də, müxalifət yalnız sosial şəbəkələrdə və bəyanatlarla mövqe ifadə edirlər.**

# Müxalifət qiymət artımı ilə bağlı toplanır - aksiyalar olacaqmı?









### İqbal Ağazadə: "Atılacaq addımlar müzakirə ediləcək"

### Tural Abbaslı: "Müxalifət vəziyyətdən istifadə etməyə çalışmalıdır"

### Əli Əliyev: "İlk növbədə xalqdan reaksiya olmalıdır"

### Elman Fəttah: "İlkin müzakirələr gedir"

**Ümid Partiyasının sədri İqbal Ağazadə şənbə günü ADP qərargahında qiymət artımını müzakirə edəcəklərini söylədi:** "Sərdar bəy məni dəvət etdi. Şənbə günü ADP qərargahında bu məsələni müzakirə edəcəyik. Ondan sonra biləcəyik ki, onların mövqeləri necədir. Hər halda, biz qiymət artımının əleyhinəyik. Mövqeyimizi bu şəkildə də ifadə edirik. Atılacaq addımları isə ümumi müxalifət düşərgəsində müzakirə edəcəyik. Tədbir sırf qiymət artımı ilə bağlı olacaq".

**AĞ Partiya başqanı Tural Abbaslı bildirdi ki, bütün dünyada müxalifət bu cür hallardan istifadə edib öz mövqelərini gücləndirir:** "İqtidar heç bir əsas olmadan qiymətləri artırıb. Xalq arasında passiv etiraz var. Düşünürəm ki, müxalifət bu durumdan istifadə etməyə çalışmalıdır. Amma siyasi partiyalar xalq arasında nüfuzlarını itirdikləri üçün belə vəziyyətlərdən istifadə edə bilmirlər. Müxalifətin ağıllı addımlarından biri o olardı ki, - 17 noyabrda Milli Dirçəliş Günü ilə bağlı tədbirdə mən bu təşəbbüsü irəli sürdüm - birgə mitinq keçirsinlər. Bu mitinqdə özlərini müxalifət adlandıran bütün simalar iştirak etməlidir. Birlikdə xalqa olunan müraciət bəlkə də xalqın müxalifətə olan inamını geri qaytarar. Yeganə çıxış yolu budur. Amma təəssüflər olsun ki, uzun illərdir müxalifətin bir araya gəlmədiyinin şahidi olmuşuq. 17 noyabrda birgə mitinq təklifimi verəndə bir müxalifət partiyasının liderindən belə səs çıxmadı. Ölməmiş ayının dərisini bölmək davası gedir. Sanki hakimiyyətə gəliblər, vəzifə savaşı aparırlar. Bundan əvvəlki qiymət artımında müxalifət ayrı-ayrılıqda aksiya təyin etdi. Xalq bunları yaxşı görür və inanmamaqda haqlıdır. Xalq böyük problemlərin fonunda cılız intriqalara biganə qalmır. Sentyabr ayında keçirilən birinci mitinqə kifayət qədər etirazçı qatıldı, lakin 2 və 3-cü mitinqlərdə iştirakçılar azaldı. Çünki xalq gördü ki, müxalifət onları problemləri ilə bağlı mitinqə dəvət etmir, öz güclərini bir-birilərinin üzərində sübut etmək istəyirlər. Müxalifətdə kimin lider olması uğrunda mübarizə gedir. Bu nüanslar aradan qalxmayınca, hakimiyyət istədiyini edəcək".

**VİP sədri Əli Əliyev hesab edir ki, ilk növbədə xalqdan reaksiya olmalıdır:** "Müxalifət xalqın təşkilatlanmış hissəsidir. Müxalifət təbii ki reaksiya verəcək. Noyabrın 29-da 7 partiyanın iştirakı ilə tədbir keçirildi. Partiyalar adından bəyanat qəbul edildi. Bizə edilən müraciət əsasında şənbə günü ADP qərargahında tədbir olacaq. Təxminən Antiböhran Koalisiyası daxilindəki partiyaların verdiyi qərardır. Cəmiyyəti düzgün məlumatlandırmaq lazımdır ki, bu təkcə müxalifətin vəzifəsi deyil. Haqq dünyanın heç bir yerində vətəndaşlara verilmir, haqq alınır. Ayda 300 min manat xərcləyən bir nazir bu hökumətin nümayəndəsi idi. Öz üzərimizə düşən vəzifəsini yerinə yetiririk. Amma bu yetmir, xalqın fəallaşması lazımdır. Xalqla müxalifətin birləşməsi indiki şəraitdə çox vacibdir. Dünyanın heç bir yerində ədalətli cəmiyyəti müxalifət qurmayıb".

**Müsavat başqanının müavini Elman Fəttah mitinq müzakirələrinin getdiyini bildirdi:** "İlkin müzakirələr gedir. Qərar olarsa, ictimaiyyətə açıqlanacaq".

❑ **Cavanşir ABBASLI**

# Binəqədidə evləri ucuz qiymətləndirib narazılıq yaradan gizli şirkət...

## Dövlət qurumları "qiymətləndirmə şirkəti"nin adını və kimə məxsus olduğunu niyə açıqlamır?

**Noyabrın 28-də Xocahəsən qəsəbəsi, "Motodrom" adlanan ərazidəki yaşayış massivinin sakinləri növbəti dəfə etiraz aksiyası keçiriblər. Aksiyaya səbəb evlərinin sökülməsi müqabilində onlara veriləcək kompensasiyanın az olmasıdır.**



Belə ki, metronun "Avtovağzal" stansiyasının depo ərazisinə düşən 65 evin sökülməsi nəzərdə tutulub. Həmin evlərin sakinləri isə onlara veriləcək kompensasiyanın azlığından şikayətçidirlər.

Bununla yanaşı, ölçü və kompensasiya işlərini aparan qiymətləndirmə şirkətinin fəaliyyəti də sakinlərin narazılığına səbəb olub. Evləri plana düşən vətəndaşlar iddia edirlər ki, həmin qiymətləndirmə şirkəti mənzillərin hər kvadratmetrini 360-500 manatdan hesablayırlar. Ölçü işlərini isə düzgün aparmırlar. Həmin şirkət özəl olsa da, Maliyyə Nazirliyi tərəfindən təyin olunduğunu bildirənlər az deyil.

"Qiymətləndirmə şirkəti bir neçə aydır ki, iş aparsa da, ancaq nümayəndələrini tanımırıq. Axı bu özəl şirkətin başında kim dayanır? Özbaşına qiymətləndirmə aparır, camaatı etiraza qaldırır. Min bir əziyyətlə ev tikmişik, dünən yaranan bir özəl şirkət evimizə ağlından keçən qiyməti verir. Kompensasiyanı iki dəfədən aşağı hesablayırlar. Metropoliten bir tərəfdən, Binəqədi İcra Hakimiyyəti bir tərəfdən, Maliyyə Nazirliyi də susub, oturub. Dərdimizi bilmirik kimə deyək... Axı nə qədər yol kəsib, polislə mübahisə aparmaq olar".

**Adının çəkilməsini istəməyən "Motodrom" sakini metropoliten əməkdaşlarından ərazidə tikinti işlərinə nəzarət edənlərdən olan Zakir Məmmədovun həmin qiymətləndirmə şirkətinin nümayəndələrini tanıdığını öyrəndik və əlaqə nömrəsini əldə etdik. Özünü Perspektiv İnkişaf Departamentinin rəisi kimi təqdim edən Zakir Məmmədov musavat.com-a danışdı. Departament rəisi qiymətləndirmə şirkətinin adını dəqiqləşdirib, qısa zamanda məlumat verəcəyini bildirdi:** "Orada heç bir ailəni məcburi köçürmürlər. Kimin kompensasiyası verilibsə, həmin evlər söküllür. Təqribən 10 ev kompensasiya ilə razılaşıb, köçüblər. Həmin ərazi çox təhlükəlidir. Yerin altı bataqlıqdır. Hazırda yeraltı tunel həmin evlərin altında tikilir. Fövqəladə Hallar Nazirliyi də əraziyə baxış keçirib, sökülmə qərarı çıxarılıb. Orada tikilən evlərin çoxunun bünövrəsi olmadığından vəziyyəti daha da çətinləşdirir. Kompensasiya məsələsinə biz baxmırıq. Biz yalnız tunelin tikinti işlərini aparırıq. Hansı şirkət tərəfindən qiymətləndirmə aparılır dəqiqləşdirib, sizə məlumat verəcəyəm".

Qeyd edək ki, "Motodrom" sakinləri verilən kompensasiyaya etiraz olaraq noyabrın 28-də Milli Məclisdə olublar. Onları vitse-spiker Bahar Muradova və millət vəkili Çingiz Qənizadə qarşılayıb, sakinlərin problemlərini dinləyib. Onlara məsələ ilə bağlı aidiyyəti qurumlarla əlaqə saxlayacaqlarını və məsələni aydınlaşdıracaqlarını deyiblər.

**Məsələ ilə bağlı hüquqşünas Müzəffər Baxışın da fikirlərini aldıq. Hüquqşünası bildirdi ki, qiymətləndirmə şirkəti evin tikilməsinə sərf olunan məbləği bazar qiymətləri ilə hesablayıb məbləği müəyyənləşdirməlidir:** ""Motodrom" adlanan ərazidəki evlərin sənədləri yoxdur. Həmin evlərlə bağlı Nazirlər Kabinetinin 10 aprel 2012-ci il tarixli qərarı var. Bu qanunun tələbinə uyğun olaraq həmin evlərin tikintisinə nə qədər vəsait gedibsə kompensasiya hesablanır. Qiymətləndirmə şirkətinin adı niyə gizlin saxlanılır, o barədə heç nə deyə bilmərəm. Amma şirkət evin dəyərini real bazar qiyməti ilə hesablamadılar. Yəqin ki, şirkət bunu aşağı qiymətlərlə hesabladığından narazılığa səbəb olur. Tutaq ki, bazarda 200 min manata olan evə məbləğindən dəfələrlə aşağı kompensasiya ödəyirlər. Nəyə görə belə edirlər? Bu, artıq Milli Məclisin və yaxud yüksək dövlət orqanlarının səlahiyyətindədir. Bu barədə heç nə deyə bilmərəm".

Qeyd edək ki, qiymətləndirmə şirkəti haqda məlumatları dəqiqləşdirmək və kompensasiya məbləğinin az olmasının səbəbini öyrənmək üçün Maliyyə Nazirliyinə rəsmi sorğu ilə də müraciət etmişik. Nazirliyin mətbuat xidmətinin rəhbəri Mais Piriyev bu məsələni araşdıraraq məlumat verəcəyini bildirdi.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Məğrur MƏRD**




# Bahçeli Türk Birliyi təklif edir

## 300 milyonluq türk toplumlarının birlik imkanları çoxdurmu?

**Türkiyədə "Avropa Birliyi, yoxsa Şanxay Əməkdaşlıq Təşkilatı" müzakirələri davam etdiyi bir vaxtda daha bir alternativ təklif Milliyyətçi Hərəkat Partiyasından gəlib. MHP sədri Devlet Bahçeli deyib ki, Türkiyə nə AB, nə də ŞƏT-ə üzv olmamalıdır. O, Türkiyənin Azərbaycanla birləşməsini və Türk dünyası ilə birlik olmağı təklif edib. Sitat: "Türkük, türkçüyük, Turanın sevda və hədəfindəyik. Nə Avropa Birliyi, nə Şanxay Əməkdaşlıq Təşkilatı, biz deyirik ki, sonuna qədər Türk Birliyi! Niyə Azərbaycanla bir olmayaq? 300 milyonluq Türk Dünyasıyla niyə birlik olmayaq?"**

Qeyd edək ki, Türk Birliyi, Turan ideyası yeni deyil, ən son olaraq 100 il əvvəl Azərbaycandan da fikir adamları Türk xalqlarının birliyinin yaranmasını təklif ediblər. Sibir, Altay, Ural, Şimali Qafqaz regionlarında yaşayan onlarla türkdilli xalqlar, o cümlədən Azərbaycan, Orta Asiyada Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan kimi dövlətlər, eləcə də 1949-cu ilə qədər mövcud olmuş Sincan-Uyğun Respublikası Türk toplumlarının Sakit okean sahillərindən bugünkü İraq ərazilərinə qədər yayılma coğrafiyasıdır. Ancaq məlum olduğu kimi, Rusiyada bolşevik inqilabının baş verməsi, daha sonra SSRİ-nin yaranması böyük coğrafiyada siyasi türkçülük hərəkatının zəifləməsinə səbəb oldu. Bu oyanış yalnız SSRİ dağıldıqdan sonra, yəni 1991-ci ildə özünü büruzə verdi. SSRİ-nin dağılması ilə dünya xəritəsində birdən-birə 5 yeni türk respublikası peyda oldu. Həmin vaxt Türkiyə Cümhuriyyəti dövləti də yeni respublikalarda türkçülük fəaliyyətlərini dəstəklədi. Xüsusən də sovetlərin son illərində etnik münaqişə yaşamış, sovet hakimiyyətinə qarşı Milli-Azadlıq Mübarizəsi təşkil etmiş türk respublikalarında, xüsusən də Azərbaycanda Rusiyaya qarşı düşmən münasibətin fonunda milliyyətçilik inkişaf edirdi. İlk vaxtlarda SSRİ-yə olan ehtiyatlı münasibət səbəbindən məsafəli davransa da, sonradan Ankara müstəqil olmuş türk respublikalarında milliyyətçi fəaliyyətləri dəstəklədi. Türkoloji qurultayları təşkil olundu. Siyasi tərəflərlə yanaşı, dil, mədəniyyət, təhsil sahəsində əməkdaşlığın əsası qoyuldu. 1992-ci ildə ilk Türkoloji qurultay Antalyada keçirildi.

Bu fəaliyyət eyni zamanda 90-cı illərdə Yeltsin Rusiyasında da davam etdirildi. Ancaq 2000-ci ildə Putinin hakimiyyətə gəlməsindən sonra Rusiyada mərkəzləşdirmə siyasəti gücləndi. Nəticədə 90-cı illərin azadlıq ab-havasında türkçülük fəaliyyətlərinin genişləndiyi Rusiyanın türk federal subyektlərində məhdudiyyətlər əhəmiyyətli dərəcədə artdı, siyasi və mədəni idarəçilik Moskvaya daha güclü şəkildə bağlandı. Bu dövrdən sonra Türkiyənin özünün də Orta Asiya türk respublikaları ilə münasibətlərində müəyyən passivlik yarandı.

Bu sırada yalnız Azərbaycan istisna təşkil etdi. Azərbaycan Türkiyə ilə daha da yaxınlaşdı, mədəni, ədəbi, iqtisadi, ticarət və siyasi-diplomatik əlaqələr daha da gücləndi. Hətta bir dönəm iki ölkənin konfederasiyada birləşməsi təklifləri ortaya atıldı. Ancaq hər nə qədər ideoloji, tarixi və mədəni əsasları olsa da, Sakit okean - Sibir çöllərindən İraqa qədər yayılmış 300 milyonluq türk toplumlarının siyasi birliyi hələlik real deyil. İlk növbədə bu birliyin əsasını təşkil edəcək dil birliyi yaradılmayıb.

Eyni etnik və dil kökləri olsa da, türk toplumları arasında zamanla dil fərqi kəskinləşib. Bir sıra xalqların bir-birini başa düşməsi belə mümkün deyil. Bu səbəbdən də mütəxəssislər ilk olaraq mədəni əlaqələrin güclənməsi, dil birliyinin yaradılmasına çağırırlar. Əgər bu gün 6 türk respublikası prezidenti bir araya gələndə rus dilində danışırsa və ya tərcüməçiyə ehtiyac yaranırsa, deməli, ortada hələ mədəni birlik yoxdur. Bunun üçün mədəniyyət və elm sahəsində ciddi yol qət olunmalıdır. Siyasi birlik üçünsə hələlik danışmaq tezdir. Bu sahədə ən çox məsafə qət edən Türkiyə və Azərbaycandır ki, hazırda bu iki ölkə arasında bütün sahələrdə yaxın əməkdaşlıq mövcuddur.

❑ **KƏNAN**

# Bir gündə 3 özünəqəsd - biri özünü qatarın altına atdı, o biri yandırdı, digəri asdı



**Noyabrın 30-da saat 09:20 dəqiqədə bir kişi özünü "İçərişəhər"-"Həzi Aslanov" istiqamətində 13 saylı marşrut üzrə hərəkət edən qatarın altına atıb.**

Musavat.com-un verdiyi xəbərə görə, bu barədə Bakı Metropoliteninin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Nəsimi Paşayev sosial şəbəkədə məlumat yayıb.

Onun sözlərinə görə, özünü qatarın altına atan şəxs 1951-ci təvəllüdlü Nardaran sakini Əhmədov Nəsir Əlihüseyn oğludur: "Maşinistin sayıqlığı nəticəsində qatarı dərhal saxlamaq mümkün olub. Qatar dayandırılıb, xətdən gərginlik çıxarılıb və sərnişin qatarın altından götürülüb. Relslərin arasına düşdüyündən o, sağ qalıb, sağ topuğundan xəsarət alıb. Hadisənin başvermə səbəbləri araşdırılır. Qatarların hərəkət intervalında gecikmə yaranıb.

Masallı rayonunda isə qadın intihar edib. Bu barədə «Trend»ə Masallı Rayon Prokurorluğundan məlumat verilib.

Hadisə rayonun Təzəkənd kəndində qeydə alınıb. Kənd sakini, 1974-cü il təvəllüdlü Məcidova Günəş Təvəkkül qızı özünü yaşadığı evdə asaraq öldürüb. Faktla bağlı Masallı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Bakıda 37 yaşlı kişi isə özünü yandırıb.

Sabunçu Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Bakıxanov qəsəbəsi, Axundov küçəsi 10 ünvanında qeydə alınıb. Qəsəbə sakini, 37 yaşlı Fəzail Nəcəf oğlu Cəbrayılov üzərinə benzin tökərək od vurub. Hadisə yerində olan şəxslərin köməkliyi ilə alov söndürülüb və o, dərhal xəstəxanaya yerləşdirilib. Hazırda vəziyyəti ağır qiymətləndirilir.

İntihara cəhdin səbəbləri hələlik məlum deyil.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəliklərı**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## "Azerfon" müasir texnologiya həvəskarlarını "Nar" "BakuTel" stendinə dəvət edir

**"Nar" BakuTel-2016 22-ci beynəlxalq "Telekommunikasiya və informasiya texnologiyaları" sərgisində iştirak edir. Mobil operator hər il olduğu kimi bu il də özünün ən son yeniliklərini geniş ictimaiyyətin diqqətinə çatdırır.**

**Sərgi günlərində "Nar" stendinin ziyarətçiləri Azərbaycanda ilk dəfə olaraq ölkə coğrafiyasında virtual səyahət etmək imkanı verən və virtual reallıq texnologiyasına əsaslanan "Augmented Reality" interaktiv turunun birbaşa iştirakçısı olmaq fürsəti qazanırlar. Virtual reallıq texnologiyası əsasında hazırlanmış proqram təminatı bölgələrdə yaşayan Azərbaycan vətəndaşları üçün mobil operator tərəfindən xüsusi olaraq təqdim edilmiş yeni "Yerlim" tarifinin tanıdılması çərçivəsində hazırlanmışdır.**

**Qeyd edək ki, "Nar" operatoru BakuTel-2016 sərgisi çərçivəsində ilk yerli məzmuna əsaslanan və yerli şirkət tərəfindən ərsəyə gətirilən virtual reallıq texnologiyasını təqdim edib. İstifadəçilər xüsusi avadanlıq vasitəsilə Azərbaycanın bölgələrinə virtual səyahət edə bilirlər. Görüntü üçölçülü olmaqla yanaşı, həm də 360 dərəcəlik baxış imkanı yaradır. Üstəlik, istifadəçilər sadəcə şəkil deyil, həm də interaktiv səyahətin iştirakçısına çevrilirlər. Bölgələrə virtual səyahət edən qonaqlara "Nar" tərəfindən xüsusi olaraq Azərbaycanın müxtəlif bölgələri üçün yaradılan və abunəçilərə yaşadıqları bölgələrdə dəqiqəsi cəmi 1 qəpiyə danışmaq imkanı verən "Yerlim" tariflər toplusu barədə məlumat verilir.**

**Bundan əlavə, "Nar" stendinin ziyarətçiləri müxtəlif interaktiv əyləncəli oyun və yarışların iştirakçısı olurlar. Bu müsabiqələrin qalibləri müxtəlif dəyərli hədiyyələrlə mükafatlandırılırlar.**

**Xatırladaq ki, Bakı Ekspo Mərkəzində keçirilən BakuTel-2016 sərgisində iştirak edən "Nar" sərgi müddətində müasir rabitə tələblərinin vahid ödəniş üzərindən təqdim edilməsini nəzərdə tutan tamamilə yeni "Qutu" məhsulunu, yüksəksürətli məlumat mübadiləsini təmin edən LTE-A (LTE-Advanced) şəbəkəsini, "Augmented Reality" virtual reallıq texnologiyasını və digər yeniliklərini təqdim edir. "Nar" müasir texnologiyalara biganə olmayan hər bir kəsi özünün «BakuTel» stendinə dəvət edir.**

## İki qadın dəm qazından boğuldu

**Dəm qazı daha iki nəfərin həyatına son qoyub. Hadisələr rayonun Rəsulzadə qəsəbəsində qeydə alınıb. Binəqədi Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, Qəsəbə sakini, 1966-cı il təvəllüdlü Mehparə Məzahir qızı Əliyeva yaşadığı evdə dəm qazından boğularaq ölüb.**

Bakıda digər dəm qazından boğulma Biləcəridə baş verib.

Binəqədi Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, qəsəbə sakini Günel Həmidzadə yaşadığı evdə dəm qazından zəhərlənərək ölüb.

Hər iki faktla bağlı araşdırma aparılır.

## Moskvada azərbaycanlıların iştirakı ilə kütləvi dava

**Moskva polisi Rusiya paytaxtındakı Çeremuşinski bazarında mühafizəçilər və azərbaycanlılar arasında atəş açılmasıyla baş verən dava-dalaş faktı üzrə cinayət işi açıb. TASS xəbər verir ki, bu barədə Rusiya Daxili İşlər Nazirliyi Baş İdarəsinin mətbuat xidmətindən məlumat verilib.**

"Faktla bağlı cinayət işi açılıb və hadisəni törədənlərin tapılması məqsədilə tədbirlər həyata keçirilir. Polis bölməsinə aparılan vətəndaşların qeyri-qanuni fəaliyyətdə əlinin olub-olmadığı araşdırılır", - mətbuat xidmətindən bildiriblər.

Xatırladaq ki, Çeremuşinski bazarında mühafizəçilər və azərbaycanlılar arasında dava dünən axşam baş verib. Bazarın sahibinin verdiyi ifadəyə görə, mühafizəçilər onlarla satıcını bazar ərazisindən çıxarmağa çalışıb. Qarşıdurma zamanı iştirakçılardan biri rəqibini travmatik silahdan açdığı atəşlə yaralayıb, xəsarət alan şəxs tibb müəssisəsinə göndərilib. Münaqişə iştirakçıları saxlanılıb. Bundan əlavə, məsələni araşdırmaq və aydınlaşdırmaq məqsədilə Çeremuşinski bazarının direkotoru da polis bölməsinə aparılıb.

## Füzulidə 2 yaşlı uşaq qazanda qaynar suya düşərək yanıb

**Azərbaycanda 2 yaşlı uşaq yanıb. APA-nın məlumatına görə, hadisə Füzuli rayonunda qeydə alınıb. Rayona qonaq gedən Bakı şəhər sakini, 2014-cü il təvəllüdlü Surxay Rövşən oğlu Hüseynov qazanda qaynar suya düşüb.**

Nəticədə ağır yanıq xəsarətləri alan azyaşlı təcili olaraq Respublika Yanıq Mərkəzinə yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

## İranda "quş qripi" yayılıb

**İranın paytaxtı Tehranın Malard bölgəsindəki 4 quşçuluq təsərrüfatında ev quşları arasında "quş qripi" xəstəliyi aşkarlanıb. APA-nın Tehran bürosunun məlumatına görə, bunu İranın Baytarlıq Təşkilatı açıqlayıb. Qeyd olunan 4 quşçuluq təsərrüfatında 513 mindən çox toyuq məhv edilib.**

İran Baytarlıq Təşkilatı elan edib ki, bu xəstəlik qonşu ölkələr - Ermənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və İraqda da yayılıb, lakin bu ölkələr Dünya Səhiyyə Təşkilatına hesabat verməyiblər.

Malard bölgəsinə yaxın Əlborz əyalətində qabaqlayıcı tədbirlər həyata keçirilir. Rəsmi şəxslər insanları diri quşları almaqdan çəkinməyə çağırıb. Əyalətdə 100-dən çox diri quş satılan obyekt bağlanıb.

## Bu gün ölkədə hava şəraiti yağmurlu olacaq

**Dekabrın 1-də Bakıda və Abşeron yarımadasında hava şəraiti buludlu olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, paytaxtda və yarımadada arabir yağış yağacağı gözlənilir.**

Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 3-5° isti, gündüz 8-11° isti, Bakıda gecə 3-5° isti, gündüz 9-11° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 80-90 % təşkil edəcək.

Azərbaycanın rayonlarında arabir yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz bəzi rayonlarda yağıntıda fasilə olacaq. Bəzi yerlərdə duman olacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1-6° isti, gündüz 8-13° isti, dağlarda gecə 0-4° isti, gündüz 4-8° isti olacağı gözlənilir.

**Az qala, hər günü bir və hətta bir neçə intihar xəbəri ilə açırıq. İntiharların azalacağına ümid edərkən getdikcə bunun əksi baş verir. Təkcə bu ilin 9 ayı ərzində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə 500 cinayət işi başlanıb, zərərçəkmiş qadınların sayı 156, yetkinlik yaşına çatmayanların sayı 27 nəfər olub.**

# İntiharların artmasının 3 əsas səbəbi

## Dəyanət Rzayev: "İnsanlarda sabaha inam yoxdur"

## Əhməd Qəşəmoğlu: "Mənəvi faktorların cəmiyyətdə daha fəal rol oynamasına şərait yaratmalıyıq"

Ölkədə ötən il Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə 658 cinayət işi başlanıb. Zərərçəkmiş qadınların sayı 183, yetkinlik yaşına çatmayanların sayı isə 31 nəfər olub. Ancaq intiharın səbəbləri barədə nazirlik açıqlama verməyib. Ümumiyyətlə isə hər il dünyada 800 min adam intihar səbəbi ilə dünyasını dəyişir. Ümumdünya Səhiyyə Təşkilatı bunu hər 40 saniyədə bir nəfərin ölümü ilə izah edir.

Azərbaycanda intiharların hər gün artmasının səbəbi nədir, ümidsizlik, yoxsa sosial yoxsullaşma? **Psixoloq Dəyanət Rzayev** buna səbəbin insanlarda olan inam və ümid hissinin ölməsi ilə bağlı olduğunu dedi: "Müəyyən dünya standartları var. Məsələn, ağır xəstəliyə tutulan, 40-dan yuxarı yaşı olan insanlar, alkoqoliklər, narkomanlar daha çox intihar edir. Bizdə isə baxırsan ki, tam sağlam insandır, intihar edir. Dünya statistikasında qadınlar az intihar edir. Amma bizdə hər ikisi edir. Bu gün bizdə intiharların çoxalmasının birinci səbəbi sosial mühit, sosial münasibətlərdir. Bu gün 3 faktor var ki, insanı ölümə doğru aparır: qeyri-müəyyənlik, qorxu və ümidsizlik. Bu gün insanlarımızda qeyri-müəyyənlik var. Çünki bizi neçə dəfə televiziyadan açıq şəkildə aldadıblar. Deyiblər ki, devalvasiya olmayacaq, manat stabildir, hər şey yaxşıdır. Amma ertəsi gün devalvasiya baş verib. Buna görə də insanlarda artıq qorxu və ümidsizlik var. Çünki bu gün heç bir proqram yoxdur ki, insanların maddi vəziyyətini yaxşılaşdırsınlar. Bu barədə heç nə demirlər. Başqa ölkələrdə isə bunu deyirlər. Məsələn, Rusiyada deyirlər ki, bu problem var və çözüm axtarılır. Bizdə isə bu gün problemlər danışılmır, gizlədilir. Buna görə də insanlarda sabaha inam yoxdur. Bu gün insanların beynində sabah mənim övladlarım nə edəcək, mən onların gözlərinə necə baxacam kimi suallar yaranıb. İntiharın statistikası açıqlanır, amma onun səbəbləri deyilmir. Niyə görə insan intihar edir, bu deyilməlidir. İntiharların artmasının əsas səbəbi bu gün insanların maddi sosial durumunun həddindən artıq aşağı olmasıdır. Misal üçün, mən maaşla işləyən hansısa müəllim, həkiməm. Ayda 150 manat maaş alıram və ya təqaüdçüyəm. Bu gün o qədər xəstəliklər var ki, apteklərdə növbə var. Ancaq insanlar xəstəliklərini müalicə etdirməyə pul tapa bilmirlər. 150 manat maaşla necə dərman ala bilərəm. O təqaüd, maaş heç kommunal xərclərə bəs eləmir. Erməni kilsəsinə pulsuz qaz verirık, amma özümüzdə qazın pulu artırılır. Bizim öz neftimiz, benzinimiz var. Gərək qaz, neft ucuz olsun. Bax bütün bunlara görə insanlarda ümidsizlik və inamsızlıq yaranıb. İnsanlar o qədər passiv və ümidsizdir ki, buna müqavimət də göstərmir. Yaranmış situasiyanı qəbul edir və tək çıxış yolunu intiharda görür. İnsan o qədər əzilir, ailəsinin üzünə baxa bilmir ki, intihar edir. Bu gün intiharların profilaktikası öyrənilməlidir. İqtisadiyyatla məşğul olan insanlar yalandan da olsa bir proqram ortaya qoysunlar. İnsanları çox aldatdıqları üçün heç nəyə



inanmırlar. Ümidsizlik çox pis bir şeydir. Açıq demək lazımdır ki, tutaq ki, bu problem var, ona görə qazın pulunu artırdıq. Amma bir ilə həll edəcəyik. İnsanların intihar etməsinin səbəbi sosial maddi durumdur".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Min illərdir bütün dini kitablar, peyğəmbərlər, müdrik insanların hamısı deyib ki, cəmiyyətdə maddi dəyərlər qabağa keçəndə o cəmiyyətdə qarışıqlıq, gərginlik, problemlər yaranır. Bu, 13-14-cü əsrlərdə primitiv şəkildə yaranırdısa, indi mürəkkəbləşən sistemdə, qloballaşmanın sürətlə getdiyi sistemdə daha çox yaranır. Çünki indiki cəmiyyət buna imkan yaradır. Məsələnin kökündə o dayanır ki, biz cəmiyyətdə maddi dəyərlərin nümayişkaranə rol oynamasına yol veririk. Mənəvi dəyərlər sıxışdırılır. İnsanlar istər ailədə, istər şəxsi dostluq münasibətlərində, istər qohumluqda, istər cəmiyyətdə, istərsə də dövlət strukturlarında bir-biri ilə maddiyyatla yarışır. Maddiyyatla yarışan cəmiyyətdə günü-gündən eybəcər hadisələr çoxalmalıdır. Burada yalnız intihar çoxalmayacaq, ailə zəminində qətllər, boşanmalar və digər xoşagəlməz hadisələr də artacaq. Azərbaycan balaca ölkədir. Bu ölkədə aktiv əhali cəmi bir neçə milyondu. Azərbaycanda 10 milyon əhali olsa da, onun bir hissəsi başqa ölkələrdədir, bir hissəsi qoca, bir hissəsi isə uşaqlardır. Bir neçə milyon aktiv əhali elə də böyük rəqəm deyil. Biz burada ictimai rəyi formalaşdıra da bilərik, şəraiti dəyişə də".

**Sosioloq hər hansısa bir davranışı formalaşdıran 3 əsas amilin olduğunu dedi:** "1 - mühit, 2 - aldığı informasiya, 3 - üstünlük verilən dəyərlər. Biz siz dediyiniz problemi bu 3 amil baxımından təhlil edəndə hər şey öz yerində olur. Mühit elə olub ki, insanlar bir-biri ilə maddiyyatla yarışırlar. 30-cu illərdə ölkədə maddi vəziyyət bundan da pis olub. O zaman indiki neqativ hallar yox idi. Çünki o zaman mənəvi dəyərlərə önəm verilirdi. Maddi dəyərləri at oynatmağa qoymurdular. Bu gün toylara gedəndə görürük ki, kimisi orada paltarını, kimisi qızıllarını, kimisi çağırdığı aktyorları, verdiyi yeməkləri nümayiş etdirir. Ailə daxilindəki bütün ziddiyyətli söhbətlər çox gərgin bir vəziyyətə gətirib çıxarır. İkinci, aldığımız informasiyalarla bağlıdır. Aldığımız informasiyalar ancaq intiharlarla, həyatın ucuzlaşması, məhkəmələrlə bağlıdır. 3-cü üstünlük verdiyimiz dəyərlər maddi yox, mənəvi dəyərlər olsa, inam faktoru olsa, həqiqi dini inanclar, dəyərlər tətbiq olunsa təbii ki, bu 3 faktor elmdə 100 faiz əsaslandığı kimi təsir edib davranışı formalaşdırır. Bu gün qəzetdə bir yazı yazmaqla, televiziyada bununla bağlı danışmaqla məsələ həllini tapmayacaq. Gərək ciddi fəaliyyət proqramlarımız, qanunvericilik bazamız, ictimai qınaq sistemimiz olsun ki, biz bu cəmiyyətdə maddi dəyərlərin at oynatmasının qarşısını alaq. Almasaq, cəmiyyətimizdə intiharlar da daxil, bütün neqativ hallar gündən-günə artacaq. İntiharların artması cəmiyyətin sosioloji qanunudur. Bunun qarşısını almaq üçün mənəvi faktorların cəmiyyətdə daha fəal rol oynamasına şərait yaratmalıyıq".

❑ **Günel MANAFLI**

# Dünyada saxta dollar harada və necə hazırlanır -ilginc faktlar

**Manatın dollara nisbətdə getdikcə dəyər itirməsi ölkədə həm də dollar qıtlığına səbəb olur. Bundan istifadə edən işbazlar "qara bazar"da dolları baha satmaqla yanaşı, dövriyyəyə saxta dollarlar da buraxırlar.**

## İşbazlar saxta əsginazlar hazırlamaq üçün qəhvə və yumurtadan da istifadə edir

Ötən günlərdə Daxili İşlər Nazirliyinin yaydığı məlumatda qeyd olunub ki, Bakı şəhər sakini Həcər Əliyeva Nəsimi rayonu ərazisindəki banklardan birində 1 ədəd 100 dollarlıq saxta əsginazı dəyişdirmək istəyərkən saxlanılıb.

Ekspertlər bildirirlər ki, hazırda Azərbaycanda dollara tələbat yarandığı üçün bura bazar üçün əlverişlidir.

Bəs dünyada saxta dollar harada və necə kəsilir?

Xarici medianın araşdırmalarına görə, dünyada işbazlar daha çox 20 dollarlıq saxta əsginazlar kəsməyə üstünlük verirlər. Eyni zamanda dövriyyədə 1 dollarlıq saxta əsginazlara da çox rast gəlinir. Bunun səbəbi kimi qeyd olunur ki, dəyəri az olan əsginazlara alış-veriş zamanı bir o qədər də diqqət edilmir. Yəni qarşı tərəf çox az hallarda pulun saxta olub-olmamasını yoxlayır. Nəticədə isə həmin əsginaz pulun həqiqiliyini yoxlayan aparata və ya banka gedənə qədər dövriyyədə qalır. Saxta pulun banka çatması ilə onun dövriyyədən çıxması baş verir...

Çap aparatlarının və digər bu kimi texnologiyanın inkişafından sonra dövriyyədə saxta pullara daha tez-tez rast gəlinir. Bunu önləmək üçün bəzi aparatlara xüsusi sistemlər də quraşdırılıb. Belə bir əhvalat da var ki, Kembric Universitetinə "Xerox" markalı rəngli çap aparatı gətirilib. Tələbələrdən biri aparatı yoxlamaq üçün dərhal cibindəki pulu daxil edərək, çap etmək istəyib. Lakin aparat pulun surətini çıxarmayıb, əvəzində saxta pulun qeyri-qanuni olması ilə bağlı xəbərdarlıq çıxıb.

Bu baxımdan ekspertlər hesab edirlər ki, Avropada və Amerikada demək olar ki, saxta pul kəsiminin qarşısı alınıb. Eyni zamanda insanların artıq ödənişi kartı vasitəsilə etməyə üstünlük verməlləri də, necə deyərlər, saxta pul kəsənlərin



bazarını öldürüb. Buna görə də hazırda dünyada saxta pula daha çox Afrika ölkələrində rast gəlinir.

Ümumilikdə isə saxta pul çapına manеə törətmək üçün mərkəz banklarının hansı texnoloji tədbirlər almaları hələ tam olaraq bilinmir.

İşbazlar proqramlarla düzəltdikləri gerçək pul surətini müxtəlif maddələrə salaraq (qəhvə, yumurta ağı və sairə) bir qədər keyfiyyətini və rəngini dəyişirlər. Nəticədə isə eyni nömrəli saxta pullar yaradırlar. Bildirilir ki, dünyada təxminən 200 milyon saxta dollar dövriyyədədir. Dünyada cəmi 800 milyard dollar kağız pulun dövriyyədə olduğunu düşündüyümüzdə bu yetərincə böyük rəqəm sayılır.

Saxta pulu ilk ələ verən orijinal pulla eyni maddədən ibarət ola bilməməsidir. Buna görə də saxtakarlar çıxardıqları saxta pulu barlarda, restoranlarda müştərinin ən sıx olduğu saatda kassaya verirlər. Bildirilir ki, Avropada bir çox fast-food restoranı bu səbəblə 20 dolların üzərindəki banknotları qəbul etmir.

Bir məqam da var ki, saxta pul, türklər demiş, ataş kimidir və düşdüyü yeri yandırır. Kimin əlində tutulursa, onun üstündə qalır. Bu işin kökünü araşdırdıqda, problemin başlanğıcının daha qədim dövrlə bağlı olduğunu görmək olur. Belə ki, iddia olunur ki, 18-ci əsrdə İngiltərə-Amerika çəkişməsi dövründə ingilislər saxta dollar kəsərək, Amerika iqtisadiyyatını çökdürməyə çalışıblar.

### Həqiqi dollar...

Hər nə qədər "kağız pul" desək də əslində pul kağız deyil. Amerika dolları 1879-ci ildən bəri kətan - pambıq qarışığı bir maddədən çıxarılır. Həqiqi ABŞ valyutasının tərkibində 25 faiz kətan və 75 faiz pambıq var.

Həqiqi dollar da istifadəsindən asılı olaraq, müəyyən bir müddət sonra yararsız hesab edilərək, dövriyyədən çıxarılır. Təhlillərə görə, ən qısa ömürlü əsginaz 1 dollardır. Bu pul çox istifadə edildiyi üçün təxminən18 ay sonra dövriyyədən çıxır. 50, 100 dollarlıq əsginazlar isə təxminən 9 il dövriyyədə qala bilir. Pulların yalnız 4 min dəfədən artıq qatlanıb açıldıqdan sonra cırıla biləcəyi söylənilir.

**Ekspert Rauf Ağayev mövzu ilə bağlı "Yeni Müsavat"a bildirib ki, saxta pulun tarixi, demək olar ki, həqiqi pulun ortaya çıxması ilə eynidir:**

"Saxta pulun hazırlanması ilə bağlı dövlətlər səviyyəsində çox böyük cəzalar tətbiq olunub. Dünya səviyyəsində saxta pullar içərisində ən çox rast gələnən dollardır. Ölkədən asılı olmayaraq harada şəraiti qura bilirlərsə, orada saxta pulun hazırlanmasını həyata keçirirlər. Daha çox hazırkı dövrdə ərəb, Afrika ölkələrində bu cür saxta pullara rast gəlinir. Vaxtilə İraqda çap olunan saxta dollar, "ən yaxşı saxta dollar" hesab olunurdu. Çünki əslindən bir o qədər də seçilmirdi. İqtisadiyyatı çökdürmək üçün çap olunan saxta dollarlar isə tamamilə başqadır. Onu çox çətinliklə gerçəyindən seçmək olur. Vaxtilə İngiltərə iqtisadiyyatını da çökdürmək üçün funt-sterlinqlər dövriyyə buraxılmışdı".

**Ekspert bildirib ki, manat olduqca yüksək mühafizə sisteminə malik olan əsginazdır:** "Pulda 4 mühafizə sistemi olur. Onlardan birincisi adi insanların müəyyən etmələri üçün olan və pulu tərpədəndə rəngi dəyişən işarədir. Digərləri isə aparatlar, xüsusi işıqlar vasitəsilə müəyyənləşdirilir. Azərbaycan saxta dolların yayılması üçün o qədər də əlverişli yer deyil. Çünki xarici valyutanın miqdarı və əhalinin sayı azdır. Dünyada ən çox saxta pul dəyişən erməni olub. O, 15 milyon dolları dəyişdiyini boynuna alıb. O, dağda sex qurub, orada saxta pul kəsirmiş. Həyat yoldaşı da deyirmiş ki, bəs ərimə həkim resept yazıb ki, dağ havasında çox gəzsin. Ona görə də dağa gedir. SSRİ məkanında ən böyük saxta pul isə Mixail Qorbaçovun Baranov soyadlı sürücüsündə olub. Onun düzəltdiyi saxta pullar Rusiya Daxili İşlər Nazirliyinin muzeyində saxlanılır".

❑ **Əli RAİS**

# YENİ MÜSAVAT



N 267 (6588) 1 dekabr 2016



## Uzunömürlü qadın sirləri açıqladı

Dünyanın ən yaşlı qadını kimi qeydə alınan italiyalı Emma Morano 117 yaşını qeyd edib. Lenta.ru saytının xəbərinə görə, qadın ad günündə uzunömürlülüyün sirrini açıqlayıb. Deyib ki, uzun ömrünü yumurta və peçenyeyə borcludur. "The Guardian"a müsahibəsində Morano öz dietasından danışıb: "Mən gündə iki yumurta və peçenye yeyirəm. Amma çox yeyə bilmərəm, çünki dişlərim yoxdur".

Morano ad gününü çərşənbə axşamı, 29 noyabrda qeyd edib. Ad gününə iki bacısı uşağı, həkimi və dayəsi gəlib. Morano iki dəfə ərdə olub. Onun ilk əri Birinci Vətən müharibəsində dünyasını dəyişib. İkinci əri ilə 26 yaşında evlənib. Sevgi əsasında olmayan bu nikah zamanı qadın şiddət görürmüş. Karlığına və görmə probleminə baxmayaraq, uzunömürlü qadın çox gözəl əhvaldadır. Qadını yerli şəhər hakimiyyəti və İtaliya prezidenti Serco Mattarella təbrik edib.

Hazırda Morano 19-cu əsrdə dünyaya gəlmiş yeganə insan sayılır. Bu günə qədər qeyri-rəsmi şəkildə Kürdüstanda 134 yaşlı Axmada Sufi adlı kişinin, eləcə də 145 yaşlı İndoneziya sakini Sodimeconun adı kainatın ən yaşlı insanı kimi hallanırdı. Amma onların heç birinin rekordu rəsmən təsdiqlənməyib.

## Hamilə qadının evində Wi-Fi varsa...

"Forbes" jurnalı internet və cib telefonları ilə bağlı yeni bir araşdırma yayımlayıb. Araşdırmaya görə, xərçəngə səbəb olan 250 maddə arasında televizor, radio, mikrodalğalı soba, cib telefonu və kablosuz internet(Wi-Fi) yer alır. Alimlər məsləhət görür ki, uşaqları mümkün qədər bu dalğalardan qorumaq lazımdır. Elektromaqnit dalğalara uzun müddət məruz qalan insanlarda xərçəng riski artır, başqa xəstəliklər yaranır. İnsanların məruz qaldığı elektromaqnit dalğaların xərçəngə keçmə dövrü isə 30 il və daha çox hesablanır. "Wi-Fi bizi yavaş yavaş öldür"ürmü" başlıqlı məqalə yazan alim Mark Gibbsin fikrincə, 50-100 il sonra dönüb geriyə baxanda cib telefonu və kabelsiz internetin insanlıq tarixinin ən böyük sağlıq krizinə səbəb olmasına təəccüblənə bilərik. Riskin ən yüksək olduğu dönəm isə körpənin hələ ana bətnində olduğu dönəmdir. Hamilələrin evində Wi-Fi olmamalı, cib telefonu isə onlardan uzaqda olmalıdır.



## Yumurta arıqladır



İngiltərə alimləri yumurtanı "təmizə çıxartmaq" üçün xüsusi araşdırmalar aparıblar. Araşdırmada 2 qrup insanlar iştirak edib. Hər iki qrupun üzvləri eyni qaydada qıdalanıb. Lakin 1-ci qrup hər gün 2 yumurta yeyib, 2-ci qrup isə yeməyib. 3 aydan sonra elmi təcrübədə iştirak edən insanların qanında xolesterinin səviyyəsini yoxlayılar. Məlum olub ki, hər gün 2 yumurta yeyən insanların qanında xolesterinin səviyyəsi qalxmayıb və yumurta yeməyən insanların xolesterinindən fərqlənmir. Bundan əlavə, yumurta yeyən qrupun üzvləri çəki atıblar.

Beləliklə, yumurtanın gündəlik qəbulu qanda xolesterinin səviyyəsini artırmır. Təbii ki, yumurtanı yağda qızardılmış şəkildə yox, suda bişirilmiş şəkildə yemək daha yaxşıdır. Həmçinin yumurta bərk yox, ilıq olmalıdır - bu halda yumurta orqanizm tərəfindən daha yaxşı mənimsənilir. Çiy yumurtanı isə ümumillikdə qəbul etmək tövsiyə olunmur. Çiy zülal orqanizm tərəfindən daha pis mənimsənilir və həmçinin çiy yumurta qəbul edən insanın orqanizminə çox təhlükəli mikroblar düşə bilər.

Yumurta arıqlamağa kömək edir - yumurta insanı daha uzun müddət ərzində tox saxlayır.




**QOÇ** - Nəzərə alın ki, ortalığa pulla bağlı problemləriniz çıxa bilər. Bu səbəbdən də adı çəkilən mövzuya kifayət qədər həssas yanaşmalısınız. Ciddi sövdələşmələrdə iştirakdan yayının.

**BUĞA** - Yeni xəbərlər yolunuzu gözləyir. Bütün astroloji göstəricilər nahardan sonra ağlınıza gətirmədiyiniz adamların sizə sürpriz vəd edəcəyini xəbər verir. Görüşləri təxirə salmayın.

**ƏKİZLƏR** - Mübahisəli bir təqvim yaşayacaqsınız. Təmkininizi qoruya bilməsəniz, ciddi münaqişələrə də cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ailədə emosional çıxışlara son qoyun.

**XƏRÇƏNG** - Hər mənada uğurlu gündür, bir şərtlə ki, əsəblərinizi cilovlaya biləsiniz. Yalnız xeyirli şeylər arzulayın ki, sizə də xeyir gəlsin. Fəaliyyətdə uğurlarınız arta bilər.

**ŞİR** - Sağlamlığınıza fikir verin. Ulduzların düzümü fiziki xəsarətlər alacağınızı da istisna etmir. Tanış olmayan ünvanlara getməyin. Axşama yaxın sevindirici hadisələrin şahidi olacaqsınız.

**QIZ** - Ümumi gərginliyiniz kifayət qədər səngiyəcək. Ünsiyyətdə olduğunuz insanlarla, ələlxüsus da həmkarlarınızla davranışlarda mülayim olun. Perspektivli təkliflər ala bilərsiniz.

**TƏRƏZİ** - Yaxşı olar ki, ağır fiziki işlərə, ümumiyyətlə, fəaliyyətə ara verəsiniz. Əsas diqqətinizi istirahətə və gəzintilərə həsr edin. Gələcəyiniz üçün önəmli olan görüşlərdən yayınmayın.

**ƏQRƏB** - Səhhətinizi qorumağı bacarsanız, ulduzlar sizi əməlli-başlı sevindirəcək. Saat 13-15 arası maraqlı bir təklif alacağınız gözlənilir. Çalışın ki, imtina etməyəsiniz.

**OXATAN** - Göy qübbəsi varlanma ehtimalınızın yüksək olduğunu bəyan edir. Bu səbəbdən də ümid bağladığınız bütün istiqamətlərə baş vurun ki, kisəniz boş qalmasın. Yeni görüşlərdən yayınmayın.

**OĞLAQ** - Saat 12:52-dən Ay bürcünüzdə olduğundan emosiyalarınızı cilovlamalısınız. Əsas enerjini biznesə həsr edin. Çünki büdcənizi artırmaq və sövdələşmələr aparmaq üçün düşərli gündür.

**SUTÖKƏN** - Ailə üzvlərinizlə, xüsusən də sevdiyiniz adamla münasibətləri qaydasına salmaq istəyirsinizsə, güzəştə gedin. Unutmayın ki, həmişə kəsə yolla getmək olmur. Axşam qonaq gedin.

**BALIQLAR** - Səhər saatlarında müəyyən gərginliklə üzləşmə ehtimalınız olsa da, sonrakı müddəti uğurlu keçirəcəksiniz. Yeni təkliflər alacağınız da mümkündür. Bir sözlə, sürprizlərə hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Katarakta əməliyyatı keçirənlər daha uzun yaşayır



Amerikanın Oftalmoloji Dərnəyinin araşdırmasına görə, katarakta əməliyyatı olunan insanlar digərlərinə nisbətən daha çox yaşayır. 1.5 milyon insan üzərində aparılan araşdırmanın nəticəsinə görə, katarakta əməliyyatı olan xəstələrin yaşam səviyyəsinin artmasına görə bu nəticəyə gəliblər. Xüsusən də 65 yaşından sonra özünü göstərməyə başlayan katarakta yaşayış səviyyəsini yüksəldir. Eyni yaşda, oxşar sağlıq durumuna sahib olan xəstələr arasında aparılan statistikaya görə, katarakta xəstələrinin ölüm faizi əməliyyat olmayanlarla müqayisədə 30 faiz daha azdır. Bu əməliyyatdan keçən şəxslərdə daha sonradan ev qəzalarının sayı artır, dərmanlarını əskiksiz və daha doğru istifadə edirlər, gündəlik həyat tərzləri daha da aktivləşir. Bundan başqa, həmin şəxslərdə yaşam səviyyəsi ilə yanaşı, psixologiya da düzəlir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.